NOVRUZ BAYRAMIMIZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq
ƏDALƏT

Səməd Seyidovdan Qarabağ ermənilərinə müraciət

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov Qarabağ ermənilərinə müraciət edib.

Adalet.az xəbər verir ki, o, bu barədə tviterdə yazıb: "İllüziyalarınızı bir kənara qoyub ortaq gələcəyimiz haqqında danışmaq üçün Bakıda bir araya gəlməyin vaxtıdır. Bu şansı qaçırmayın".

Qeyd edək ki, Prezident Administrasiyası Qarabağ ermənilərini növbəti görüş üçün Bakıya dəvət edib.

Xatırladaq ki, daha əvvəl deputat Ramin Məmmədov Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs qisminde müəyyən edilib. O, Xocalı şəhərində, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Azərbaycan Qarabağ bölgəsində yaşayan erməni sakinlərin təmsilçiləri ilə görüşüb.

DTX: "Casusluq edən xarici ölkə vətəndaşı həbs edilib"

Azərbaycanda casusluq edən xarici ölkə vətəndaşı həbs edilib.

Adalet.az xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytı məlumat yayıb.

Bildirilib ki, istintaq olunan cinayət işi üzrə aparılan araşdırmalar zamanı xarici ölkə vətəndaşı, 1994-cü il təvəllüdlü Ghaedi Mohammad Najaf oğlu tərəfindən Azərbaycan ərazisində casusluq cinayət əməllərinin törədilməsinə əsaslı şübhələr müəyyən edilib. Belə ki, toplanılmış çoxsaylı sübutlar əsasında Ghaedi Mohammad Najaf oğlunun xarici xüsusi xidmət orqanının tapşırığı ilə dövlət sirri olan və Azərbaycan Respublikasının təhlükəsizliyi zərərinə olaraq istifadə etmək üçün məlumatların toplanılması və verilməsinin təşkili, o cümlədən Azərbaycan Respublikası hüquq-mühafizə orqanı əməkdaşları barədə fərdi məlumatların əldə edilməsi, onlarla şəxsi münasibətlər qurulması və onların xarici ölkənin xüsusi xidmət orqanı tərəfindən məxfi əməkdaşlığa cəlb edilməsi istiqamətində fəaliyyət göstərdiyi məlum olmuşdur. Ghaedi Mohammad Najaf oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı (casusluq) maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilmiş və məhkəmə tərəfindən barəsində həbs qətimkan tədbiri seçilmişdir. Cinayət işi üzrə araşdırmalar davam edir.

FHN-dən əhaliyə: Ehtiyatlı olun

Fövqəladə Hallar Nazirliyi Novruz bayramı ilə əlaqədar təhlükəsizlik qaydalarına dair əhaliyə təkrar müraciət edib.

Adalet.az xəbər verir ki, müraciətdə deyilir: "Xalqımızın sevimli Novruz bayramı bir sıra özünəməxsus mərasimlərlə, o cümlədən bayram tonqalları və açılan bayram süfrələrində şamların yandırılması ilə xarakterizə olunur. Lakin təəssüflə bildirməliyik ki, bəzən sadə yanğın təhlükəsizliyi qaydalarına etinasızlıq sonda arzuolunmaz nəticələrə, ağır fəsadlarla gətirib çıxarır. Qeyd olunanları nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək Novruz bayramı ilə əlaqədar təşkil olunan mərasimlərdə zəruri yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmasını tövsiyə edir. Belə ki, bayram tonqalı ev, avtomobil, elektrik naqili, ağac və digər yanar materiallardan kənarda yandırılmalı, azyaşlılar mütləq böyüklərin nəzarətində olmalı, tonqal üzərindən atılarkən ehtiyatlı olmalı, tonqal tam sönənədək nəzarətdə saxlanılmalı və bayram süfrələrində yandırılan şamlar nəzarətsiz qalmamalıdır. Həmçinin, nəzərə alınmalıdır ki, küləkli hava şəraitində tonqal yandırılması xüsusilə təhlükəli hesab olunur.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!"

FHN təhlükə zamanı 112-yə zəng etməyi tövsiyə edib.

Ərdoğan: "Hamını eyni anda xilas etmək mümkün olmazdı"

"Dağıntılar o qədər böyük idi ki, hər binaya bir nəfər xilasedici göndərsəydik belə, hamını eyni anda xilas etmək mümkün olmazdı".

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan AK Partiya qrup toplantısında deyib.

Türkiyə liderinin sözlərinə görə, ilk zəlzələlərdən sonra 16 300-ə yaxınlaşan afterşok qeydə alınıb: "Onlardan 45-i 5-6, 532-si isə 4-5 bal gücündə olub. Bu zəlzələdə Türkiyə dünyada indiyə qədər görülmüş ən böyük axtarış-xilasetmə qrupunu bir araya gətirdi. Məhz buna görə də biz işi belə qısa müddətdə başa çatdırdıq.

Təbii ki, ölüləri qaytarmaq bizim səlahiyyətimizdə deyil. Amma biz geridə qalan vətəndaşlarımızı həyata bağlamaq üçün mümkün olan hər şeyi etməyə çalışırıq. İlk növbədə zəlzələdən ən çox zərər çəkən, evləri dağılan, yararsız hala düşən 11 vilayətdə 14 milyon insanımızın qida və sığınacaq ehtiyaclarını qarşılamaq üçün sürətli və təsirli bir təşkilat qurduq. Xalqımız əsrin fəlakəti qarşısında əsrin həmrəyliyini göstərdi".

Hər kəs ədalətli olacaq
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 11 (6004) 17 mart 2023-cü il | Qiyməti 40 qəpik

ANKARADA ZİRVƏ GÖRÜŞÜ

Bax:səh-2

QARDAŞLIQ QƏLƏBƏ QAZANACAQ!

Martın 26-da "Qalatasaray" Bakıya gəlir və Beynəlxalq Olimpiya stadionunda "Qarabağ"ın qonağı olacaq. Türk dünyasının iki əjdaha komandası qarşılaşacaq. Və bu oyunda yığılan pul da qardaş ölkədə zəlzələdən zərərçəkənlərin hesabına köçürüləcək. Yəni bu görüş xeyriyyə məqsədi daşıyır.

Baxıram, saytlarda, sosial şəbəkələrdə görüş geniş müzakirə olunur. Ay nə bilim əsas heyətlər oynamayacaq, ay nə bilim, stadion uzaqdı və sair və ilaxır. Amma bir nəfər maraqlı yazmışdı, deyəsən belə idi ki, BOS-da futbola baxmaq elə bil Binəqədidə oturub Balaxanıda futbola baxırsan. Xeyli güldüm. Həqiqətən elədir, iki-üç dəfə də mən həmin stadionda futbol izləmişəm. Gərək teatrda olduğu kimi özünlə durbin də götürəsən.

Nə isə. Bunlar bir bəhanədi. Qardaş ölkədə zəlzələ olan günün sabahı birinci yetişən Azərbaycan oldu. Ən çox xilasedicilər də Fövqəladə Hallar Nazirliyinin əməkdaşları idi, ən çox yardımı da Azərbaycan dövləti, Heydər Əliyev Fondu və Azərbaycan xalqı göstərdi. Elə adamlar oldu ki, evdəki son yorğan-döşəyini bağışladı.

İndi "Qarabağ"-"Qalatasaray" oyunu da xeyriyyə məqsədi daşıyır. İnanıram ki, stadion ağzına qədər dolacaq. Xalqımız qardaş ölkəni nə qədər sevdiyini bu oyunda da göstərəcək.

Qaldı kimin qalib gəlməsinə, bu o qədər də böyük önəm daşımır. Qalib qardaşlıq olacaq!

Azərbaycanda çörək ucuzlaşdı

Martın 11-dən etibarən iri market şəbəkələrində 650 qramlıq dairəvi (zavod) çörəyin qiyməti 70 qəpikdən 65 qəpiyə düşüb.

Bu barədə Adalet.az-a İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətindən bildirilib.

Bu, Dövlət Xidmətinin istehlak bazarına nəzarət tədbirləri çərçivəsində əhalinin istehlak səbətində xüsusi yer tutan ərzaq məhsulları, o cümlədən un və çörək bazarında mütəmadi monitorinqlərin nəticələrinə əsasən müşahidə olunub. Un bazarında isə 50 kq-lıq bir kisə unun topdansatış qiyməti 9 mart 2023-cü il tarixində 35,5 manat - 37,2 manat olub. Qeyd etmək lazımdır ki, 2022-ci ilin avqust ayında bu göstərici 40,7 manat - 41,5 manat təşkil edirdi.

Beləliklə, son dövrlərdə dünya bazarlarında, xüsusilə də Azərbaycan üçün əsas idxal bazarları olan Rusiya və Qazaxıstanda ərzaqlıq buğdanın qiymətində baş verən ucuzlaşma ölkəmizdə bazar prinsiplərinə uyğun olaraq tələb-təklif əsasında formalaşan unun qiymətlərinə təsirsiz ötüşməyib. Daxili bazarda unun topdansatış qiymətinin aşağı düşməsi çörəyin qiymətinə də birbaşa təsir edib.

Qeyd etmək lazımdır ki, cari ilin fevral ayında ərzaqlıq buğdanın orta aylıq idxal dəyəri 307,4 ABŞ dolları təşkil edib ki, bu da, 2022-ci ilin avqust ayı (354,4 ABŞ dolları) ilə müqayisədə 13 % aşağıdır.

"Azərbaycandan Türkiyəyə təqaüdünü göndərən yaşlı babamızı unutmamışıq"

"Azərbaycandan Türkiyəyə təqaüdünü göndərən yaşlı babamızı unutmamışıq".

Adalet.az "Anadolu"ya istinadən xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının iclasında çıxışı zamanı deyib. O, Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması sahəsində ölkəsinə verdiyi dəstəyə görə TDT-yə üzv dövlətlərə təşəkkür edib: "Gücümüz birliyimizdədir. Türk Dövlətləri Təşkilatı hər birimizin yuxusu idi, indi reallaşdı". Çavuşoğlu həmçinin bildirib ki, orta dəhlizin qlobal ticarətdəki rolu artmalıdır.

Rüstəm Hacıyev

ABŞ maliyə böhranı ilə üzləşə bilər

Bax:səh-3

KAPİTAN FORMASI GEYİB SERJANT KİMİ OYNAYANLAR...

Futbolçuların geyindiyi forma da oyuna bir gözəllik qatır. Əvvəllər futbolçularımızın forması, yəni əyninə geydiyi maykalar, o qədər də yaraşıqlı deyildi. Hətta demək olar ki, yox idi. Bir dəfə Fransa ilə oynayanda futbolçularımızdan biri fransızla formasını dəyişmişdi. Ağasəlim Mircavadov deyirdi ki, sonra yalvardıq ki, formanı qaytarın, çünki forma çatışmır. İndi Allaha şükür, həm forma bolluğudu, həm də yaraşıqlıdı.

Bir dəfə "Zaman" qəzetinin bir müxbiri vardı, adı yadımdan çıxıb, yazmışdı ki, Azərbaycanın milli komandası Argentinanın formasını geyinib Masallının "Viləş" komandası kimi oynayırdı.

İndi baxıram, bir çox klubların futbolçularının formasının çiyinlərində dörd ulduz həkk olunub. Yəni kapitan rütbəsidi, amma oyunlarına baxırsan heç serjant kimi də oynamırlar.

Vaxtilə ən yaxşı formalardan biri "Qəbələ"nin idi. Formanın çiyinlərində də böyük ulduz vardı, yəni general forması idi. Elə onda da "Qəbələ" generala layiq olmasa da, polkovnik kimi oynaya bilirdi. Sonra nədənsə formanı dəyişdilər. Ondan sonra da serjant kimi olmasa da, leytenant kimi oynamağa başladılar.

Arzu edirəm ki, futbolçular geydiyi formalarına layiq oynasınlar. Çiyinlərinə kapitan rütbəsi vurublarsa serjant kimi oynamasınlar.

AVROPA RUSİYANIN QABAĞINDAN GERİ ÇƏKİLİR

Düzdür, Ukrayna tam şumlanana qədər NATO və Avropa dövlətləri Zelenskidən silahsursatı "əsirgəməyəcəklər". ABŞ və Avropa dövlətləri İraqa, Suriyaya, Liviyaya, Yəmənə gətirdiyi demokratiyanı indi də Ukraynaya gətirib. Nə isə. Rusiya-Ukrayna müharibəsi başlayandan ABŞ və Avropa dövlətləri keçmiş böyük qardaşlarımıza sanksiyalar tətbiq ediblər və hələ də edirlər.

Bunlardan biri də Rusiyanın futbol komandalarını beynəlxalq çempionatlardan təcrid etmək olub. Amma son zamanlar bu məsələ yenidən müzakirə olunur, Rusiya komandalarına tətbiq edilmiş təcridi aradan götürmək istəyirlər.

PARİS MAKRONUN ARVADININ GÜNÜNƏ DÜŞÜB

Ermənilərin qədimi ("qədimi" sözünün nə məna daşıdığını bilmək istəyirsinzsə Yusif Vəzir Çəmənzəminlinin "Qan içində" romanını oxuyun. Düzdür, Qarabağda "qədimi" ilə yanaşı "köhnə" sözü də işlədilir) və böyük bacıları fransızların başkəndi Paris dünyanın ən gözəl şəhəri sayılırdı. Amma Makron hakimiyyətə gələndən bu gözəl şəhər də onun xanımının gününə düşməyə başlayıb. Şəhəri zibil basıb, üfunət iyi bürüyüb.

Azərbaycanlıların yaxşı bir sözü var: "Mal yiyəsinə oxşamasa haramdı"!

"NƏRMİN İŞİ"NİN YANINDA "NÜRNBERQ PROSESİ" YALAN OLUB

Gözümü açandan, ağlım kəsməyəndən və ağlım kəsəndən bu günədək "Nərmin işi"nin məhkəmə prosesi davam edir. "Nürnberq prosesi" bunun yanında yalan olub.

Deyəsən, qardaş ölkədən örnək götürmüşük. Türkiyədə adi qonşu davasının məhkəməsi bəzən illərlə davam edir. Hətta belə bir film də çəkiblər.

"Nərmin işi" məhkəməsi də uzandıqca uzanır, deyəsən gələcək nəsillərə də gedib çıxacaq.

Aqil ABBAS
aqilabbas@rambler.ru

NƏVƏM NİYƏ MƏNİM İSTƏDİYİM RƏSMLƏRİ ÇƏKMƏK İSTƏMƏDİ?

Dostlar bilir, mənim rəssamlıq qabiliyyətim var, yəni xobbimdi. Hərdən bəyəndiyim şeirlərə illüstrasiyalar çəkirəm, sonra elə müəlliflərin özlərinə bağışlayıram. Xüsusilə orta məktəbdə oxuyanda daha çox çəkirdim. Çəkdiyim rəsmlər də Ağdam Pionerlər Evinin dəhlizini bəzəyərdi, eləcə də məktəbin. Onda sürrealizmdən xəbərim yox idi. Universitetdə oxuyanda dünyanın məşhur rəssamlarının albomlarını bukinistdən alırdım. Və bir dəfə Salvador Dalinin bir albomu keçdi əlimə və Dali məni dəli elədi. Gördüm ki, mənim çəkdiyim rəsmlər də bu qola yaxındır. Amma təbii ki, ibtidai.

Orta məktəbdə əlaçı idim. Yalnız nəğmə dərsindən həmişə "2" alırdım. Çünki heç bir musiqi istedadım yox idi, hətta atamın 500 manat rüşvət verib məni Uşaq Musiqi Məktəbinin tar sinfinə qoysa da, təxminən 20 gündən sonra məktəbin direktoru rəhmətlik Cəlal müəllim (Böyük Cəlal) atamın pulunu qaytardı və məni məktəbdən qovdu. Və atama dedi ki, Məhəmməd incimə, bu uşaqda musiqi duyumu yoxdu. O "sluxu" yoxdu dedi.

Bax:səh-2

BAKİRƏ ÇIXMAYAN GƏLİNİN YENGƏSİNİ...

Oxucu məni bağışlasın, bir az kobud səslənir, çalışacam redaktə edim.

Bilirsiniz də toyda gəlinin yanında yengə də gəlir. Yengə həm də gəlinin bakirəliyinə cavabdehdi. Gəlin bakirə çıxanda oğlan evi Yengəyə bahalı hədiyyələr verir.

Amma bunun tərsi də var. Vay o günə ki gəlin bakirə çıxmaya. Onda bilirsiz də Yengəyə nə edirlər? Yazılması ayıbdı, amma özünüz başa düşdüz də.

İndi Rusiya sülhməramlıları Qarabağdakı erməni separatçılara Yengəlik edir. Xüsusilə də Xankəndi-Xəlfəli- Turşsu istiqamətində. Özlərinin gəlin maşını kimi bəzədilmiş BTR-ləri və ya BMP-ləri də separatçıların silah-sursat daşıyan maşınlarının qabağında gedirlər.

Ermənilərin bakirəliyi çoxdan pozulub, ən məşhur və hörmətli adamları Kim Kardaşyan olan bir millətdən bakirəlik gözləmək təbii ki, mümkün deyil.

Rus sülhməramlıları başa düşməlidir ki, bu Yengəlik onlara baha-başa gələ bilər. Azərbaycan əsgəri, xüsusilə də YAŞMA toyda bakirə çıxmayan qızın... Yengəsi kimi sülhməramlı Yengələri də... day özünüz başa düşdüz də.

GÜNÜN LƏTİFƏSİ



Zakir Fəxri avtobusda görür ki, bir nəfər cavan oğlan oturub, qucağında da bir yekə sumka. Bir qoca arvad da ayaq üstə güclə dayanıb. Üzünü oğlana tutub:

- Ay oğlan, görmürsən bu qoca arvad ayaq üstə güclə dayanır? Dur yerini ver ona.

Oğlan:

- O qoca arvad mənim qaynanamdı.

Zakir Fəxri:

- Boyy.... Qardaş onda diziyin üstündəki sumkanı da ver arvad saxlasın, ayaqların ağramasın.

ANKARADA ZİRVƏ GÖRÜŞÜ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib.

Adalet.az xəbər verir ki, dövlət başçısı İlham Əliyev tədbirdə iştirak edib. Dövlət başçısı Fövqəladə Zirvə görüşündə çıxış edib. Daha sonra çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə, Azərbaycana və TDT-nin sədri Özbəkistana təşəkkürünü bildirib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Zirvə görüşünə yekun vurub.

Sonda Ankara Bəyannaməsi və digər sənədlər imzalanıb.

"Azərbaycan zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olub"

"Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olmuşdur".

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışında deyib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndəriliblər. "Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilər və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız ümumilikdə üç mindən artıq şəxsə tibbi xidmət göstərib", - deyə Prezident İlham Əliyev vurğulayıb. Azərbaycan Prezidenti, həmçinin qeyd edib ki, bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülüb. Bununla yanaşı, 5 300 ton humanitar yardım çatdırılıb.

"Azərbaycan və Türkiyə bundan sonra da bir-birinin yanında olacaqlar"

"Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşlar. Bundan sonra da belə olacaq".

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışında deyib. "2020-ci ildə İkinci Qarabağ müharibəsində ilk saatlardan başlayaraq son günə qədər Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi. Eyni zamanda, 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanındaydı. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlib", - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev qeyd edib ki, 2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanıb və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılıb.

"Ermənistan hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmayıb"

"2022-ci ildə Praqa və Soçidə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmayıb. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır".

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışında deyib. "Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır. Beləliklə, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatı kobudcasına pozur və buna görə məsuliyyət daşımalıdır, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

"Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır"

"2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə genişmiqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır".

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev martın 16-da Ankarada keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə çıxışında deyib.

"Biz sıfırdan doqquz yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq. Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misligörünməmiş bir yenidənqurma modelidir", - deyə dövlətimizin başçısı vurğulayıb.

TDT Baş katibi: "Türk dövlətləri Qarabağ müharibəsində Azərbaycanı tək qoymadılar"

"Türk dövlətləri (İkinci) Qarabağ müharibəsində Azərbaycanı tək qoymadılar".

Adalet.az xəbər verir ki, bunu Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömuraliyev deyib.

O bildirib ki, Türk dövlətləri bundan sonra da həmişə birlikdə olacaq.

Baş katib, həmçinin xatırladıb ki, fövqəladə toplantının Türkiyədə keçirilməsi ilə bağlı təşəbbüsü Azərbaycan Prezidenti İlham Əliyev irəli sürüb.

İlham Əliyev:

"Hazırda sülh üçün vaxt yetişib"

Martın 9-da "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumda çıxış edərək bildirib ki, Nüfuzlu beynəlxalq platforma,Qlobal Bakı Forumu aparıcı beynəlxalq forumlardan birinə çevrilib.

"Bakı Qlobal Forumunun iştirakçılarının təmsilçilik səviyyəsi və intellektual potensialı aparıcı beynəlxalq konfranslara uyğundur. Tədbirdə 60 ölkədən 350 nəfər iştirakçı var. Onların sırasında 50-dən artıq hazırkı və sabiq prezident və baş nazir var. Müzakirələrin səviyyəsi kifayət qədər yüksək olacaq.

Nizami Gəncəvinin müdrikliyi və istedadı Azərbaycan xalqının istedadını və müdrikliyini təcəssüm etdirir.Nizami Gəncəvi Azərbaycanın qədim şəhərlərindən olan özünün doğma Gəncə şəhərində dünyaya göz açıb, yaşayıb, orada vəfat edib və dəfn olunub.

Azərbaycan Qoşulmama Hərəkatında 2019-cu ildə öz üzərinə götürdüyü və 120 dövlətin yekdil qərarı ilə daha bir il - 2023-cü ilədək uzadılmış sədrliyini başa çatdırır.Azərbaycan bir az passiv Qoşulmama Hərəkatınıcanlandırmağa çalışdı. Bu məqsədlə biz beynəlxalq tədbirlər və üç Zirvə toplantısı təşkil etdik. Biz COVID-19-a dair BMT Baş Assambleyasının Xüsusi Sessiyasının təşkilinin təşəbbüskarı olduq. Biz fəal çalışaraq pandemiya ilə mübarizə sahəsində məlumat bazasının yaradılmasına nail olduq ki, daha sonra o, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən istifadə edildi. Biz Zirvə toplantılarından birini pandemiya ilə mübarizəyə həsr etdik. Biz pandemiyanın ilk aylarında peyvənd millətçiliyinə və peyvəndlərin qeyri-bərabər paylanılmasına etiraz səsimizi ucaltdıq. Biz COVID-19-dan sonrakı dövr məsələsinə diqqət yönəltdik. Bununla yanaşı, biz əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən artıq ölkəyə maliyyə və humanitar yardım etdik. Biz koronavirusla mübarizəni dəstəkləmək üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində birbaşa ianə etdik. Biz Qoşulmama Hərəkatının institusional inkişafını təmin etməyə çalışdıq. Bu məqsədlə Qoşulmama Hərəkatının 60 illik tarixində ilk dəfə ölkəmizin təşəbbüsü ilə Parlament Şəbəkəsi yaradıldı.

Bu gün biz soyuq müharibənin bitməsindən sonra bu günədək baş vermiş bəlkə də ən ciddi Şərq-Qərb qarşıdurmasının şahidi oluruq. Qoşulmama Hərəkatı körpülərin salınmasında, münaqişələrin həllində yeni yanaşmaların formalaşdırılması və Qoşulmama Hərəkatının təməl prinsiplərinin - Bandunq Prinsiplərinin təmin edilməsində mühüm rol oynaya bilər və oynamalıdır. Həmin prinsiplər - sülh, əməkdaşlıq, ərazi bütövlüyünə və suverenliyə hörmət, habelə sərhədlərin toxunulmazlığından ibarətdir.

Münaqişələrin həlli iki cür olur - dinc yolla və qeyri-dinc yolla. Biz Ermənistanla münaqişəni dinc yolla həll etməyə çalışırdıq. Baxmayaraq ki, Ermənistan tərəfindən işğal Azərbaycanda humanitar fəlakətə səbəb olmuşdur. İşğal nəticəsində bir milyondan artıq azərbaycanlı yurdsuz qalmış, qaçqın və məcburi köçkünə çevrilmişdir.

Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb, onları Qarabağdan sürgün salıb və bir milyon azərbaycanlıya əzab-əziyyət verib. Münaqişəni dinc yolla həll etmək və erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini icra etmək üçün Ermənistanı inandırmaq cəhdlərimizə baxmayaraq, Ermənistan, sadəcə, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymadı və beynəlxalq hüquqa, beynəlxalq ictimaiyyətə hörmətsizlik göstərdi.

1992-ci ildə münaqişə yarandıqdan sonra ATƏT Minsk qrupunu təsis etdi. Lakin əfsuslar olsun ki, 28 il ərzində Minsk qrupu hər hansı nəticəyə nail olmadı. Onlar bu münaqişəni daimi dondurmaq istəyirdilər.

Erməni tərəfi konstruktiv yanaşma göstərmədi. Nəticədə Azərbaycan güc tətbiq etdi və öz ərazilərini azad etdi. Hazırda, təxminən iki il yarım vaxt ötür və biz 10 min kvadratmetrlərlə ölçülən və tamamilə dağıdılmış böyük ərazini yenidən tikirik.

Biz ermənilərdən fərqli olaraq hər hansı hərbi cinayət törətmədik. Biz ermənilərdən fərqli olaraq soyqırımı törətmədik. Biz döyüş meydanında qisas aldıq.

Hazırda sülh üçün vaxt yetişib. 2020-ci ilin noyabrında müharibə bitdikdən dərhal sonra biz sülh danışıqlarına başlamaq üçün təşəbbüs irəli sürdük və Ermənistanla sülh müqaviləsinin əsasını təşkil edəcək beş məşhur prinsipi təqdim etdik.

Ermənistan tamamilə asılı olan, digər ölkənin və hazırda, ola bilsin, digər ölkələrin müstəmləkəsinə çevrilib. Ümid edirik ki, vasitəçiliyə cəhd göstərən beynəlxalq iştirakçılar Ermənistanı müstəqilliyi qorumaq şansını əldən buraxmamaqda dilə gətirəcəklər.

Hazırda rəsmi İrəvan üçün öz qonşuları ilə qonşu kimi davranmaq şansı yaranıb.Azərbaycan sülh istəyir. Biz hər hansı digər müharibəni istəmirik. Ötən ilin oktyabrında Azərbaycan ilə Ermənistan arasında razılaşdırılmış məsələlər, xüsusən də, birbirinin suverenliyinə və ərazi bütövlüyünə hörmət əslində onu göstərir ki, sülhə nail olmaqda manə yoxdur.

Azərbaycan çoxkonfessiyalı, çoxmillətli ölkədir. Azərbaycanda azlıqların hüquqları Konstitusiyamız tərəfindən qorunur. Azərbaycanda real vəziyyətlə tanış olan hər kəs deyə bilər ki, Azərbaycan yüksək dini və etnik dözümlülüyü ilə seçilən, müxtəlif etnik qrupların, konfessiyaların nümayəndələrinin dinc və ləyaqətli şəkildə yaşadığı ölkədir.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq daha yaxşı olacaq. Hər münaqişənin öz tarixi, öz dinamikası və sonu var. Lakin vacib odur ki, ölkələr arasında mübahisələr beynəlxalq hüquq əsasında həll olunsun, onların ərazi bütövlüyü və suverenliyi güc hesabına dəyişdirilməsin. Ötən ilin iyunundan etibarən enerji təhlükəsizliyi məsələlərində xeyli hadisələr baş verib. Əvvəlcə, Azərbaycan və Avropa Komissiyası Enerji Sahəsində Anlaşma Memorandumunu imzalayıblar. Memorandum Bakıda Avropa Komissiyasının sədri xanım Ursula Fon derLyayenin iştirakı ilə imzalanıb. Azərbaycan Avropaya öz təbii qaz təchizatını və ümumi qaz ixracını xeyli artırıb. Əgər biz 2019-cu ildə ümumən 19 milyard kubmetr qaz ixrac etmişdiksə, bu il o, 24 milyard kubmetrdən artıq olacaq və onun ən azı yarısı Avropaya nəql ediləcək.

Qaz yataqlarımıza sərmayələrimizi artırmışıq. Cənub Qaz Dəhlizi istismara verildi. Boru kəmərinin sonuncu hissəsi 2020-ci il dekabrın 31-də istismara verildi. Hazırda iki ildən bir az çox vaxt keçir və biz sistemi genişləndirməliyik - TANAP-ı 16-dan 32 milyard kubmetrə, TAP-ı isə 10-dan 20 milyard kubmetrə. Bu, sırf Avropada artan tələbatla bağlıdır.

Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırır. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra biz qaz təchizatı və ya onun artırılması ilə bağlı 10-dan artıq Avropa ölkəsindən müraciət almışıq və onun üzərində işləyirik.

Azərbaycan nefti, neft məhsullarını, təbii qazı, elektrik enerjisini, neft-kimya məhsullarını beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına ixrac edir. Ötən ilin dekabrında Buxarestdə əlamətdar hadisə baş verdi - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Avropa Komissiyasının Sədrinin iştirakı ilə yaşıl enerji və onun ötürülməsinə dair Saziş imzaladılar. Biz onun əsasında Azərbaycandan Avropaya dənizdən külək enerjisi stansiyalarından ötürmə xəttini çəkəcəyik. Həmin ötürmə xəttinin bir hissəsi Qara dənizin dibi ilə gedəcək.

Avropanın enerji xəritəsində mühüm dəyişiklik olacaq. Biz Avropanın enerji xəritəsini neft və qaz boru kəmərlərinin inşası ilə artıq dəyişmişik, indi isə növbə yaşıl enerjini təmin edəcək elektrik xətlərinindir.

IX Qlobal Bakı Forumundan indiyədək Azərbaycan dünyanın bir neçə aparıcı enerji şirkətləri ilə müqavilə və anlaşma memorandumları imzalayıb. Bunun nəticəsində Azərbaycanda günəş və külək enerjisindən 25 meqavat həcmində yaşıl enerji əldə olunacaq.

Azərbaycan yaşıl hidrogeni ixrac etməyi planlaşdırır. Beynəlxalq Maliyyə Korporasiyası (IFC) Xəzər dənizində bizim külək enerjisi potensialımızla bağlı yekun dəyərləndirməni başa çatdırıb və onun 157 qiqavat olduğunu təsbit edib. Buraya quruda olan daha 40 qiqavat potensialı da əlavə etmək olar.

Ötən il Azərbaycan ərazisindən keçən tranzitin həcmi 75 faizdən çox artıb. Bizim müasir daşımalar infrastrukturumuza tələbat heç vaxt olmadığı qədər böyükdür - dəmir yolları və avtomobil yolları mövcuddur, Xəzər dənizində ən böyük donanma və regionda ən geniş yük aviaparklarından biri yaradılıb. Biz daşımaların təhlükəsizliyinə həqiqətən də böyük töhfə vermişik. Çünki bu gün bir çox ölkənin daşımaların təhlükəsizliyinə ehtiyacı var. Onlar yeni marşrutlar axtarışındadır və həmin yeni marşrutlardan biri Azərbaycandan keçir".

Hazırladı:
Mehriban Cəfərova

Politoloq: "Almaniya kifayət qədər şəffaf və səmimi bir mövqe sərgilədi..."

"Hesab edirəm ki, ölkə Prezidentinin Almaniyaya səfəri uğurlu oldu. Yüksək səviyyədə qarşılandı, Almaniya preizdenti Frank-ValterŞtaynmayerlə görüşdü. Görüşdə Almaniyanın adından Azərbaycanın ərazi bütövlüyü və bu ərazilər üzərində Azərbaycanın suverenliyi tam dəstəkləndi. Bildirildi ki, beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq müharibədən sonrakı vəziyyətin tənzimlənməsi Azərbaycanın müstəsna hüququdur və həmin ərazidə yaşayan erməni əhalisi Azərbaycanla danışıqlar prosesində öz problemlərini həll etməlidir"

Bunu Adalet.az-a açıqlamasında politoloq Qabil Hüseynli ölkə Prezidentinin Almaniya səfərini şərh edərkən deyib. Politoloq Azərbaycan və Almaniya arasından bundan sonra siyasi və iqtisadi əlaqələrin daha da inkişaf edəcəyini bildirib:

"Yəni Azərbaycanın ərazi bütövlüyünü hətta Fransa tanısa da və bunun müqabilində əl altından müxtəlif pozuculuq işləri aparsalar da, Almaniya kifayət qədər şəffaf və eyni zamanda səmimi bir mövqe sərgilədi. Bundan əvvəl Nikol Paşinyanla görüşəndə kansler Olaf Şolts də fikirlərinə düzəliş etdi. Ümumiyyətlə, Şoltsın hazırlıqlı adam olmadığını bilirdik və məlum oldu ki, o bu və ya digər məsələlərə münasibət bildirərkən Almaniyanın rəsmi mövqeyindən kənara çıxır və təlimatçıların basqısıyla yanlış mövqe sərgiləyir.

Amma indi artıq Almaniya ilə hərtərəfli siyasi-iqtisadi əlaqələrin inkişafına dair ortaq fikrə gəlindi. Almaniya birmənalı qaydada Azərbaycanın ərazi bütövlüyünü və eyni zamanda ermənilərin yaşadığı ərazilərdə Azərbaycanın suveren hüquqlarını da tanıdı. Zənnimcə, Nikol Paşinyanın Almaniyaya səfərindən sonra yaranmış cüzi təəssüratı Azərbyacan Prezidentinin hazırlıqlı cavabları və problemin anatomiyasını hərtərəfli açıqlaması bu məsələ ətrafında beynəlxalq hüquqların ön qədər əməl edilməsi fikrini bir daha həyata keçirdi. İndi güman etmək olar ki, Fransa artqıq Avropa Birliyi məkanında tək qalıb və demək olar ki, bu proseslərə mane ola biləcək səviyyədə güclü olmayan dövlətə çevrilir. Almaniya Avropa Birliyinin əsas lokomativi kimi bundan sonra da bu proseslərdə yəqin ki, düzgün mövqe tutacaq və buna hər hansı bir fərqli yanaşma da mümkün deyil. Proseslər zənnimcə həm ikili münasibətlər üzərində, həm də bölgədə münasibətlərin tənzimlənməsi baxımından mühüm əhəmiyyətə malik olacaq".

Vasif Əlihüseyn

Senatorlar Pentaqondan F-16-ların Ukraynaya göndərilməsini tələb edirlər

Politico qəzetinin məlumatına görə ABŞ -ın Respublikaçılar və Demokratlar partiyasının senatorları, Pentaqondan F-16 qırıcı təyyarələrin Ukraynaya göndərilməsini tələb edirlər.

Ametikanın hər iki partiyasından olan senatorları müdafiə naziri Ostin Llyoyda məktub ünvanlayıblar. Deputatlar məktubda Kiyevə qırıcı təyyarələrin göndərilməsi imkanlarına baxılmasını xahiş ediblər. Siyasilərin fikirincə, hazırda Ukrayna-Rusiya müharibəsində vəziyyət kritik vəziyyətə yaxınlaşır, qırıcı təyyarələr vəziyyəti Ukraynanın xeyrinə dəyişə bilər. "Bu döyüş meydanında oyun qaydalarını dəyişmək üçün böyük imkanlar yarada bilər"- deyə məktubda bildirilir.

Senatorlar Ostindən xahiş ediblər ki, həftə sonunadək F-16-ların müvəffəqiyyətlə Ukraynaya çatdırılması ilə bağlı geniş məlumat təqdim etsin. Siyasiləri əsasən F-16-ların müharibəyə necə təsir edə biləcəyi və ukraynalı pilotların bu təyyarələri idarə etmək üçün keçəcəyi təlimlər maraqlandırır.

Ağ Evin strateji kommunikasiyalar üzrə koordinatoru Con Kerbi daha əvvəl bəyan etmişdi ki, ABŞ hakimiyyətinin Ukraynaya qırıcı təyyarələr göndərməsi ilə bağlı planları yoxdur. Çünki bu təyyarələri idarə etmək üçün ukraynalı pilotlara bir neçə il təlim keçmək lazımdır. Ona görə də ABŞ Ukraynaya təyyarə deyil, daha çox zirehli texnika, arteleriya, sursatlar və hava hücumundan müdafiə sistemləri göndərməyə üstünlük verir.

Görünür Ukrayna cəbhəsində baş verənlər ABŞ -ı qane etmir. Ona görə də fikirlərini dəyişib və təcili olaraq Kiyevə F-16 qırıcı təyyarələrin göndərilməsinə cəhd edirlər. Yəqin ki, ukraynalı pilotlar bu təyyarələri idarə etməyi öyrənənəcən amerikan pilotları özləri təlimçi adıyla rusların mövqelərini vuracaqlar.

Rüstəm Hacıyev

Aqil ABBAS

NƏVƏM NİYƏ MƏNİM İSTƏDİYİM RƏSMLƏRİ ÇƏKMƏK İSTƏMƏDİ?

Dostlar bilir, mənim rəssamlıq qabiliyyətim var, yəni xobbimdi. Hərdən bəyəndiyim şeirlərə illüstrasiyalar çəkirəm, sonra elə müəlliflərin özlərinə bağışlayıram. Xüsusilə orta məktəbdə oxuyanda daha çox çəkirdim. Çəkdiyim rəsmlər də Ağdam Pionerlər Evinin dəhlizini bəzəyərdi, eləcə də məktəbin. Onda sürrealizmdən xəbərim yox idi. Universitetdə oxuyanda dünyanın məşhur rəssamlarının albomlarını bukinistdən alırdım. Və bir dəfə Salvador Dalinin bir albomu keçdi əlimə və Dali məni dəli elədi. Gördüm ki, mənim çəkdiyim rəsmlər də bu qola yaxındır. Amma təbii ki, ibtidai.

Orta məktəbdə əlaçı idim. Yalnız nəğmə dərsindən həmişə "2" alırdım. Çünki heç bir musiqi istedadım yox idi, hətta atamın 500 manat rüşvət verib məni Uşaq Musiqi Məktəbinin tar sinfinə qoysa da, təxminən 20 gündən sonra məktəbin direktoru rəhmətlik Cəlal müəllim (Böyük Cəlal) atamın pulunu qaytardı və məni məktəbdən qovdu. Və atama dedi ki, Məhəmməd incimə, bu uşaqda musiqi duyumu yoxdu. O "sluxu" yoxdu dedi.

Amma tar çalmaqdan ötrü ölürdüm. Getdim Müəllimlər Evinə, qonşumuz Sabir müəllimdən xahiş etdim ki, məni tar dərnəyinə qəbul eləsin, sözümü yerə salmadı. Amma müəllimlər nə qədər elədi tarı sinəmə qaldırda bilmədilər, həmişə dizimin üstündə çalırdım. Məni ordan da qovdular. Daha doğrusu, müəllimlər qoltuğuma kibrit qutusu qoyurdular ki, elə elə bu düşməsin. Amma kibrit qutusu düşürdü, uşaqlar da gülürdü, ona görə də özüm utandım və bir daha getmədim.

İndi evimdə gözəl tarım da var, sazım da var, hətta Rəmişin gitarasından da varımdı, Rəşad Məcid ad günümdə bağışlayıb. Amma heç birini çala bilmirəm.

Deyirlər, Füzuli sifətdən o qədər eybəcər olub ki, qadınlar onu sevmirmiş. O da hirsini-hikkəsini, hamısını töküb şeirlərinə. Dünyanın ən gözəl sevgi şeirlərini yazıb. İndi mən də musiqini Füzuli xanımları necə sevirmişsə, elə sevirəm.

Hə, harda qaldıq? Deməli, nəğməm müəlliməm Ramella həmşə mənə "2" yazır. Axırda məktəbimizin direktoru Əli Eyvazov Ramellanı çağırdı kabinetinə, danladı:

- Ay itin qızı, bu uşaqdan nə istəyirsən, onu Rəmiş eləyəssən, yoxsa Qədir eləyəssən? Yoxdu da musiqi qabiliyyəti, bunu birdəfəlik qan. Bir də buna iki yazsan səni bu məktəbdən qovacam.

Ramella doğurdan itin qızı idi, erməni idi.

Mən də heyfimi ondan başqa cür aldım. Ramellanın bir şəklini çəkdim, vurdum məktəbin dəhlizinə. Şəkildə də Ramellanın başının yerinə onun dalını, dalının yerinə isə başını çəkmişdim. Maraqlı bir şəkil idi.

Bu şəkilə görə də Əli müəllim atamı məktəbə çağırdı. Axşam atam məni danladı ki, o nə şəkildi çəkmisən, ayıb deyil? Mən də dedim ki, ata, Allah haqqı, o başı ilə fikirləşmir, dalı ilə fikirləşir.

Bu hadisəni povestlərimin birində daha ətraflı yazmışam.

Ən xoşuma gələn illüstrasiyanı isə rəhmətlik şair Cavanşir Eloğlunun (Dərviş Cavanşir) aşağıdakı misralarına çəkmişdim.

Qurban olum torpağına, daşına,
Qaldır məni Əlincənin qaşına.
Qoy dolanım, Vətən, sənin başına
Deməsinlər pərvanəsi çatışmır.

Şəkildə başında tac bir gözəl qız təsvir olunmuşdu, amma bir az da diqqətlə baxanda görürdün ki, bir aşıq harayla saz çalır, barmaqları da girir sazın çanağına, sazdan qan tökülür. Qurtarmadı. Bir az da başqa səmtdən baxanda görürdün ki, bir igid qalanın önündə şəhid olub, atı da onun sinəsinə sancılmış nizədən axan qanını yalayır. Və şəkili bağışlamışdım Cavanşir Eloğluna, yaxın dostuma. Məmməd Araza da qohumluğu çatırdı. Çox cavan öldü. Bilmirəm, ailəsi həmin şəkli saxlayır, yoxsa yox. Təsadüfən oxuyarlarsa və şəkili mənə göndərərlərsə surətini çıxarıb yenidən özlərinə qaytararam.

İndi gələk mətləb üstünə. Mənim həmin rəssamlıq qabiliyyətim irsən nəvəm Aylinə keçib. Hələ uşaqdı, 6-cı sinifdə oxuyur, amma maraqlı nələrsə çəkməyə çalışır.

"Çay qırağında bitib, susuz qalan ağacların sağlığına" povestimi kitab halında çap etdirəndə xahiş elədim ki, mənim istədiyim şəkilləri çəksin. Yəni çay qırağında bitib, qurumuş ağacları, ümumiyyətlə, ölmüş təbiəti çəksin. Və çəkib gətirdi. Amma gördüm tam tərsini çəkib. Ağaclar hamısı çiçək açıb, çay qırağındakı ağac da çiçəkləyib. Dedim ki, bəs, baba belə istəməyib axı. Mən sənə dedim ki, qurumuş ağacları çək.

O isə qayıtdı ki:

- Baba, mən ağacları həmişə belə görmək istəyirəm.

Uşağın sözləri və arzusu xoşuma gəldi. Və elə həmin rəsmlərini də verdim kitaba. Kitabın üz qabığındakı rəsm də çay qırağında bitib qurumuş ağac deyil, çiçəklənmiş ağacdı.

Necə ki indi Qarabağda qurumuş ağaclar çiçəkləyir.

Fəxrəddin Altun Azərbaycana təşəkkür etdi

Türkiyə Prezident Administrasiyasının sözçüsü Fəxrəddin Altun Avropa Parlamentində çıxışı zamanı fevralın 6-da ölkəsində baş vermiş dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı dəstəyinə görə Azərbaycana təşəkkür edib.

Adalet.az Türkiyə KİV-inə istinadən xəbər verir ki, o, Avstriyadan Azərbaycana, Yaponiyadan Yunanıstana, ABŞ-dan Ukraynaya, İsraildən Almaniyaya, Cənubi Koreyadan Qətərə, Rusiyadan İspaniyaya qədər bir çox ölkələrin Türkiyənin çağırışına müsbət cavab verdiyini bildirib. "Atalarımız deyiblər ki, "dost pis gündə tanınar". Biz dəstək göstərən bütün ölkələrə təşəkkür edirəm. Dünyamızı təhdid edən pandemiya, silahlı toqquşma və təbii fəlakətlərin qlobal fəsadlarının azaldılması üçün beynəlxalq əməkdaşlıq modelini inkişaf etdirməliyik", - F.Altun vurğulayıb.

Xatırladaq ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonunda olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub. Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək 13 000-dən çox afterşok qeydə alınıb. İki zəlzələ həmçinin Livan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə hiss edilib.

Təbii fəlakət Türkiyə və Suriyada böyük dağıntı və onminlərlə itkiyə səbəb olub. Türkiyənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunub.

Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşüb. Zəlzələdən dərhal sonra Azərbaycanda qardaş ölkə üçün yardım toplanmasına başlanılıb.

Hadisə nəticəsində 48 mindən çox insan həlak olub.

"KTMT Ermənistanı tərk edir"

"KTMT Ermənistan Respublikasını istər-istəməz tərk edir və bu, bizi narahat edir".

Adalet.az xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan martın 14-də keçirdiyi mətbuat konfransında deyib.

"2020-ci ildə KTMT prezidenti Ermənistana səfər edəndə mənə söhbətində dedi ki, KTMT-də Ermənistan Respublikasının KTMT-dən çıxacağı ilə bağlı qorxu var. Mən dedim ki, "məncə, qorxu yersizdir, mövcud olan digər qorxu Ermənistandadır, yəni KTMT Ermənistan Respublikasını tərk edəcək. Mənim qiymətləndirməm ondan ibarətdir", - Paşinyan açıqlayıb.

Rüstəm Hacıyev

ABŞ maliyə böhranı ilə üzləşə bilər

Martın 11-də məlum oldu ki, ABŞ-ın Silicon Valley Bankı iflasa uğrayıb. Kremni vadisinin baş bankının iflası, regional kredit təşkilatlarının defold zəncirinə qoşulmasına səbəb ola bilər. Düzdür bunun tezliklə baş verəcəyi gözlənilmir, lakin bir sıra banklar artıq təşvişə düşüblər.

Reuters agentliyi qeyd edir ki, 2008-ci il maliyyə böhranından sonra, bu ABŞ -da bağlanmış ən böyük bankdır. Düzdür həmin vaxtlar hökumət, ölkə iqtisadiyyatını qorumaq üçün bir çox bankı iflasdan xilas etməyi bacardı. Lakin hazırki böhran, o zamankından fərqlidir.

Martın 12-də ABŞ prezidrnti Co Bayden çıxışında amerikan bank sistemlərinin müdafiə olunacağı anonsunu versə də, sonradan 13 martda məlum oldu ki, ABŞ hakimiyyəti müflis olmuş Silicon Valley Bankını almaq imkanlarını müzakirə etmir.

Rusiya xarici işlər nazirliyinin sözçüsü Mariya Zaxarova bəyan ddib ki, ABŞ-ın bank sistemlərini xilas etmək cəhdləri dünyada böyük problemlər yaradacaq. Xanım Zaxarova həmçinin ABŞ prezidenti Co Baydenin Silicon Valdey Bankın iflasa uğraması və Signature Bankın bağlanması ilə bağlı çıxış edəcəyini şəhr edərək lağla bildirib ki, "Sabaha qədər gözləməyə ehtiyac yoxdur. Amerikanın bank sistemlərinin dayanaqlığının necə saxlandığını uşaq da bilir. Kraska və kağız, nə qədər istəyirsən dollar çap elə. Onsuzda o pulların arxasında heç nə yatmır. Çap ediləcək təminatsız dollar ketləsi dünyada böyük problemlər yaradacaq".

Bildirilir ki, SVB-nin iflasa uğramasının əsas səbəbi, müştərilərin bir gün ərzində öz hesablarından 42 milyard dollar vəsaitin çıxarnasından və bankın aksiyalarının 66 faiz aşağı düşməsindən sonra başlayıb. Bank küllü miqdarda vəsait bahasına apardığı uğursuz əməliyyat nəticəsində müştərilərinin əmanətlərini qaytarmaq gücündə olmayıb. Müştərilər tələm-tələsik qalan vəsaitlərini çıxarmağa tələsiblər. Nəticədə bir gün sinra bank rəsmi olaraq iflasa uğradığını etiraf edib.

Səxavət Məmməd

Qarabağ uğrunda beynəlxalq SAVAŞ

Böyük güclər qarşısında Azərbaycan hansı addımı atmalıdır?

Qarabağ Azərbaycanla Ermənistanın, ermənilərlə azərbaycanlıların problemi olmaqdan çıxıb. Tərəflər nə öz güclərini göstərə, nə də istədiklərini deyə bilirlər.

Öncə, tərəflərin balansına baxmaq lazımdır. Azərbaycanın strateji tərəfdaşları olan Türkiyə və Pakistan daha çox hərbi gücü ilə öyünənlərdir. Ermənistanın arxasındakı güc isə siyasi baxımdan daha aktivdir və Avropanın söz sahibləridir. Yəni hərbi güc Azərbaycanın, siyasi güc Ermənistanın xeyrinədir.

Ermənistan müharibəyə qədər Rusiyanın siyasi və hərbi gücünə güvənirdisə, bu, müharibədən sonra dəyişdi. Ermənistan ərazisində Rusiya hərbi bazası olmasına baxmayaraq, Avropadan ərazisinə tərəfdaş gətirmək kimi riskin içinə girdi. Niyə risk? Çünki Rusiya kimi ölkələrlə bu cür oyunlar hər zaman təhlükəlidir. Ruslar da açıq şəkildə bildirdilər ki, Ermənistanın dövlətçiliyi belə təhlükə altındadır. Ruslar Ukraynadan istədiyini alsa, ehtimal ki, əl bulayacağı ilk bölgə Cənubi Qafqaz və Qazaxıstan olacaq.

Ermənistan müharibədən sonra gözlənilənin əksinə dözmək xəttini seçdi, Azərbaycanın bütün yumşaq və sərt gücünə dözdü, vaxtı uzatdıqca uzada bildi. Etiraf etmək lazımdır ki, bu qədər təzyiqə hər ölkə dözüş gətirə bilməzdi. Hər oyunun, hər planın bir qırılma anı olur. Durduğumuz yerdən baxanda sentyabr ayındakı sərhəd toqquşması qırılma anıdır.

Məlum sərhəd toqquşmasının nəticələrinə baxaq. Azərbaycanın qazancı sərhədlərinin mühafizəsi üçün bufer zonası yaratmaq oldu. Ermənistanın qazancı isə Avropa İttifaqının missiyasını ölkəsinə gətirmək. Yuxarıda qeyd etdiyim kimi,Azərbaycan hərbi güclə istəyinə nail ola bilir, Ermənistan isə siyasi. Erməni tərəfi Avropa İttifaqının missiyasını ölkəyə dəvət edərək həm Rusiyaya gərəkli mesajı verdi, Azərbaycana da beynəlxalq aləmdən təzyiqi təşkil etdi.

Ermənistan artıq görür ki, bu siyasət işə yarayır. Ona görə də indiki mərhələdə çalışır ki, eynisini Qarabağa da tətbiq etsin. Ancaq bunun üçün bəhanə lazımdır. Bu bəhanə üçün də Azərbaycanın hərbi müdaxiləsi və mülki şəxslərin öldürülməsi lazımdır.

Sahədə bunun planlaması mövcuddur?

Bəli! Artıq son zamanlar aparılan müşahidələr zamanı və hərbi mənbələrdən əldə edilən məlumatlara görə, Qarabağdakı separatçı rejim mövqelərə hərbi geyimdə yox, mülki geyimdə şəxslər qoyur. Təkcə bununla da iş bitmir, mühəndis istehkam işlərini görənlər də, səngərlərin qazılmasında iştirak edənlər də mülki geyimdədirlər. Azərbaycan ordusu müdaxilə edəcəyi təqdirdə, erməni tərəfi bütün dünyaya Azərbaycanın mülkiləri məhv etdiyini bəyan edəcək. Paşinyanın son çıxışında soyqırımı və etnik təmizləmə barədə danışması məhz bu planın tərkib hissəsidir. Deyənlər olacaq ki, arada Rusiya sülhməramlıları var. Sentyabr ayındakı sərhəd toqquşmasında ruslar yox idi? Yaralıların çıxarılmasında ən böyük manea nə idi? Yəni Rusiya sülhməramlıları hər şeyi həll etmir.

Azərbaycan tərəfinin antiterror əməliyyatı keçirməsinin qarşısında duran əsas maneələrdən biri də bax budur. Ona görə də genişmiqyaslı, total hücum mümkünsüz görünür. Azərbaycan tərəfinin səhv etmək kimi bir lüksünün olmadığını dəfələrlə yazmışdım. Azərbaycan ancaq xüsusi əməliyyat keçirə bilər. Gecənin birində qəfil hansısa istiqamətə sızılır, ruslara və mülkilərə toxunmadan separatçı rejimin silahlıları aradan götürülür. Bu cür xüsusi əməliyyatlar, sözün əsl mənasında, VUR-QAÇ olmalıdır. İtki vermədən, iz buraxmadan, qarşı tərəfin əlinə bəhanə vermədən. Bəzən qarşı tərəflə öz dili ilə danışmaq lazımdır. Hesab edirəm ki, bu cür əməliyyatlarda komandolardan yox, məhz xüsusi təyinatlılardan istifadə etmək lazımdır. Hətta deyərdim, Laçın dəhlizində vaxt itirməkdənsə, bir gecənin içərisində Ağdərə-Kəlbəcər yolu sürprizi edilməlidir.

İndki mərhələdə Rusiyanın özü də bölgədə istədiyi səviyyədə deyil. Bir tərəfdən Ermənistan Qarabağa da Avropa İttifaqını gətirmək istəyir. Rusiya da bilir ki, bu, Ermənistanın istəyindən daha çox, Avropa İttifaqının diqtəsidir. Ona görə də oyununu Avropa İttifaqına qarşı qurmağa məcburdur. Digər tərəfdən isə Azərbaycanın haqlı tələblərini neytrallaşdırmalıdır. Rusiyanın bölgədə var olub-olmaması bu savaşın nəticəsinə bağlıdır.

Azərbaycan üçün vaxt gedir. Vaxtın uzanması Azərbaycanın zərərinə işləyir. Ona görə də Azərbaycan təzyiqlərini artırmağa məcburdur. İlk növbədə, ekofəalların aksiyasının alternativi tapılmalıdır. Azərbaycanda hər kəs 10 noyabr bəyanatının 4 və 9-cu bəndi üzərində daha çox durur. Ancaq Azərbaycanın əlində məlum bəyanatda daha bir rıçaq var: 7-ci bənd! Həmin bənddə deyilir: "Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır". Ətraf rayonları qoyaq kənara, faktiki olaraq, Dağlıq Qarabağ ifadəsi var və bunu Azərbaycan BMT-dən tələb edə bilər. Hökm deyil, baş versin, gündəmə gətirmək ki olar. Bundan əlavə, təzminat məsələsi Azərbaycanın əlindəki ən güclü vasitə ola bilər və bunu aktivləşdirmək vacibdir.

Qarabağ siyasi oyun meydançasıdır. Kim beş alacaq, kim sinifdə qalacaq, bunu yaxın gələcəkdə görəcəyik...

Vilayət Eyvazov: "Daxili Qoşunlar istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir"

Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir.

Adalet.az xəbər verir ki, bunu daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları yaranmasının növbəti ildönümü münasibətilə keçirilən əməliyyat müşavirəsiində deyib.

Bu münasibətlə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov, Daxili Qoşunların rəhbər heyəti və hərbi qulluqçuları əvvəlcə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər. Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş Vətən övladlarının uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

Həmin gün Daxili İşlər Nazirliyində Daxili Qoşunların rəhbər heyətinin iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev iştirak edib.

Əlamətdar gün münasibəti ilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, zati-alilərinin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran general-polkovnik Vilayət Eyvazov Milli Lider Heydər Əliyevin ordu quruculuğu prosesində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının təkmilləşməsinə böyük önəm verdiyini, məhz onun xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini məmnunluqla xatırladaraq Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib.

Nazir vurğulayıb ki, bu gün dövlət başçısının ali diqqət və qayğısının, tələb və göstərişlərinin nəticəsi olaraq, Daxili Qoşunlar qarşısına qoyulan istənilən döyüş tapşırığını yüksək keyfiyyətlə yerinə yetirməyə qadirdir. Müzəffər Ali Baş Komandanın əmri ilə düşmən həملələrinə qarşı keçirilən "Dəmir yumruq" əks-hücum əməliyyatlarında hərbi qulluqçularımız bunu bir daha təsdiq etdi.

Daxili Qoşunların inkişafı üçün qəbul edilən qərarların, Prezidentin dünən imzaladığı müvafiq sərəncamları ilə daha 12 hərbi qulluqçunun dövlət mükafatları ilə təltif olunmasının şəxsi heyət tərəfindən minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılandığını vurğulayan nazir V.Eyvazov onu da qeyd edib ki, ölkə rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də Qoşunların xidmətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır. O da qeyd olunub ki, Məhz Ali Baş Komandanın əvəzsiz dəstəyi sayəsində Daxili Qoşunların maddi-texniki bazasının, kazarma-yaşayış fondunun yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, hərbi hissələr müasir standartlara uyğun texnika, xüsusi vasitələr və rabitə sistemləri ilə təchiz edilib.

Möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsi günlərində şəxsi heyətin ölkədə hərbi vəziyyət rejimini etibarlı təmin etməsini, bu gün isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini peşəkarlıqla davam etdirməsini vurğulayan nazir Vilayət Eyvazov Qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Daxili işlər nazirinin müavini - daxili qoşunlar komandanı general-leytenant Şahin Məmmədov qurumun yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edib.

Tədbirə yekun vuran nazir V.Eyvazov DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində göstərdiyi sücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdiyi xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edərək vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.

O, Qoşunların hərbi qulluqçularının bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarıqlarını əsirgəməyəcəklərinə, asayişin və daxili təhlükəsizliyin keşiyində əzm və qətiyyətlə dayanacaqlarına əminliyini ifadə edib.

Sonra xidmətdə fərqlənən bir qrup hərbi qulluqçunun təltif edilməsi barədə daxili işlər nazirinin və nazir müavini - daxili qoşunların komandanının imzaladıqları əmrlər elan olunduqdan sonra mükafatlar sahiblərinə təqdim edilib.

MEDİA Vyanada tədbir keçirdi

Vyanada keçirilən ATƏT-in insan ölçüsü üzrə birinci əlavə görüşü çərçivəsində Medianın İnkişafı Agentliyinin və Azərbaycan Respublikasının ATƏT yanında Daimi Nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Münaqişə jurnalistikası və jurnalistlərin təhlükəsizliyi" mövzusunda tədbir təşkil olunub.

MEDİA-dan Adalet.az-a verilən məlumata görə, tədbirin təşkilində əsas məqsəd münaqişə zonalarında jurnalistlərin qarşılaşdığı təhlükə və çağırışlar barədə məlumatlılığın artırılması, media ekspertlərinin məsələ ilə bağlı fikirlərinin öyrənilməsi və təcrübə mübadiləsinin aparılması, münaqişə zonalarında fəaliyyət göstərən jurnalistlərin təhlükəsizliyinin gücləndirilməsi məqsədilə müxtəlif qabaqcıl və uğurlu strategiyaların araşdırılmasıdır.

Geniş auditoriya üçün açıq qapı formatında keçirilən tədbirdə iştirakçı dövlətlərin jurnalistləri, media mütəxəssisləri və vətəndaş cəmiyyəti nümayəndələri iştirak edib.

Agentliyin Beynəlxalq əlaqələr və strateji planlaşdırma qrupunun rəhbəri, medianın inkişafı məsələləri üzrə mütəxəssisi Rasim Bağırovun moderatorluğu ilə keçirilən tədbirdə Dr. Bruno Kreiski Fondunun Müasir Siyasi Tarix üzrə Təhlillər İnstitutunda elmi işçi, Vyanada yerləşən siyasi akademiya - Karl Renner İnstitutununda Mərkəzi və Şərqi Avropa üzrə hüquq və siyasət

məsləhətçisi Anis Bajrektarevic; Çin və Qloballaşma Mərkəzinin baş əməkdaşı, Tsinxua Universitetinin Araşdırma Mərkəzinin baş məsləhətçisi, Vyana Amadeus Beynəlxalq Məktəbinin baş beynəlxalq məsləhətçisi, köşə yazarı və "China Daily", "China Global TV Network", "China Radio International"ın şərhçisi Dr. Harvey Dzodin; Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Gənc Demokratlar İnstitutunun sədri Yeganə Hacıyeva; "freelance" jurnalist, "blogger" Adnan Hüseyn çıxış edib.

Jurnalist peşəsinin cəmiyyətdə ən vacib və əsas peşələrdən biri olduğunu qeyd edən Anis Bajrektarevic jurnalistlərin münaqişə zonalarında böyük təzyiq altında fəaliyyət göstərdiyini bildirib. O, jurnalistlərin müxtəlif həyati risklərlə üzləşdiyini, onların xüsusilə mina və digər partlayıcı vasitələrin partlaması nəticəsində həlak olduğunu və ya ağır yaralandığını qeyd edib, peşə öhdəliklərini yerinə yetirmələri və cəmiyyətə xidmət etmələri üçün jurnalistlərin təhlükəsizliyinin beynəlxalq səviyyəsində təmin edilməsinin vacibliyini vurğulayıb.

Yeganə Hacıyeva çıxışında jurnalistlərin münaqişələri işıqlandırarkən nəzərə almalı olduğu məqamlar, münaqişə və jurnalistika anlayışları arasındakı əlaqənin tənzimləməsində beynəlxalq standartların lokal istifadəsi barədə danışmış, ermənilərin basdırdıqları minaların qurbanı olmuş azərbaycanlı jurnalistlər haqqında geniş məlumat vermişdir.

Dr. Harvey Dzodin münaqişə zonasında fəaliyyət göstərən jurnalistlərin qarşılaşdığı çətinliklərin aradan qaldırılması, xüsusilə minaların basdırıldığı yerlərin təyin edilməsi üçün müxtəlif texnologiyaların araşdırılması və tətbiq edilməsinin vacibliyini diqqətə çatdırıb, bu istiqamətdə özəl şirkətlərlə səmərəli əlaqələrin qurulmasının əhəmiyyətini qeyd edib.

Adnan Hüseyn jurnalistlərin mürəkkəb məsələlərin və perspektivlərin aydınlaşdırılmasına kömək edən, qərəzsiz və faktlara əsaslanan xəbərlərin yayılmasında mühüm rol oynadığını, həqiqətlərin ictimaiyyətə çatdırılmasına müstəsna töhfə verdiyini qeyd etmiş, istər beynəlxalq səviyyədə tanınmış ərazilərinin otuz ilə yaxın müddətdə işğalı zamanı, istərsə də Vətən müharibəsindəki qələbədən sonra uzun illər boyu Azərbaycanın saxta xəbərlərə məruz qaldığını bildirib.

Tədbir çərçivəsində münaqişə zonalarında fəaliyyət göstərən jurnalistlərin üzləşdiyi problemlər və risklər barədə məlumat verilib, onların təhlükəsizliyinin və müdafiəsinin gücləndirilməsi üçün potensial həll yollarının müəyyən edilməsinə dair fikir mübadiləsi aparılıb.

Könül Nurullayeva VI İslam Həmrəyliyi Oyunlarının Dəyərləndirmə Komissiyasının üzvü seçilib

Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsinin 34-cü iclası və növbədənkənar Baş Assambleyasının sessiyası keçirilib. Tədbirdə Türkiyənin gənclər və idman naziri Muharrem Kasapoğlu "Konya 2021" V İslam Həmrəyliyi Oyunları ilə bağlı hesabatla MOK nümayəndələri qarşısında çıxış edib. Eyni zamanda İHİF-in Əsasnaməsinə dəyişikliklərin edilməsi ilə əlaqədar bir sıra önəmli məsələlər, həmçinin VI İslam Həmrəyliyi Oyunlarının keçirilməsi qaydaları ilə bağlı ən son yeniliklər müzakirə edilib. Nasser Ayman Macali İslam Həmrəyliyi İdman Federasiyasının yeni baş katibi seçilib.

İclas zamanı 2018-2022-ci illəri əhatə edən maliyyə hesabatları MOK üzvlərinə ətraflı şəkildə təqdim olunub. İslam Əməkdaşlıq Təşkilatının Humanitar, mədəni və sosial məsələlər üzrə baş katibi Tariq Ali Baxit də öz fikirlərini MOK üzvlərinə çatdırıb. Səudiyyə Ərəbistanında 2023-cü ildə Dünya Döyüş Oyunlarının keçirilməsi ilə bağlı Federasiya rəsmiləri tərəfindən təqdimat keçirilib.

Sözügedən qurumun vitse-prezidenti mərhum Əhməd Foulinin ailə üzvlərinə, eyni zamanda sabiq baş katibləri Mohammad Qazdar və Mohammad Alqarnasa təşkilatın fəaliyyətinə verdikləri töhfəyə görə mükafatlar təqdim olunub. Növbəti seçki hesabatı konfransının cari ilin avqust ayında Səudiyyə Ərəbistanının Riyad şəhərində keçirilməsi qərara alınıb.

Nəzərinizə çatdıraq ki, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, baş katib Azər Əliyev Azərbaycan nümayəndə heyətində təmsil olunublar. İHİF İcraiyyə Komitəsinin üzvü Könül Nurullayeva toplantı zamanı növbəti İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmək arzusunda olan ölkələrin hazırlıq səviyyəsini müəyyən etmək üçün yaradılan Dəyərləndirmə və Yoxlama Komissiyasının üzvü seçilib. Könül Nurullayeva, həmçinin toplantı çərçivəsində İHİF-in prezidenti Şəhzadə Abdulaziz Bin Turki Al-Faisal Al Saud ilə görüşüb.

"Ələ keçirdiyi Ukrayna ərazilərində Priqojin prezident olacaq"

Ukraynanın şərqindəki "son qalası" olan Baxmutu ələ keçirmək üçün hücumlarını davam etdirən Rusiya müharibəni gündən-günə daha da sərtləşdirir. Bəs bu müharibənin, xüsusən də Baxmuta yönələn hücumların nəticəsi necə olacaq?

"Hətta belə bir razılaşma əldə olunub ki, ələ keçirdiyi bölgələr Ukrayna hesab olunacaq və onun da prezidenti Priqojin olacaq". Bunu Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Adalet.az-a açıqlamasında deyib.

"Rusiya ilə Ukrayna arasındakı müharibə həlledici mərhələsinə qədəm qoyur. Həlledici mərhələ deyəndə aprel ayını nəzərdə tuturam. Rusiya ordusu və

Priqojinin rəhbərlik etdiyi muzdlu vaqner dəstəsini fərqləndirmək lazımdır. Hazırda Baxmut məsələsi üzərində əməliyyatlar aparan Priqojindir və onun iki hədəfi var. Birinci hədəfi peşəkar muzdlu ordu forması ilə Baxmutu ələ keçirmək və müharibədə psixoloji dönüş əldə etmək istəyidir. Baxmutun ələ keçirilməsi Slavyanski şəhəri istiqamətində böyük boşluq yaradır və üstünlüyü ələ keçirməyə kifayət edir. İkincisi, belə başa düşülür ki, Rusiya hakimiyyəti daxili elitaları mübarizəsi kontekstində Priqojin böyük bir uduşla çıxmağı hədəfləyir və bu uduş nəticəsində hətta belə bir razılaşma əldə olunub ki, ələ keçirdiyi bölgələr Ukrayna hesab olunacaq və onun da prezidenti Priqojin olacaq. Qərb ölkələri, NATO bütöv arsenalı ilə Ukraynaya dəstək verir və Rusiyanın qalib gəlməməsini istəyir. Döyüşlərin taleyi apreldə həll oluncaq və biz konkret nəticələri görəcəyik".

Eminquey

Gürkan Hacır

Putin əvvəlcə yaxanızdan tutmağınıza imkan yaradır, sonra yıxır...

Putindən bəhs edən 4 hissəlik "Putin interwies" adlı sənədli film var. Amerikalı rejissor Oliver Stone çəkib.

İzləsəniz, "Yeni Dünya" sisteminin bu qüdrətli qəhrəmanını daha yaxından tanıyacaqsınız. O sənədli filmdə Putinin bir çox vacib sözləri var. Amma məni ən çox təsirləndirən "cüdo strategiyası" olmuşdu.

"Cüdoda sizdən güclü olan rəqibinizə qalib gəlmək üçün texnika tətbiq etməyiniz lazımdır. Bir də yaxanızı tutmasına imkan yaratmalısınız".

Qəribə deyilmi?

NATO-nun böyük hərbi gücünü hesablayanda ağlıma cüdodan başqa bir şey gəlməmişdi. Keçən həftə bir TV verilişi üçün Ankarada idim.

Verilişdən qabaq günorta yeməyində Kənan Nuhut bəylə görüşdüm.

Əfsanəvi Naim Süleymanoğlunun Türkiyəyə gəlməyinə vəsilə olan Ağır Atletika Federasiyasının başçısı...

İndi siyasətlə məşğul olsa da, idmandan heç vaxt uzaqlaşmadı.

"Gürkancım, səni Cüdo Federasiyasının yeni başçısı Sezer Huysuzla tanış edim". Sezer Hursuz köhnə idmançılardandır. İkinci dəfə başçı seçilib. "Xeyirli olsun"dan sonra sözü Putinə gətirdim, əlimə mövzunun peşəkarı düşmüşkən...

- Putin yaxşı cüdoçudurmu? Yoxsa digər liderlər kimi sadəcə şəkil çəkdirmək üçünmü idman edir?!

- Xeyr, çox yaxşı cüdoçudur. Hətta Soçidə rus milli yığmasının kampına gedir ildə iki dəfə, məşqlərə də gedir.

- Yaşına rəğmən... çox qəribədir.

- Bəli... bu arada Dünya Cüdo Federasiyasının başçısı da Putinin sağ qoludur.

Sezer Huysuza sənədli filmdən bəhs etdim, amma izləməyibmiş.

Olsun, əvəzində mənə başqa bir qapı açdı.

"Cüdo strategiyaları adlı bir kitab var".

İstanbula qayıdan kimi kitabı tapdım. Türkcəyə də çevirilibmiş.

Yazarları David B. Yoffie və Mary Kwakdır.

Əslində liderlik və rəqabətlə mübarizədən bəhs edir.

Amma siz onu həyatın istənilən nöqtəsində tətbiq edə bilərsiniz.

Müharibə və əsgərlik də daxil olmaqla.

Cüdo strategiyası bir ana əsasa və üç bölməyə söykənir.

Ana əsas budur - sizdən daha güclü olan rəqibinizi yıxmaq üçün onun ağırlığı və gücündən istifadə edin.

Üç bölmə isə:

1. Hərəkət və qıvraqlıq.

2. Müvazinəti qorumaq.

3. Gücü doğru şəkildə istifadə və tətbiq etmək.

Bəsit görünsələr də möcüzəvi nəticələr əldə etmək mümkündür.

Cüdo strategiyasını tətbiq edən bir çox şirkətin div rəqiblərinin dizini necə yerə qoyduğunu və rəqabətdə necə önə çıxdıqlarından bəhs edilir kitabda.

Bu strategiyaya zidd hərəkət edən bir çox firmaların da çox üstün durumda ikən qısa müddətdə necə oyundan xaric duruma düşdükləri uzun-uzun izah edilir.

Bəli, baxın, Putinin sehri də burada yatır.

Qarşısında özündən çox güclü bir NATO və ABŞ var idi.

Hərbi güc... Silah-sürsat... Pul...

Rusiyadan qat-qat artığı hamısında var idi.

Üstəgəl, illərə söykənən psixoloji üstünlük və mədəni hegemoniya da bir yanda.

Bütün bu dezavantajlara rəğmən Putin qarşısındakı o divlərin başını gicəlləndirə bildi.

Əvvəlcə hərəkətlilik və qıvraqlıq.

Sonra isə düşmən üstünə gələn zaman müvazinəti qorumaq.

1988-ci ilin böyük iqtisadi böhranı...

Dünyanın bütün finans divləri Rusiyanın əleyhinə oynadı.

Rusiya müvəqqəti moratorium elan etdi.

İnfilyasiya 80 faizdən yuxarı qalxdı.

İşsizlik...

Ondan çox bank bağlandı.

Amma Rusiya...

Qısa müddətdə vəziyyətdən çıxdı.

İqtisadiyyatı normal hala döndü.

Yəni müvazinəti qoruya bildi.

Və növbədə üçüncü qayda - rəqibinin gücünü lehinə istifadə etmək var idi. ABŞ 2016 seçkiləri hələ də həllini tapmayıb.

Dərin Amerika hələ də Trampın necə qazandığını çözə bilməyib.

Bununla bağlı bir çox qəribə iddialar var.

Trampın Rusiya ilə gizli əlaqə qurduğu, hətta pul aldığı da deyilir.

Bu iddialar məhkəməyə qədər gedib çıxdı.

Bir az da əvvələ gedim.

"Facebook"un məlumatlarından Trampın xeyrinə istifadə edildiyi iddia edilirdi.

Hətta ABŞ seçkiləri deyil, amma Trinad Tobaqodakı seçkilərin necə manipulyasiya edildiyini izah edən "Great Hack" sənədli filmini də izləyə bilərsiniz.

Hər nə isə.

Elə ya belə... Putinin nə qədər dəxli var, ya yox, bilmirik, amma Tramp prezident seçildi.

Və MAGA-ya start verdi.

Yəni "Make Great Again America".

Yəni "Amerikanı yenidən Böyük edək".

Yəni...

Amerika dünya jandarmını buraxsın, içəri qayıtsın və güclü bir Amerika olsun.

Tramp bunu açıqlayanda Putin vodkasından bir qurtum da alıb seyr edirdi.

Tramp həqiqətən də dediyini elədi.

Həqiqətən də dediyini elədi.

Həqiqətən də dediyini elədi.

Həqiqətən də dediyini elədi.

Dilimizə uyğunlaşdıran:
Eminquey

Rəşid Mahmudov: "Valideynlər övladlarına deyir ki, ali məktəbə girməsən..."

Xəbər verdiyimiz kimi orta məktəbdə imtahan verən tələbələrin üstündən müxtəlif cür dualar aşkar edilib. Bu haqda fotoları Adalet.az-ın redaksiyasına imtahan rəhbərlərindən biri göndərib.

Məsələyə münasibət bildirən tanınmış ictimai xadim, Tibb Universitetinin (ATU) dosenti Rəşid Mahmudov bu cür şeylərin tələbələrimizi tənbəlləşdirdiyini bildirib:

"Müəllim işlədiyim dövrdə belə hallarla rastlaşmamışam. Elə şeylərə heç inamım da yoxdur. Əgər şagirdin biliyi yoxdursa, o hansısa mollanın yazdığı duayla imtahandan necə keçə bilər? Bəlkə də şagirdlər psixoloji olaraq buna inanırlar. Amma uşağı imtahandan qabaq hazırlamaq lazımdır, elə etmək lazımdır ki, şagirdin özgüvəni olsun, qorxub həyacan keçirməsin. Valideynlər isə övladlarına deyir ki, ali məktəbə girməsən, dünya dağılacaq. Belə şeylər yolverilməzdir. Bununla bütün millətimizi tənbəlliyə aparırlar. Yəni dərs oxuma və duayla, caduyla imtahandan keçəcəksən. Bu cür şeylər keçmişdə qalıb və indi də edirlər.

Xristiana sual verirlər ki, niyə atom bombasını müsəlmanlar icad etmədi? Deyir ki, "camaat fizika oxuyanda siz məsciddə namaz qılırdınız".

Vasif Əlihüseyn

Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

HAMI SEVİNƏCƏKMİ?!

...Bayram gələndə, ən çox buna uşaqlar sevinirlər. Xüsusən də Novruz bayramında, balacaların çox böyük arzuları olur. Arzuları olur ki, hər çərşənbə tonqal qalansın, onun üstündən tullansınlar, "ağırlığım-uğurluğum tonqala düşsün" deyib həmin axşamı çərşənbə plovu yesinlər. Təbii ki, bunu hamı arzulayır! Dörd çərşənbənin dördündə də bütün evlərdə qazan qaynamalı, plov dəmlənməlidir. Amma gəlin görək, bu bahalıqda hər çərşənbə hamı o plovu dəmləyə bilirmi, o süfrəni aça bilirmi?! Aydındır ki, bu suala birmənalı cavab vermək mümkün deyil. Ən azından ona görə ki, kifayət qədər imkanlı və varlı adamlar var. Onlar bayram oldu, olmadı, onsuz da süfrələri həmişə zəngin olur, yeyib-içir, kef eləyirlər.

Ancaq böyük əksəriyyət çətinliklər içərisində və bu bahalıqla vuruşmalı olur. Daha doğrusu, hamı ona çalışır ki, heç

olmasa, Novruz çərşənbələrində və bayramda süfrələr dolsun, hər evdə, hər ocaqda şəkərbura, paxlava, qoğal pişirilsin...

İndiki bahalıq şəraitində bayaq dedimiz kimi, bunu hər ailə eləyə bilmir. Ortabab Novruz süfrəsi açmaq üçün ən azından 300-400 manat pul lazımdır. Üstəlik də bu 300-400 manatı tapmaq elədə də asan deyil. Hətta pulu olan adam bu bahalıq şəraitində hər şeyi od qiymətinə alır və süfrəsini pisyaxşı zənginləşdirmək istəyir...

Allah bütün insanların imkanını bol eləsin ki, nəinki Novruz bayramında, hətta adi günlərdə belə süfrələrində ruzibərəkət çox olsun. Gəlin, onunla razılaşaq ki, indiki bahalıq, sıxıntı, çətinlik şəraitində Novruzu zəngin süfrə ilə qeyd eləmək heç də hər adama nəsib olmayacaq. Məsələn, mənim bir tanışım var, deyir ki, bu il həddindən çox bahalıq olduğu üçün evdə şəkərbura, paxlava, qoğal və digər şirniyyat məhsulları bişirtdirməyəcək. Bunu da onunla izah edir ki, əgər mən hər Novruzda olduğu kimi, bu dediklərimi alıb gətirsəm, gərək onda bayramdan sonra acından köpük qusaq. Ona görə də bəri başdan bir az konfet, bir az şokolad, bir az da mer-meyvə almışam, hətta çərşənbə axşamları görürəm ki, evimizin qapısı döyülür və bizə papaq atırlar. Papağın içinə də qoymağa evdə bir şey yoxdur. Mən ağlamıram ey!.. İndi zəmanı elə gətirib ki, qazancımızın çoxunu xəstəliklə əlaqədar dərə-dərmana veririk. Şirniyyat məhsulu almasan, mer-meyvə almasan, birtəhər hər şeyi yola vermək olur. Lakin dərə-dərmansız keçinmək olmur. Bir həftə dərman atmadım, təzyiqim kəllə-çarxa qalxdı, insulit keçirtdim. Nə isə, çox danışıb, kiməlrinsə qanını qaraltmaq istəmirəm. Allah hamının süfrəsini bol eləsin, elə bizimkilərin də!..

Bu Novruzda təki bütün insanlar sevinsinlər... Təki bütün evlərdə və ocaqlarda bayram plovu dəmlənsin... Təki hamının balası bayramda təzə paltar geyinsin, şadlansın və onların üzü gülsün...

Kim bunu istəməz! Hamı istəyər, amma Allah bizim ölkədəki bəzi oliqarxlara insaf versin ki, süni surətdə bahalıq yaratmasınlar, heç olmasa, Novruzda ən kasıb adam belə, pisyaxşı bir bayram süfrəsi açsın! Bu, həm imkansız və kasıb adamları sevindirər, həm də Allaha xoş gedər!..

MOPEDLƏR ÖLÜM SAÇIR

Yəqin ki, Bakının küçə və prospektlərində bu cür hallara tez-tez rast gəlmisiniz. Çünki mopedləri idarə edənlər heç bir yol hərəkəti qaydalarına fikir vermir, yolun gah sağına, gah da soluna keçir. İlan kimi sağa-sola sürünürlər. Digər nəqliyyat vasitələrinin sürücüləri isə bəzən belə gərgin anları görmür və nəticədə mopedin avtomobillə toqquşması baş verir. Toqquşma zamanı da dəfələrlə Bakı şəhərində mopedi idarə edən adamlar ya ölüblər, ya da ağır xəsarətlər alıblar. Baş vermiş yol-nəqliyyat hadisəsinə görə çox vaxt sürücüləri qınayırlar. Amma vallah, sürücülərin də bu hadisələrdə bir o qədər günahları yoxdur. Hətta bir dəfə səkidə getdiyim yerdə mopedi sürən adam arxadan məni vurdu. Mən də dişimin dibindən çıxanı ona dedim.

Baş Dövlət Yol Polis İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin inspektoru, polis kapitanı Toğrul Nəsirliyə mopedlərlə bağlı sual ünvanladıq. Cənab kapitan dedi ki, bu barədə biz dəfələrlə mopedləri idarə edən adamlara müraciət etmişik. Onlardan həm xahiş, həm də tələb etmişik ki, yol hərəki qaydalarına riayət etsinlər. Təhlükəli və qəza vəziyyəti yaratmasınlar. Bütün bunları ona görə deyirik ki, paytaxtımızda onlarla bağlı yol-nəqliyyat hadisələri tez-tez baş verir. Yaxın zamanlarda mopedləri idarə edənlərdən sürücülük vəsiqəsi tələb ediləcək və onların sürdükləri mopedlərin nömrələri olacaq. Bu barədə yol polisi ciddi addımlar atır. Təbii ki, həyata keçiriləcək bu tədbirlərdən sonra mopedləri idarə edənlərni də məsuliyyət məsələsi artacaq, onlar inzibati qaydada məsuliyyətə cəlb ediləcək və lazım gələndə barələrində daha ciddi tədbirlər görüləcəkdir. Göründüyü kimi, mopedlərin özbaşınalığının qarşısı da çox uzaq yox, yaxın zamanlarda qanunauyğun şəkildə alınacaqdır. Deməli, sürücü məsuliyyəti olarsa, baş verən hadisələr də azalar və bundan digər hərəkət iştirakçıları da zərər görməzlər.

EMİL FAİQOĞLU

Co Bayden Çinin lideri ilə görüşəcək

ABŞ prezidenti Co Baydenin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivan bəyan edib ki, dövlət başçısı, Çin Xalq Respublikasının yeni seçilmiş sədri Si Çzinpinlə yenidən görüşmək istəyir.

Sallivan bildirib ki, Baydenlə Si Çzinpin arasında telefon danışığı yaxın vaxtlarda baş tutacaq, lakin bu danışıqların nə vaxt baş tutacağı tarix barədə hələ ki, heç nə deyə bilməyəcək. O, qeyd edib ki, amerikan lideri əvvəllər də ÇXR-nın sədri ilə yeni əlaqələr yaratmaq barədə düşünürdü. Ağ Evin nümayəndəsi, ABŞ və Çin arasında hərbi sahədə əlaqələr yaradılmasının vacibliyini vurğulayaraq, bu dialoqun da dəstəklənməsinin əhəmiyyətini qeyd edib. Sallivan hələ fevral ayında Bayden və Si Çzenpun arasında gələcəkdə danışıqların baş tuta biləcəyini istisna etməmişdi. "Hazırda bu barədə qəqiq planlarımız yoxdur, lakin mən iki liderin uzaq olmayan vaxtlarda görüşəcəyini gözləyirəm"- deyə o, bildirmişdi.

Rüstəm Hacıyev

CİNAYƏTKARLAR BİR NEÇƏ SAATDA YAXALANIRLAR

Azərbaycan polisi həmişə olduğu kimi, Novruz bayramında da gücləndirilmiş iş rejimində çalışacaq

Ölkəmizdə ictimai asayişin qorunmasında və cinayətkarlığa qarşı mübarizədə Azərbaycan polisinin əvəzsiz xidmətləri var. Təkcə Azərbaycan polisi bu dediyimiz məsələləri həll etmir, həm də ölkəmizin ən ağır günündə, yəni, Birinci və İkinci Qarabağ Savaşında poils sözün həqiqi mənasında çox böyük igidlik göstərmiş, torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə yüzlərlə şəhid vermiş və çoxlu sayda əməkdaş yaralanmışdır. Başqa sözlə demiş olsaq, vətənimizin ən ağır günündə Azərbaycan polisi sinəsini qabağa vermiş, öz canı və qanı ilə müstəqilliyimizi, vətənimizi qorumuşdur. Bütün bunlar bir tarixdir və həmişə yadda qalacaqdır!..

Bir çox xarici dövlətlərin ölkəmizdə vəziyyəti mürəkkəbləşdirməyi, xaos və özbaşınalıq yaratmağı, başqa söz desək, sabitliyi pozmaq istəməsi heç kimə sirr deyildir. Yəni, xaricdəki düşmən qüvvələr daxildəki qüvvələrlə əlbir olub, ölkəmizin müstəqilliyinə və bütövlüyünə zərbə vurmağa can atırlar. Hətta bu sahədə yerli din xadimlərindən və eləcə də digər qara qüvvələrdən istifadə olunur. Bütün bunların qarşısı hüquq-mühafizə orqanları, o cümlədən Azərbaycan polisi tərəfindən çox uğurla alınır!..

Son günlər kriminal elementlərin fəallaşması və bir-birinin ardınca soyğunçuluq cinayətlərinin həyata keçirilməsi onu deməyə əsas verir ki, bəzən xarici düşmənlər kriminal elementlərdən də ölkəni qarışdırmaq üçün istifadə eləyirlər. Həmin cinayətkarların bir neçə gün bundan əvvəl Xətai rayon "Bravo" supermarketindəki bankomata pul yerləşdirərkən, inkassatorun birinin öldürülməsi, digərinin isə yaralanması onu təsdiq edir ki, kriminal elementlər həmişə var və öz bəd əməllərindən çəkinmirlər. Amma onlar çox çəkmədi ki, Azərbaycan polisinin yüksək peşəkarlığı ilə müəyyənləşdirildi, cinayətkarlardan biri polisə müqavimət göstərdiyinə görə zərərsizləşdirildi, digəri isə yaxalandı. Ümumiyyətlə, bu hadisə bütün kriminal elementlərə və ölkəmizdə sabitliyi pozmaq istəyən daxili və xarici düşmənlərə bir mesaj olmalıdır. Bir mesaj olmalıdır ki, baş verən cinayətlər bir neçə saatın içində açılacaq, onlar kimliyindən asılı olmayaraq yaxalanacaq və qanun qarşısında cavab verəcəklər. Ona görə də adını çəkdiyimiz bu ünsürlər qara əməllərindən çəkinməli və ölkəmizdə kriminal durumu mürəkkəbləşdirməməlidirlər. Əks təqdirdə ya onlar Azərbaycan polisi tərəfindən zərərsizləşdiriləcək, ya da yaxalanacaqlar!..

Polisin bir qurumu da Çevik Polis Alayıdır. O Çevik Polis Alayı ki, ölkəmizdə ictimai asayişin qorunmasında və cinayətkarlığa qarşı mübarizədə çox böyük rol oynayır. Xüsusən də Bakı şəhərində, bayaq dediyimiz kimi, müəyyən qüvvələr sabitliyi pozmaq istəyəndə, suyu bulandırmağa can atanda Çevik Polis Alayı həmişə öz peşəkarlığını göstərib və həmin qara qüvvələri vaxtında zərərsizləşdirib, onları ifşa edib. Təbii ki, bu gün Azərbaycan polisi çox peşəkardır və o, hər cür müasir texnika və texnologiya ilə təchiz edilib. Dəfələrlə ölkə prezidenti cənab İlham Əliyev də polisin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı öz fikirlərini səsləndirib və bu sahədə polisə hər cür köməklik göstərib. Ona görə də Azərbaycan polisi və eləcə də Çevik Polis Alayı dövlətə, Prezidentə və Azərbaycan xalqına həmişə sədaqətlə xidmət eləyir.

Əlbəttə, biz polisin gücünə, qüvvəsinə və vətənpərvərliyinə hər vaxt inanmışıq və başqa sözlə desək, ən çətin anımızda onlara güvənmişik. Heç kimə sirr deyil ki, son illərdə Çevik Polis Alayının xalq arasında nüfuzu daha da artıb və eyni zamanda cəmiyyət bu quruma hörmətlə yanaşır. Bu da təsadüfi deyildir. Çünki Çevik Polis Alayının rəhbərliyindən tutmuş sıravi zməkdaşına qədər hamısı qanunumuzun keşiyində şərəflə durmaqla yanaşı, həm də Azərbaycan vətəndaşına namusla, şərəflə xidmət eləyirlər. Təbii ki, bunu da görən hər bir vətəndaş istər, istəməz polisə hörmət və məhəbətlə yanaşır.

Çevik Polis Alayının nümunəvi bölüklərindən biri də Xətai rayonu ərazisində xidmət aparan 3-cü bölüyün əməkdaşlarıdır. O bölük ki, onlar həmişə rəhbərlilərin tapşırıqlarına məsuliyyətlə yanaşır, dövlətə və dövlətçiliyə yüksək səviyyədə xidmət edir. Mən dəfələrlə Xətai rayonu ərazisində olarkən 3-cü bölüyün əməkdaşlarının öz vəzifə borclarına necə vicdanla yanaşdıqlarının şahidi olmuşam. Şahidi olmuşam ki, onlar ən qatı cinayətkarı qısa zaman kəsiyində zərərsizləşdirib və vətəndaşların təhlükəsizliyini təmin ediblər. Onun da şahidi olmuşam ki, bu peşəkar, vətənpərvər polis əməkdaşları ağır və çətin vəziyyətdə olan insanlara necə kömək göstəriblər. Bir dəfə "Bakı" kino-teatrının yanında özünü pis edən, daha doğrusu, huşunu itirən xanımın həyatını elə bu bölüyün həmin yerdə xidmət aparan əməkdaşları xilas etdilər. Hava həddindən artıq soyuq idi, qar da yağmışdı. Belə bir şəraitdə Çevik Polis Alayının həmin əməkdaşları xanıma yaxınlaşdılar, onu ayağa qaldırdılar, təcili tibbi yardım maşını çağırdılar və həkimlərin müdaxiləsindən sonra xanım özünə gəldi. İlk növbədə xanım ona birinci yardım göstərən polislərə, sonra isə təcili tibbi yarıdımın həkimlərinə öz təşəkkürünü bildirdi.

Təbii ki, hər hansı vətəndaş polisin bu diqqət və qayğısını görəndə onu yadından çıxartımır, hadisəni hər yerdə danışır və onlara hörməti birə-beş artır. Xalq arasında elə polisin nüfuzunun ən çox yüksəlməsinə səbəb çətin vəziyyətdə olan insanlara kömək etməyi və onalarla səmimi münasibət yartamasıdır. Çevik Polis Alayının 3-cü bölüyünün komandiri, polis kapitanı Elvin Babayev çox gəncdir, amma buna baxmayaraq, peşəkarlığı, dövlətə, prezidentə sədaqəti ilə seçilir. Üstəlik də Elvin Babayev həm də məsuliyyətli bir polis zabitidir, yəni onlara rəhbərlik tərəfindən verilən tapşırıqları bölüklə bir yerdə yüksək səviyyədə yerinə yetirirlər. Rayon ərazisində ictimai asayişin qorunmasında və cinaytəkarlığa qarşı mübarizədə bölük əməkdaşlarının çox böyük zəhməti və əməyi vardır. Cənab kapitan Elvin Babayev bizimlə söhbətində dedi ki, biz həmişə olduğu kimi bayram günlərində də gücləndirilmiş iş yerində çalışacaq, üzərimizə düşən vəzifəni peşəkarlıqla yerinə yetirəcəyik. Sakinlərimizi tam əmin edirəm ki, onların bayram günləri təhlükəsizliyi yüksək səviyyədə təmin ediləcək, insanların bu xoş anları mənalı keçirməsi üçün nə lazımsa, onu edəcəyik. Çünki biz qanunları icra edirik və qanunları icra etməksə bizim vəzifə borcumuzdur. O cümlədən hər bir Azərbaycan vətəndaşı bizim üçün çox əzizdir və biz də onların təhlükəsizliyini həmişə qoruyacaq və elə edəcəyik ki, hər bir vətəndaş bizim xidmətimizdən razı qalsın!

Çevik Polis Alayının Sabunçu, Yasamal, Nəsimi, Nizami, Suraxanı və Səbael rayonlarında fəaliyyət göstərən bölükləri də öz nümunəvi xidmətləri ilə fərqlənirlər.

Onlar bayram günlərində ictimai asayişin təmin edilməsini və insanların həyatının təhlükəsizliyinin qorunmasını yüksək peşəkarlıqla həmişə olduğu kimi yerinə yetirəcəklər.

Biz bayram günləri istirahət edəcək, dincələcək, gəzintiyə çıxacağıq, amma Azərbaycan polisi isə həmin günlər 24 saat gücləndirilmiş iş rejimində işləyəcək. Novruz bayramı münasibətilə gecə-gündüz xalqa xidmət edən, onun təhlükəsizliyini qoruyan Azərbaycan polisinin rəhbəri, general-polkovnik cənab Vilayət Eyvazov başda olmaqla bütün əməkdaşları təbrik edir, onlara can sağlığı arzulayır və deyirik ki, nə yaxşı ki, varsınız! Siz bizi qoruyursunuz, Allah da Azərbaycan polisini, sizləri qorusun!

FAİQ QİSMƏTOĞLU

Dilqəm Əsgərovun oğlu: «Ermənilər yazmışdı ki, onun atası terrorçudur...»

"Atam altı il yeddi ay erməni girovluğunda qaldı. Bu illər ərzində ancaq atamın azad olunması üçün mübarizə aparırdım. Ona görə də evimizdə nə ad günü, nə də başqa bir özəl gün qeyd olunmurdu"

Bunu Adalet.az-a açıqlamasında altı il yeddi ay erməni girovluğunda olmazın işgəncələrinə məruz qalan Kəlbəcər sakini Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov deyib. K.Əsgərov bu gün doğum gününü valideynləri və ailəsi ilə birlikdə qeyd edəcəyini deyib:

"Doğum günümdə indi özümü ona görə xoşbəxt hiss edirəm ki, atam yanımızdadır. Mən dövlətimizə, Ali Baş Komandanımıza inanırdım ki, Qarabağı işğaldan azad edib, atamı da geri qaytaracaq. Bu əlamətdar gün baş verdi və indi o günlərin sevincini yaşayırıq". K.Əsgərov atasının azadlığı üçün apardığı mübarizədə ermənilərin ona qarşı etdiyi təzyiqlərdən də danışıb: "ATƏT-in illik zirvə hesabatında çıxış edərkən ermənilər

mənim sənədlə bağlı işimdə problem yaratmaq istədilər, amma mümkün olmadı. Polşayada ATƏT-in növbəti zirvə toplantısında iştirak edəcəyimlə bağlı mətbuatda yazı getmişdi. Buna dərhal erməni mediası da reaksiya verdi. Yazmışdılar ki, "Kürdoğlunun atası terrorçudur və elə o, da terrorçu olacaq". Orda çıxışıma mane olmaq istədilər, amma buna nail ola bilmədilər".

K.Əsgərov atası girovluqda olarkən toysuz ailə qurduğunu bildirib:

"Atam girovluqda olanda toysuz ailə qurdum və atam azad edildikdən sonra da yenidən toy etmədim. Böyük oğlumun adını Dilqəm qoymuşam. Atam girovluqda olanda Kəlbəcər camaatı mənə çox dəstək oldu. Onların içində Azər adlı bir qardaş var idi, ona görə də ortancıl oğluma Azərin adını qoydum. Kiçik oğlumun adı isə Ayxandır".

Vasif Əlihüseyn

Türkiyənin Qarabağ məsələsində Azərbaycana siyasi dəstəyi ictimai rəydə - SORĞU

Sosial Tədqiqatlar Mərkəzi növbəti rəy sorğusu keçirib.

STS-dən Adalet.az-a bildirilib ki, rəy sorğusunda postmünaqişə dövründə Türkiyənin Qarabağ məsələsində Azərbaycana siyasi dəstək göstərəcəyinə ictimai inam olduqca yüksəkdir.

Sorğuda 18 yaşından yuxarı 384 respondent iştirak edib, könüllü iştirak və anonimlik prinsipləri qorunub. Sorğular telefonla müsahibə formasında keçirilib və 12 iqtisadi rayonu əhatə edib.

Bu məqsədlə müvafiq məlumat bazasından sözügedən iqtisadi və inzibati rayonlara (şəhərlərə) aid stasionar telefon nömrələri təsadüfi qaydada seçilərək zənglər edilib. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.

Ümumilikdə, sözügedən məsələyə sorğuda iştirak edənlərin



mütləq əksəriyyəti, başqa sözlə, 93,5%-i bu və ya digər dərəcədə inamını ifadə edib.

Daha detallı təhlil etsək, Türkiyənin Qarabağ məsələsində Azərbaycana siyasi dəstək göstərəcəyinə sorğu iştirakçılarının böyük hissəsi - 74,3%-i tam, 19,2%-i əsasən inandığını qeyd edib.

Nəticələrə əsasən, ümumilikdə çox cuzi bir hissə - cəmi 2,3% əks mövqedə qərarlaşıb - 1,0% əsasən inanmadığını, 1,3% heç inanmadığını bildirib. Bəhs edilən məsələ ilə bağlı rəyini ifadə etməkdə çətinlik çəkənlər 4,2% təşkil edib.

Sorğu nəticələrinin gender aspektdən təhlilinə əsasən, kişi və qadınlar Türkiyənin Qarabağ məsələsində Azərbaycana siyasi dəstəyinə bərabər səviyyədə inamını ifadə edib.

Ümumilikdə, kişilərin 93,8%-i, qadınların 93,2%-i Türkiyənin Qarabağ məsələsində Azərbaycana siyasi dəstək göstərəcəyinə bu və ya digər dərəcədə inamını ifadə edib. Sorğu nəticələrinin təhlili nəticəsində maraqlı məqamlardan biri müxtəlif nəsilləri təmsil edən respondentlərin Türkiyənin Qarabağ məsələsində Azərbaycana siyasi dəstəyinə qəti və birmənalı inamı ilə bağlıdır.

Sorğu nəticələrinin müxtəlif təhsil kateqoriyaları üzrə təhlili inam səviyyəsinin fərqli təhsil səviyyəsinə malik olan respondentlər arasında yüksək olduğunu deməyə əsas verir.

Analoji nəticəni iş, məşğuliyyət, ailə vəziyyəti, yaşayış sahəsi üzrə demoqrafik nəticələrin təhlili ilə bağlı da qeyd etmək olar.

Qeyd edək ki, Azərbaycanın xarici siyasət sahəsində və postmünaqişə dövründə dinamik Qarabağ siyasətinə və Türkiyənin ölkəmizə siyasi dəstəyinə ictimai münasibətin öyrənilməsi Sosial Tədqiqatlar Mərkəzinin bu istiqamətdə keçirdiyi sorğularda yüksək qiymətləndirilən istiqamətlərdən biri olub.

Emin

"Dayım oğluna görə həyatım puç oldu..."

Böyüklərin məsləhəti ilə ailə quran qadının həyat hekayəsi

Adalet.az "qadın taleyi" rubrikasında növbəti qadının həyat hekayəsini təqdim edir. Bu dəfə sizə Ülkərin (adı şərtidir) həyat hekayəsini təqdim edəcəyik.

Ülkər də Rusiyaya gəlin köçüb, amma ona edilən işgəncələrə dözməyərək üstünə benzin tökərək özünü yandırıb. Olanları əməkdaşımıza belə nəql edib:

"Valideynlərimiz məni dayım oğluna vermək istəyirdi. Onun isə mənə könlü yox idi. Bir gün dayım oğlu bizə bir oğlanla gəldi. Bir az oturub çıxıb getdilər. Növbəti gün isə həmin oğlanın valideynləri bizə elçi gəldilər. Dayım oğlu da onlarla bizə gəldi və dedi ki, "dünənki oğlan sinif yoldaşımın qardaşıdır, Rusiyadan Azərbaycana evlənməyə gəlib. Səndən xoşu gəldi və istəyirik ki, ona ərə gedəsən". Doğrusu, nə mən, nə də valideynlərim razı olmadı. Amma babamın üstünə getdilər və uzun çək-çevirdən sonra məni o adama ərə verdilər".

"Baldızlarım, qayınlarım məni döyürdü..."

"Ailə qurub Rusiyaya qayıtdıq. Orda məlum oldu ki, oğlanın heç bir şəraiti, evi-eşiyi yoxdur. Bir həyət evini kirayət tutublar, bütün bacı və qardaşları orda qalır. Nə yatdımız, nə də durdumuz var idi. Onda anladım ki, dayım oğlu məni almamaq üçün dostunun sinif yoldaşına göstərmişdi. Bir il ailəli olduq. Baldızlarım, qayınlarım məni döyürdü. Sanki kölə almışdılar. Artıq bu cür ailə həyatına dözə bilmirdim.

"...o qədər bezdim ki, benzini sinəmdən aşağı töküb..."

"Valideynlərimlə də danışmağa icazə vermirdilər. Günlərin bir günü o qədər bezdim ki, benzini sinəmdən aşağı töküb özümü yandırdım. Tez köməyə baldızlarım, qayınlarım qaçdı və alovu söndürdülər. Sinəm, əllərim çox dərin yandı. Tez məni xəstəxanaya yerləşdirdilər. Zəng vurub valideynlərimi də çağırdılar. Atam-anam Rusiyaya gəldi. Xəstəxanada həyat yoldaşım anamdan xahiş etdi ki, "şikayət verməyin, ailəmi bundan sonra yaxşı saxlayacam". Anamgil də şikayət vermədi. Amma müstəntiq nə baş verdiyini çox yaxşı bilirdi. Elə oldu ki, mən anamgillə qayıdıb Azərbaycana gəldim. Həyat yoldaşım bir neçə ay zəng vurub hal-əhval tuturdu. Deyirdi ki, "tam sağal sonra gəlib səni aparacam". Amma bir müddət sonra daha zəng etmədi, əlaqəmiz kəsildi. Bildim ki, bu cinayət işini ört-basdır etmək üçün bir hiylə idi. Sonradan özüm də daha onu axtarmadım. İndi ata-anamın yanında yaşayıram. Məni ailə qurmaq istəyən şəxslər var. Amma aldığım travmadan hələ sağalmamışam. Daha ailə qurmaq istəmirəm, qorxuram. Ancaq onu bilirəm ki, dayım oğluna görə həyatım puç oldu".

Vasif Əlihüseyn

"Xalqlar dostluğu"nun adı dəyişdirilsin

Metronun "Xalqlar dostluğu" stansiyası Sovet dönəmindən fəaliyyət göstərir və həmin ad da o ideologiyaya uyğun seçsilib. Biz həmişə bütün millətlərə sevgi ilə, məhəbbətlə yanaşmışıq və onlara hörmət eləmişik. Amma çox təəssüf ki, bizim hörmət elədiyimiz millətlər buna dəyər verməyiblər və bizim sadəliyimizdən, səmimiyyətimizdən istifadə edərək, zaman-zaman xalqımıza pisliklər ediblər. Çox yox, elə qonşularımıza baxsaq, hər şey gün kimi aydın olar. Aydın olmayan odur ki, bu gün xalqlar dostluğu qalmayıb. Biz kiməsə "dost" deyirik, onlar isə bizə pislik və yamanlıq eləyir.

Sözümüzün canı odur ki, metronun "Xalqlar dostluğu" stansiyasının adı dəyişdirilsin və ona Azərbaycanın qeyrətli və qəhrəman oğlu general Polad Həşimovun adı verilsin. Çünki Polad Həşimovun bu xalq, bu millət qarşısında çox böyük xidmətləri var. Stansiyaya bu adın verilməsi, həm Polad Həşimovun ailəsinə, həm də xalqımıza çox böyük sevinc bəxş edər. Biz təklifimizi verdik. İndi qalır, əlaqədar qurumların bu təklifi gerçəkləşdirməyinə! Gözləyək görək, nə olur?!

EMİL FAİQOĞLU

İranda "Çərşənbə Suri" şənliklərində ölənlərin sayı artıb

İranda Hicri Şəmsi təqvimi ilə ilin sonuncu çərşənbə gecəsində keçirilən "Çərşənbə Suri" mərasimlərində 26 nəfərin həyatını itirdiyi, 4368 nəfərin isə yaralandığı bildirilib.

İranın rəsmi xəbər agentliyi İRNA-nın məlumatına görə, İran Təcili Yardım Mərkəzinin rəhbəri Cafer Miadfer "Çərşənbə Suri" qeyd etmələrində baş verən hadisələr haqqında məlumat verib. Miadfer ölümlə nəticələnən qəzaların əksəriyyətinin Tehran, Təbriz, Həmədan, Urmiya, Qəzvin və Fars vilayətlərində baş verdiyini və bu il xəsarət alanların ötən illə müqayisədə 22 faiz artdığını bildirib. İranda Yeni il (Novruz) qabağı ilin axır çərşənbə gecəsində keçirilən şənliklərdə, xüsusilə uşaq və gənclər; O, odların üstündən tullanır və atəşfəşanlıq və şimşəkləri yandırır. Bu bayramlar zamanı baş verən qəzalar və ondan əvvəlki hazırlıqlar hər il ölkədə onlarla insanın ölümünə, yüzlərlə insanın yaralanmasına səbəb olur.

Hicri Şəmsi təqviminin tətbiq olunduğu İranda Novruz martın 21-də başlayır.

Eminquey

Ukrayna müharibəsi ABŞ-ın gücünü məhv edə bilər

Pentaqonun keçmiş məsləhətçisi polkovnik Duqlas Makqreqor, The American Conservativa üçün yazdığı məqalədə bildirir ki, "amerikanın və avropanın hərbi sənayesinin gücü Ukraynanın hərbi ehtiyaclarını ödəyə bilməməsi ciddi siqnal olduğunu düşündükcə anlayırsan ki, Ukrayna münaqişəsi ABŞ-ın gücünü zəiflədə və hətta onu məhv edə bilər".

Makqreqor bəyan edir ki, ABŞ prezidenti Co Baydenin administrasiyası Ukrayna ilə bağlı ağlasığmaz addımların atılmasını tələb edir, bu da vətəndaşların hakimiyyətə inamını azaldır. Polkovnikin fikirincə, Rusiya, Ukrayna müharibəsinə Qərbdən daha yaxşı hazırlaşıb: "Müasir Rusiya, Latın Amerikasında, Afrikada, Yaxın Şərqdə və Cənubi Asiyada özünə daha etibarlı tərəfdaşlar talıb. Fakt odur ki, Qərbin iqtisadi sanksiyaları daha çox ABŞ-a və Avropaya zərbə vururmaqla yanaşı, rus rublunu beynəlxalq valyuta sistemində ən güclü valyutaya çevirir".

Makqreqor daha əvvəllərdə bildirirdi ki, əgər Vaşinqton, Kiyevə Krıma hücum etməyə imkan verərsə, münaqişə daha da kəskin fazaya keçəcək və hətta ABŞ-la Rusiya arasında müharibəyə də çevrilə bilər.

Rüstəm Hacıyev

Prezident İlham Əliyev Anarı təltif etdi

Anar Rəsul oğlu Rzayev 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Adalet.az xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncama əsasən, o, Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə təltif olunub.

Anar: "Bundan sonra nə qədər yaşayacağım Allahın əlindədir"

Xəbər verdiyimiz kimi bu gün Xalq yazıçısı Anarın 85 yaşı tamam olur. Adalet.az-ın əməkdaşı yazıçıyla əlaqə saxlayaraq doğum gününü təbrik edib və təəssüratlarını öyrənib.

Anar Adalet.az-a açıqlamasında onu təbrik edən hər kəsə öz təşəkkürünü bildirib:

"Təbrikiniz üçün çox sağ olun. Səhər açılandan təxminən məni yüz nəfər adam təbrik edib. İndi də zəng vurub təbrik edirlər".

Anar saytımıza açıqlaması zamanı ona daha 15 il ömür arzulayan yazıçı Seyran Səxavətin fikirlərinə də münasibət bildirib:

"Seyran müəllim təbriki üçün çox sağ olsun. Bundan sonra daha 15 il yaşayıb-yaşamamağım mənim yox, Allahın əlindədir. Hamınıza təşəkkürümü bildirirəm"-deyə yazıçı bildirib.

Vasif Əlihüseyn

Novruz bayramında neçə gün dərs olmayacaq?

Təhsil müəssisələrində Novruz bayramı ilə bağlı tətil günləri açıqlanıb.

Bu barədə Adalet.az-a Elm və Təhsil Nazirliyindən xəbər verilib.

Bildirilib ki, Nazirlər Kabinetinin "2023-cü il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" müvafiq qərarına əsasən beşgünlük iş həftəsi ilə fəaliyyət göstərən təhsil müəssisələrində bu həftə son iş günü 17 mart, bayramdan sonra ilk iş günü 27 mart; altıgünlük iş həftəsi ilə fəaliyyət göstərən təhsil müəssisələrində bu həftə son iş günü 18 mart, bayramdan sonra ilk iş günü 25 mart tarixləridir.

Qeyd edək ki, bu qərar ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarına da şamil edilir.

Anar

XXI ƏSRİN İLK NİKBİN ŞERİ

Keçib getdi,
min il, yüz il;
Keçib getdi,
on il, son il.
Keçib gedir
son ay, son gün,
son dəqiqə, son saniyə.
Əsim-əsim əsir səsim,
Axı əsir səsim niyə?
Mən əsrimin əsiriyəm,
Mən əsrimin əsəriyəm.

Yaxşım, pisim -
Fikirlərim, duyğum, hissim,
Ömrüm-günüm, əsərlərim,
əsəblərim,

Ağrılı-acılı sirlərim, -
Nəyim yoxdur, nəyim vardır -
Bu yüz ildən yadigardır.
Tərk edirəm diri-diri

İyirmini -
İki mini.
Tərk edirəm vətən kimi
Ümidimi, diləyimi

yeni əsrə daşıyıram, -
Düşmənlərin acığına
yaşamışam, yaşayıram.
İyirmi bir - yeni vətən,
Min illərin sərhəddini
mən aşacam.

Yaşamışam, yaşayıram,
yaşayacam.

Buna görə həmin qayaya Bağrıqan dağı adı verilmişdi

Adalet.az-ın əməkdaşı Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlan davası" adlı kitabından maraqlı tarixi hadisələri silsilə şəkildə təqdim etməyə start verib. Kitabda ermənilərin müsəlmanlara tutduğu divandan bəhs olunur. Çox maraqlı hadisələrin şahidi olacaqsınız. Odur ki, yazılarımızı izləyin:

Bağırqan dağı

Bu halda bir neçə kəlmə erməni tayfasının törətdiyi əhvalatlardan yazmaq lazımdır. Əvvəla, mərhum İbrahim xanın hökmranlığı zamanında Pənahabad, yəni Şuşa qalasının şərq tərəfində Bağırqan dağı deyilən yerdə bir uca qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. Avan Koxa öz təbəələrinə buyurmuşdu ki, harda əllərinə müsəlman düşsə, tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmrilə tutulmuş müsəlmanı çılpaqlayıb üzü üstə yerə yıxardılar. Sonra onun arxasının dərisindən dörd barmaq enində boynundan qom ətinəcən iki tərəfdən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib budağı buraxardılar. Ağacın budağı qüvvətlə yuxarıya qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı. Buna görə də həmin qayaya "Bağrıqan dağı" adı verilmişdi".

Vasif Əlihüseyn

"Azərbaycanın hər yeri Anarın bir tərəfidir..."

"Anarın kimliyi bütün Azərbaycana məlumdur. Yəni burda gizli nöqtələr demək olar ki, yoxdur. Bir yazıçı kimi, şəxs olaraq. Bir yerdə işləyirik, dünən gedib təbrik elədim. Dedim ki, səksən beş kilometr yol gəlibsən hələ imkanın da var, on beş kilometr də üstünə əlavə elə"

Bunu Adalet.az-a açıqlamasında yazıçı Seyran Səxavət Xalq yazıçısı Anarın doğum günü haqda danışarkən deyib. S.Səxavət Anara doğum günü münasibətilə öz arzularını çatdırıb:

"Ona görə onun kimliyi haqqında heç nə demirəm ki, Anar məlumdur. Azərbaycan ədəbiyyatı, incəsənəti üçün çox şeylər edib. Bu yaxınlarda Mədəniyyət nazirimiz əvəziylə görüşümüz oldu. Orda Anar dedi ki, "üç ssenarim var, Mədəniyyət Nazirliyi tərəfindən bəyənilir, çəkilməyə imkan yaratmırlar. Nə vaxt soruşursan deyirlər ki, pul yoxdur". Orda mən də çıxış elədim. Sözümün canı bundan ibarətdir ki, nazir əvəzimizə dedim bu Anar müəllimin öz problemi deyil. Artıq Anar müəllim elə bir səddə çatıb ki, bu Azərbaycan ədəbiyyatının, incəsənətinin, kinematoqrafının problemidir. Yəni Anar artıq o səviyyələri çoxdan adlayıb.

Bir daha qələm dostumu ürəkdən təbrik edirəm. Arzu edirəm ki, heç harası ağrımasın. Heç harası deyəndə mən ancaq Anarın bədənini nəzərdə tutmuram, elə Azərbaycanın hər yeri Anarın bir tərəfidir. Yəni heç haramız ağrımasın".

Qeyd edək ki, bu gün Xalq yazıçısı Anarın doğum günüdür. Onun 85 yaşı tamam olur.

Vasif Əlihüseyn

160 milyon il ömür itirmişik

Sinqapur Milli Universitetinin alimləri, onların ABŞ və Çindəki həmkarları hesablayıblar ki, 2019-cu ildə piylənmə ilə bağlı ölümlər səbəbindən insanlar 160 milyon illik mümkün ömürlərini itiriblər.

2000-ci ildən 2019-cu ilə qədər 162 ölkədə toplanmış məlumatlardan istifadə edərək alimlər müəyyən ediblər ki, dünya üzrə bütün metabolik xəstəliklərin - hipertoniya, 2-ci tip diabet, yüksək xolesterin, piylənmə və alkoqolsuz yağlı qaraciyər xəstəliyinin yayılması xeyli artıb.

Ən əhəmiyyətli artım yüksək və orta gəlirli ölkələrdə müşahidə olunub.

Lakin bu tendensiya kənar amillərdən asılı olmayaraq, bütün dünyada eyni xarakter daşıyıb.

Piylənmədən ölüm səviyyəsi isə əhəmiyyətli dərəcədə dəyişməyib. Eyni zamanda, o, dünyada ölümlərin əsas səbəblərindən biri olaraq qalır.

Emin

Vaqif Bayatlı Odər

Nobel mükafatı, qaytar Azərbaycana borclarını



1970-ci illərin əvvəllərində dünyanın ən böyük alimlərindən və insanlarından biri olan Xudu Məmmədovun dəvətilə onun evində olmaq, gecənin bir aləminə qədər Xudu müəllimi dinləmək, onunla söhbətləşmək şərəfinə nail olmuşam. Onun yaxın qohumu Akif bəylə birgə. Akif həm Elçibəy məktəbini keçmiş bir mübariz, həm də bizim antisovet təşkilatımızın fəallarındandı.

Xudu müəllim Azərbaycanın gəncliyi, milli azadlıq hərəkatı, ziyalılarımız haqqında danışır, həm dəyərli ziyalılarımızı, həm də bizim özümüzü bir-birimizə sevdirirdi. Onun haqqında sevgiylə danışdığı, gələcəyinə çox böyük ümidlər bəslədiyi gənclərdən biri də indi dünya şöhrətli alimimiz Rafiq Əliyev idi.

Beləcə Rafiq müəllim haqqında ilk sözü Xudu müəllimdən eşitmişəm. Sonralar 80-ci illərdə onun haqqında bütün dövrlər üzrə Azərbaycanın böyük dilçilərindən olan Aydın Məmmədovdan çox gözəl sözləri yaddaşımın qızıl guşəsinə yazmışam. Aydın bəy Rafiq müəllimin elmi işləriylə tanış idi, onun tezliklə dünya arenasına çıxacağına inanırdı və bunu dəfələrlə söyləmişdi.

Sonralar Rafiq müəllim ilə daha yaxından tanış oldum. Onun elm sahəsində qazandığı uğurlar haqqında gözəl sözləri tanınmış alimlərin yazılarından oxudum, dillərindən eşitdim. Çoxlarının qeyd etdiyi kimi bu gün onun Nobel mükafatı almağa ən real namizədlərdən biri olmağı bir Azərbaycan türkü kimi məni də qürurlandırır. Onun adı gələndə deyirəm, - Nobel, ver bizim mükafatımızı.

Yeri gəlmişkən, bir məsələ barədə fikrimi bildirmək istəyirəm ki, son yüz ildə Nobel mükafatı alan ədəbiyyat və elm xadimlərinin cəmisi 5-10 faizi tarixdə qalıb. Bəzilərini indi heç öz vətənlərində də xatırlamırlar. Vaxtilə 20-ci yüzilliyin nəhəngləri Tolstoy, Rilke, Kafka, Nazim Hikmət və başqa layiqli böyük ədiblər Nobel komitəsinin "yadından çıxıb". Eyni sözləri dünya ədəbiyyatı və elminin nəhəngləri M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev - o həm də şərqin ilk dirijoruydu, Yusif Məmmədəliyev haqqında da demək olar.

Ümumiyyətlə, mən tərəfdarıyam ki, Türk dünyası elm və ədəbiyyat sahəsində özünün nüfuzlu mükafatlarını müəyyənləşdirsin. Bu sahədə qiymətləndirmədə çox vaxt bir-biriylə razılaşdırılmış xristiyan-yəhudi şovinizmi göstərən qərb dünyasına qarşı öz iradəmizi, öz düşüncə sistemimizi, öz mükafatlarımızı qoymalıyıq.

Həm də Nobel mükafatının Bakı neftinə mənəvi borcu var, axı. Böyük şairimiz Məmməd Araz şeirində dediyi kimi Nobel mükafatını "səhvini" düzəltməyə, "borcunu" qaytarmağa çağırıram. Ey Nobel mükafatı, yadından çıxarma ki, həm də Azərbaycan neftindən əmələ gəlmisən, xristiyan-yəhudi mükafatı olmaqdan çıx, ver Azərbaycanın mükafatlarını. Ver Rafiq bəyin mükafatını.

Xocalı şəhidlərini - qəhrəmanlarını andığımız bu günlərdə də və həmişə bir təsəllimiz də belə böyük insanlarımızın varlığıdır.

"Şirməmməd Hüseynov mükafatı" səfirə təqdim olundu

Mətbuat Şurasında "Şirməmməd Hüseynov Mükafatı"nın təqdimat mərasimi olub.

Modern.az xəbər verir ki, tədbirdə Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, Mətbuat Şurasının sədri Rəşad Məcid, mərhum alim, görkəmli mətbuat tədqiqatçısı Şirməmməd Hüseynovun həyat yoldaşı Ülkər xanım, Parlament Jurnalistlər Birliyinin rəhbəri Elşad Eyvazlı, millət vəkilləri Aqil Abbas, Vüqar İskəndərov və media təmsilçiləri iştirak ediblər.

Tədbiri **Mətbuat Şurasının sədri Rəşad Məcid** giriş nitqi ilə açaraq, Şirməmməd Hüseynovun Azərbaycan mətbuatındakı xidmətlərindən və onun adına təsis edilmiş mükafatın önəmindən danışıb.

O çıxış üçün sözü **Şirməmməd Hüseynovun həyat yoldaşı Ülkər Hüseynova**ya verib. "Şirməmməd Hüseynovla bağlı mükafatın təsis edilməsi məni sevindirir. Şadam ki, Şirməmməd müəllimin tələbələri onun adını yaşatmaq üçün çalışırlar",- Ülkər xanım söyləyib.

Parlament Jurnalistlər Birliyinin sədri, Əməkdar jurnalist Elşad Eyvazlı Şirməmməd Hüseynovun jurnalistlərin sevimli müəllimi olduğunu, onun ölkəmiz üçün böyük işlərə imza atdığını bildirib.

Elşad Eyvazlı, həmçinin səfir Vilayət Quliyevin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, diplomatiyamızın uğuru, tarix və ədəbiyyatın araşdırılması sahəsindəki xidmətlərindən söz açıb. PJB sədri vurğulayıb ki, fəaliyyəti dövründə böyük əmək sərf edən V.Quliyev ciddi nailiyyətlər qazanıb, Azərbaycan dövlətçiliyinə, tarixinə və mənəvi dəyərlərin qorunmasına misilsiz töhfələr verib.

"Vilayət Quliyevin həm xarici işlər naziri, həm səfir, həm də tədqiqatçı alim kimi fəaliyyəti, xüsusilə də Azərbaycan Xalq Cümhuriyyətinin tarixi, quruculları barədə araşdırmaları ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan o, Azərbaycan dövləti və xalqı qarşısında göstərdiyi xidmətlərə görə, Şirməmməd Hüseynov mükafatına layiq görülüb", - deyə Elşad Eyvazlı əlavə edib.

O, daha sonra "Şirməmməd Hüseynov mükafatı"nı Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyevə təqdim edib.

Səfir Vilayət Quliyev mükafata görə təşəkkürünü bildirib: "Azərbaycanda dövlət mükafatları da daxil olmaqla bir çox mükafata layiq görülmüşəm. Ancaq mənim üçün bu mükafatın yeri ayrıdır. Hamımız Şirməmməd müəllimin tələbəsiyik. O, yazılarımla maraqlanırdı. Bir dəfə görüşəndə mənim yazımdan bəhs etdi. Dedim ki, vaxtınızı ayırıb, cızmaqaralarıma baxdığınıza görə təşəkkür edirəm. O isə bildirib ki, "özünü aşağı tutma, sən alimsən". Mən Polşada Azərbaycan mühacirətini tədqiq etmişdim. Məndə hər zaman istək olub ki, öyrəniləcək məsələləri tədqiq edim. Mükafatlandırmanın olması insana özünü yaxşı hiss etdirir. Çünki bilirsən ki, əməyin boşa getmir, onu dəyərləndirənlər var. Buna görə təşəkkür edirəm, minnətdarlığımı bildirirəm",- səfir deyib.

Daha sonra **deputatlar Aqil Abbas və Vüqar İsgəndərov** çıxış edərək Vilayət Quliyevin yaradıcılığından danışıblar. Onlar belə bir mükafatın ərsəyə gətirilməsinə görə, PJB sədri Elşad Eyvazlıya təşəkkür ediblər.

Əməkdar jurnalist Akif Aşırlı isə qeyd edib ki, Şirməmməd müəllimin Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı tədqiqatları misilsizdir: "Onun adına belə mükafatın təsis edilməsi çox yaxşı haldır. Buna görə Parlament Jurnalistlər Birliyinin rəhbəri Elşad Eyvazlıya təşəkkür edirəm. Vilayət müəllimin yazıları olduqca mühümdür. Bu mükafatın ona verilməsi düzgün qərardır".

Yekunda **Parlament Jurnalistlər Birliyinin üzvü Aqil Camal** mükafatla bağlı təşkil olunan səsverməyə aydınlıq gətirib.

O bildirib ki, səsvermə 50-60 jurnalist arasında keçirilib.

Qeyd edək ki, "Şirməmməd Hüseynov mükafatı" ilə bağlı qərarı Parlament Jurnalistləri Birliyinin İdarə Heyəti 12 noyabr 2019-cu il tarixində qəbul edib. Əsasnamədə qeyd olunub ki, "Şirməmməd Hüseynov mükafatı"nın məqsədi jurnalistika sahəsində xidmətləri olan şəxslərin fəaliyyətini dəyərləndirmək, jurnalistikanın cəmiyyət həyatındakı rolunun artırılmasını stimullaşdırmaqdan ibarətdir.

"Şirməmməd Hüseynov mükafatı" fəaliyyəti və yaradıcılığı ilə jurnalistikanın inkişafında yüksək xidmətləri olmuş, jurnalistikanın tədrisi sahəsində mühüm nailiyyətlər əldə etmiş şəxslərə, peşə prinsiplərinə riayət etməsi ilə fərqlənən jurnalistlərə, ziyalılara verilir.

Təsisçilərin bildirdiyi kimi, mükafat yalnız ölkəmizin hüdudlarını əhatə etməyəcək. Azərbaycanın milli və dövlət maraqlarını beynəlxalq aləmdə layiqincə təmsil edən əcnəbi vətəndaşlar, görkəmli elm xadimləri, tarixi araşdırmaçı və tədqiqatçılar, Azərbaycanın ictimai-ədəbi mühitində nüfuz qazanmış şəxslər, tanınmış mədəniyyət və incəsənət xadimləri də mükafatı qazanmaq üçün namizəd ola bilərlər. Bu mükafatı Azərbaycan dövləti və xalqı qarşısında göstərilmiş xidmətlərin qarşılığında qazanmaq mümkündür.

Zərdüşt Əlizadə: "Kənar qüvvələr yenə ara qızışdırır, zəif tərəfə dəstək verirlər ki..."



"Son otuz ildə nə baş veribsə, o da davam edir. Bu o deməkdir ki, problem həll edilməyib. Problemin həlli üçün tərəflər çalışmalıdır. Əslində bu problem həm Azərbaycana, həm də Ermənistanın özünə də böyük fəlakət gətirib"

Bunu Adalet.az-a açıqlamasında politoloq Zərdüşt Əlizadə erməni birləşmələrinin rayonlarımızı atəşə tutmasına münasibət bildirərkən deyib. Politoloqun sözlərinə görə tərəflərin barışmasına kənar qüvvələr mane olur: "Kənar qüvvələr yenə ara qızışdırırlar. Zəif tərəfə dəstək verirlər ki, heç cür ram olmasın və əsas odur ki, iddialarını irəli sürsün. Nəticədə də təəssüf doğuran hadisələr, qanlı atışmalar, insan ölümü baş verir. Mənə elə gəlir ki, tərəflər savaş potensialından istifadə edirlər, amma barış potensialından istifadə etmirlər. Barış potensialı böyük qüvvəyə malikdir. Amma indiki şəraitdə bölgədə hakim mütləq Rusiyadır. Rusiyanın Qarabağda da, Ermənistanda da qoşunları var. Ona görə Rusiya istəmir ki, münaqişə qurtarsın".

Qeyd edək ki, martın 15-i saat saat 0:10-dan 2:30-dək Ermənistan silahlı qüvvələri Ordumuzun mövqelərini atəşə tutub.

Vasif Əlihüseyn

Yadplanetlilər yer kürəsinə gəlirlər...

News Fox yazır ki, Pentaqonun məmurlarının hazırladığı araşdırmalar layihəsi ilə bağlı layihədə başqa planetlərin yer kürəsinə mümkün missiyasını öyrənən NASA, bildirir ki, yadplanetlilər bizim Günəş sistemimizə daxil ola və kiçik zondlar vasitəsi ilə yerə nəzarət edə bilərlər.

Sənəd Pentaqonun anomaliyaların araşdırılması idarəsinin direktoru Şon Kirkpatrik və Harvard universitetinin astranomiya kafedrasının müdiri Avraam Leb tərəfindən hazırlanıb. ABŞ Konqressi bununla bağlı NASA-ya tapşırıq verib ki, Yer kürəsinə yaxın 140 metr ölçüdən yuxarı bütün obyektlərin 90 faizi öyrənilsin.

2005-ci ildə bu məqsədlə yaradılmış Pan-STARRS teleskopları vasitəsiylə, 2017-ci ildə sonradan "Oumumuamua" adlandırılan qeyri-adi obyekt müsahidə etmişdi (havay dilində kəşviyatçı deməkdir). Obyekt siqar formasında olub, Quyruğunda iz buraxmadan Günəş ətrafından uçub keçib. Alimlər buna görə obyektin süni yaradıldığını ehtimal edirlər. "Süni yaradılmış ulduzlararası obyekt potensial olaraq bir çox kiçik zondlar buraxan, Yer kürəsinə yaxınlaşan, NASA- nın bu tip qurğularında o qədər də fərqlənməyən konstruksiyalar daşıyan aparıcı gəmi ola bilər"- deyə hesabatda bildirilir. ABŞ Hərbi qüvvələrinin hərbiçiləri son vaxtlar daha çoz naməlum obyektlərin real təhlükələri ilə bağlı xəbərdarlıqlar edirlər. Bunların heç birinin hava şarları ilə əlaqələri yoxdur. Amerikan hərbiçilərinin çoxsaylı məlumatlarında bildirilir ki, naməlum obyektlər səs sürəti ilə hərəkət edə, hava durumundan asılı olmayaraq uzun müddət havadan asılı vəziyyətdə qala bilirlər. Onlarda müasir təyyarlərdən fərqli olaraq hər hansı bir mühərrik və fyuselyajla təmin olunması halları müşahidə olunmayıb.

P.S. ***Nədənsə, yadplanetlulərin daha çox Birləşmiş Ştatların hava məkanlarında müşahidə olunması barədə məlumatlar yayılır. Deyəsən yad planetlərdən gələnlər də bilirlər ki, yer kürəsində hər yeri qarışdıran şeytanlar ABŞ-da məskunlaşıblar. Ona görə də nə edəcəkləri planlarını oradan başlamaq istəyirlər.***

Lenta,ru saytının materialları əsasında:
Rüstəm Hacıyev

"Xocalı faciəsindən sonra döyüşə qatılıb ağır yaralandım, amma məni..."

"O şəkli mən paylaşmışdım və Raefel müəllim də səhifəmdən götürüb o şəkli paylaşıb. Şəkil 1990-cı ildə çəkilib. Onda Xalq artisti Şəfiqə Məmmədovanın kursunda idik. Orda məşhur 37-ci otaq var idi və məşqimizi orda edirdik"

Bunu Adalet.az-a açıqlamasında Qarabağ veteranı, jurnalist Səbuhi Rəhimli sosial şəbəkədə müzakirələrə səbəb olan şəklindən danışarkən deyib. S.Rəhimli daha sonra bunları bildirib:

"Orda məşq zamanı belə bir forma geymişdik. Sonra elə oldu bir fotoqraf gəldi və şəkil çəkdirdik. Bunu da Milli Teatr Günü münasibətilə paylaşmışdım. 1990-cı ildən 1995-ci ilə qədər oxuduq, amma 1994-cü ildə meyxanaçı Vüqar Əbdülov avtomobil qəzasına düşdüyünə görə kursda qaldı. Mən isə 1992-ci ildə Xocalı faciəsindən sonra Qarabağ müharibəsinə getdim, döyüşdüm və ağır yaralandım. Amma məni kursda saxlamadılar. Həm könüllü getmişdim deyə, həm də rejissor Nəsir Sadıqzadə dirəniş göstərdi ki, Səbuhi kursda qalmasın. Buna görə Nəsir müəllimə öz təşəkkürümü bildirirəm. Şəfiqə xanım birinci kursda bizə dərs deyib və sonra musiqili teatr kafedrasına müdir keçdi. Ondan sonra boş qoymamaq üçün Şahmar Ələkbərovu bizə müəllim təyin etdi. O, da bizə bir semestr dərs dedi və vəfat etdi. Sonrakı müddətdə Fuad Poladov və ona köməkçi kimi Müşfiqə Yusubova bizə dərs dedi. Amma birinci kursdan sona qədər Əməkdar artist Gürşad Baxşıyeva bizə dərs deyib"-deyə Səbuhi Rəhimli bildirib.

Qeyd edək ki, aktyor Rafel Dadaşovun tələbə yoldaşlarıyla olan şəklini sosial şəbəkədə paylaşması maraqla qarşılanıb.

Vasif Əlihüseyn

Qlendeylin erməni meri: "Türkiyə və Azərbaycan Ermənistan üçün təhlükədir, ABŞ..."

ABŞ-ın Qlendeyl şəhərinin meri, erməni Artaşes Ardi Kazakyan erməni mediasına müsahibə verib.

Adalet.az xəbər verir ki, erməni mer müsahibəsində ABŞ-Azərbaycan, ABŞ Ermənistan münasibətlərinə toxunub. O bildirib ki, Vaşinqtonun, Ermənistan və Artsaxın (qondarma rejim) sözdə asayiş və təhlükəsizliyinin təminatçısı olmaqdan daha çoxuna ehtiyac var.

ABŞ çox uzun müddətdir ki, Ermənistanı qismən dəstəkləsə də, öz maraqlarının Qafqaz regionunda davamlı sülhün bərqərar olması ilə üst-üstə düşmədiyini nümayiş etdirən Azərbaycanı və digər ölkələri dəstəkləyir.

O, 907-ci (ABŞ Konqresi tərəfindən "Azadlığa Dəstək" Aktına qəbul edilən və Azərbaycana Amerikanın birbaşa dövlət yardımını yasaqlayan düzəliş) düzəlişi həyata keçirməli, Azərbaycana bütün maliyyə və hərbi yardımları və silah satışını dayandırmalıdır.

O, Bakıya aydın mesaj verməlidir ki, Ermənistanın sağ qalması və onun sərhədlərinin bütövlüyü Vaşinqton üçün vacibdir".

Mer son günlər Qarabağ ermənilər ilə Azərbaycan Respublikasının münasibətlərini də müzakirə edib: "Düşmənlərimizlə sülh içində yaşaya bilərikmi? Cavab bizim nə üçün onları düşmən görməyimizdən asılıdır. Mən heç bir xalqı düşmən kimi görmürəm, amma tarixə və son hadisələrə əsaslanaraq, Türkiyə və Azərbaycanı Ermənistanın

yaşaması üçün təhlükə kimi görürəm".

Erməni mer müsahibədən çox sayıqlamaya bənzəyən açıqlamaları ilə özünə və qatil, işğalçı vəhşi xalqına haqq qazandırmağa çalışır, sanki 30 ildir Azərbaycan 20 faiz torpağlarını işğalda saxlayan, dünyanın gözü qarşısında Xocalı kimi bir soyqırımı yaradan bunlar deyil:"Heç bir ölkə Ermənistana qarşı törədilən soyqırım və etnik təmizləmədən təəssüflənməyib və öz tarixinə haqq qazandırmaq üçün ciddi vəsait sərf etməyib. Türk xalqının mentaliteti dəyişmədikcə keçmişdəki cinayətlərin təkrarlanmayacağına inanmaq çox çətin olacaq".

Kazakyan daha sonra həyasızcana davam edir:"Bu gün Azərbaycanda ermənilər girov saxlanılır, Ermənistanda isə azərbaycanlı əsir yoxdur. Bu məhbuslardan Ermənistanı ictimai maraqlara uyğun olmayan işlərə məcbur etmək üçün sövdələşmə obyekti kimi istifadə olunur".

Elə bu an erməni merə sual vermək istəyirəm:

I Qarabağ müharibəsi zamanı itkin düşmüş və girov götürülmüş 4035 azərbaycanlı əsirə neylədiniz? 3263 hərbçi, 771 nəfər mülki azərbaycanlından neçəsini erməni qəbirlərinin üstündə başını kəsdiniz, neçəsini toplu şəkildə canlı-canlı basdırdınız?

Yalan və uydurma danışmaqla özünüzü "durulamaq" imkanı qazana bilməyəcəksiniz.

Mer sonda müsahibəni belə bitirir:"Azərbaycanda sərbəst dolaşan və sevilən hərbi cinayətkarların, ermənilərin qatilllərinin olduğu bir vaxtda bunu başqa necə izah etmək olar?"

İzah istəyirsənsə, o zaman Xocalı qatillərini Azərbaycana ver, izah istəyirsənsə,Qarabağı xarabazara çevirmiş, daş üstə daş qoymayan vəhşi, vandal erməniləri təslim et! O zaman bəlkə inandıq ki, siz sülh istəyirsiniz!

Qeyd edək ki, 2019-cu ildə hələ Qlendeyl şəhərinin katibi olarkən həmin bu Artaşes Kasakyan Azərbaycanın işğal altında olan Qarabağ bölgəsinə qanunsuz səfər edib.

O ötəl il "Artsax şəhəri Martuni (Xocavənd - red.) ilə Amerikanın Qlendeyl şəhəri qardaşlaşacaq"deyə açıqlama vermişdi.

Əntiqə Rəşid



Əbülfət MƏDƏTOĞLU

FÜZULİ OLMASAYDI...

"Ədalət"in baş redaktoru məni iş otağına dəvət edib bir kitab verdi. Elə otaqdaca kitabın adını oxudum və...

Bu kitabdakı esseləri mətbuatda,xüsusilə "Ədəbiyyat" qəzetində oxumuşdum, xəbərim var idi. Amma istənilən əsəri hissə-hissə deyil, bütövlükdə oxuyanda hadisələrin axarına uyğun olaraq əvvəldən axıra kimi müəllifin və elə o əsərin ruhunun da yol-yoldaşına çevrilirsən. Bax, bu mənada mən Füzuli ilə əsrlərəbərabər bir yolun başlanğıcından bu gününə qədər çox ləngərli, çox tutumlu, hətta mən deyərdim bəzən də dizlərimi titrədib, ayağımı büdrədən bir yolçuluq edəsi oldum. Bu yol- yoldaşlığı ,tam səmimi deyirəm, mənə, düşüncələrimə, illah da ki,yurdsuzluq yaşamış ürəyimə baha başa gəldi. Amma ağrılara, fikir yükünün basqılarına baxmayaraq, oxudum Füzulini. Özü də öncə adi oxucu kimi, sonra bir addım adilikdən çıxıb dərk etməyə cəhd göstərən, sözə könül verən kimi. Oxudum Kamal Abdullanın Füzulisini! Oxuduqca da Füzulini bu qədər az tanıdığıma, Füzulidən bu qədər az bildiyimə üzüldüm. Çünki...

Düşünürəm ki, müdriklərin dediyi "bilməmək eyib deyil, öyrənməmək eyibdi" kəlamı indi mənim əlimdən tutacaq. Və bu kəlam məni həm də dərindən bilmədiyim Füzuli dünyasına doğru yönəldəcək.Baxıb görəcəm ki, öndə bir ADAM gedir. Həmin şəxs Füzulini sözsöz, misra-misravərəqləyir. Vərəqlər o qədər səssiz, o qədər ustalıqla çevrilir ki, onu oxumaq,onu izləmək mümkündür. Hələ üstəlik, o çevrilən vərəqlərdə Füzulinin bütövlüyü işığa bürünür. O işıq da Füzuli ruhuyla, cismiylə, sözüylə birlikdə görünür.Göründükcə də sanki ətə-qana dolur... dil açır... və başlayır danışmağa.Danışdıqca da özünü ifadə edir... özünü sərgiləyir... yaddaşa hopdurur... ruha sintez edir... canında Füzuli yenidən doğulur, dünyaya gəlir sənin- mənim üçün ...

Bəlkə də sizə qəribə gələcək.Hardasa məni qınayanlar da olacaq. Amma necə deyərlər, vecimə də deyil. Çünki mən ilk dəfə "Deyildim mən sənə mail..." fəlsəfəsini Kamal Abdullanın yozumunda bütünlüklə həzm elədim. Anladımki, mənim, yəni Füzulinin "sənə mail deyiləm" etirafı adi şeir misrası deyil, adi qəzəl misrası kimi yaddaşa yazılmır. Burda neçə qat dərinlik var... burda neçə qat əlçatmazlıq var... Və mail olmayanın yerlə göy arasında nəhayət ki, tapdığı bir nöqtə var.Ona görə də o, Füzuli fövqüylə, Füzuli hayqırtısıyla çox rahat şəkildə pıçıldayır. Siz o pıçıltıya fikir verin...

...Deyildim mən sənə mail...

Eşidə bildinizmi? Əgəreşitdinizsə, onda akademik Kamal Abdullayla, daha doğrusu, onun şərhiylə həmfikir olacaqsınız. Necə ki, mən bu pıçıltıdan doğulan, boy göstərən Füzulini bütöv halda gördüm, dinlədim. Həmin o işığın içində bir ağ yol da var idi. Orada hərkəsin getmək istədiyi, amma gedə bilmədiyi, hər kəsin olmaq istədiyi, amma ola bilmədiyi ilahi bir aşiqlik var. O aşiqlik akademik Kamal Abdullanın şərhindən sonra mənə Füzulini ruh kimi göstərdi. Hamıya nüfuz edə bilən, özü də hamıda zərrələri olan ruh kimi. Düşündüm və inandım ki, akademik Kamal Abdullanın Füzulini Allah bəndəsi - insan kimi deyil, yerlə göyün arasındakı ruh kimi görməsi ən böyük tapıntıdı. Özü də elə bir tapıntı ki, heç kəsin cismən gedib dönmədiyi, qayıtmadığı məkandan da Füzulinin ruhu bizə qayıdıb bizimlə ola bilir. Digər tərəfdən, bu ruh heç kimi usandırmır.

Hətta bir aşiq olaraq cəfadan da bezmir, yorulmur. Ona görə ki, o ruhun nəfəsi də, cismi də, yerişi, duruşu, nüfuz etmək qüdrəti də Sevgidi!

"Mənim Füzulim"in bir nüansı da mənim yaxamı buraxmır. O da akademik Kamal Abdullanın məni inandırdığı daha bir gerçəkdi. O gerçəyin adı Füzulinin Səyyah olmasıdır. Elə bir səyyah ki, hər yerə gedə bilir... hər məqamı dəyərləndirməyi bacarır... hər mənzərəni özünə və özünü də ona köçürməyi diqqətindən yayındırmır... Eyni zamanda, bu Səyyah dayanmır, yatmır, dincəlmir.Həyatın özünü də özündə görür. Ona "tən eyləyən" qafili də, onun"əqlini zair" edəni də tanıyır. Bunların heç birinə isə iynə ucu boyda da olsun təpki gəlmir, acı münasibət göstərmir. Çünki o, Füzulidi! İnsan kimi, bəndə kimi çoxdan Yer üzündən köçmüş, amma şeyx kimi, ruh kimi, ŞAİR kimi bütün zamanları keçib gələn və keçib getməkdə də davam edən Füzuli!

Akademik Kamal Abdullanın"Mənim Füzulim" kitabındakı "Deyildim mən sənə mail"essesini oxuyarkən içimdən belə birfikir gəlib keçdi. Hörmətli Kamal müəllim bu esseni yazarkən həkimlərin istifadə etdikləri maqqaşdan istifadə edib. Sözü, fikri bir-bir, yorulmadan, usanmadan seçib, sıralayıb. Necə ki, sovet dönəmində mətbəələrdə çap sexində hərfləri,durğu işarələrini bir-bir axtarırdılar, seçirdilər. Sonra sıraya düzüb söz,cümlə yaradırdılar. Bax, bu essenin dünyaya gəlişi də mənə o anları xatırlatdı.Çünki mən hər sözdə, hər bir vurğunun altında Füzuli işığını gördüm...

Bəli, bu mənim bir oxucu olaraqKamal Abdullanın "Mənim Füzulim" kitabındakı ilk esse barəsində yaşantılarımdı. Və vurğulamaq istəyirəm ki, hər gün təkrar-təkrar oxuduğum bu esselərin digərləri barəsində də yaşantılarımı oxucularımla bölüşəcəm.

*****

Oxuyub başa çıxdığım bir kitabdan ayrıla bilmirəm. Bu kitab barəsində ilk yazımı ötən həftə yazmışdım.Orada kitabın mahiyyətinə bacardığım kimi işıq salmağa çalışmışdım və vurğulamışdım ki, kitabdakı 6 bölümün hər biri barəsində ağlımdan keçən, ürəyimə hopan duyğuları sözə çevirməyə çalışacam. Elə arxada qalan həftənin, xüsusilə həyatıma ağır təsir biganəlik yükü altından çıxış yolu kimi "Mənim Füzulim"ə üz tutdum...

Bu bölümün adı "Tifl həm cövlan edər, amma ağacdan atı var..."

Misraya fikir verin. Onda akademik Kamal Abdullanın Füzuli qəsidəsindən götürdüyü bu misranın nəyə istinad nöqtəsi olduğunu yavaş-yavaş duymağa, anlamağa başlayacaqsınız. Ona görə yavaş-yavaş deyirəm ki, bu misranın tutumu, həcmi və bir də onun insanın duyğularına olan təsiri o qədər böyükdür ki, onu dərhal həzm etmək, dərhal özününküləşdirmək mümkün deyil. Bunun üçün mütləq Füzulinin bir zərrəsinə çevrilməlisən. Onda, hörmətli Kamal müəllimin dediyi kimi, öncə özünü xatırlayacaqsan, öz xatirələrinə baş vuracaqsan... Və bir də baxıb görəcəksənki, uşaqlığın düz orta göbəyində dayanmısan. Tozlu-torpaqlı yolda qarğı at çapırsan. Necə deyərlər, Araz aşığındandı, Kür də topuğundan, dünya da vecinə deyil. Ona görə ki, sən qarğı atı yəhərləyib çapırsan, dünyan pak, nurlu uşaq dünyası, sevincin bu qarğı atın gedib çata bilməyəcəyi zamanları ötüb keçib... Və sən bir xoşbəxt uşaqsan! Elə bu yerdə də Füzulini özünlə üzbəüz dayanmış görəcəksən. O da öz atının belindədi. Amma səndən bir zaman kəsiyi arxadadı. Çünki o, təkcə mindiyin qarğı atı deyil, həm də akademik KamalAbdullanın dediyi kimi, öz doğumunu, öz dünyaya gəlişini də xatırlayır. Burda mənim dilimin ucuna bir söz də gəlir. Demək istəyirəmki, hörmətli Kamal müəllimin məni köklədiyi duyğular qulağıma pıçıldayırki, Füzuli göbəyimin kəsildiyini də hiss edir.

Bax, elə sözün qatlarına varmaqda, onun nöqtə-vergülündən tutmuş səsdən hərfə, yazılışa köçən hər anına da burdan baxmaq lazımdı. Elə ki, baxmağı bacardın, onda Füzuliylə doğuşundan üzü bugünə qədər yol-yoldaşı olacaqsan. Və üstəlik, duyacaqsan ki, Füzuli səni özü il gətirdiyi kimi, sən tıncıxıb nəfəs dərəndə bir də gəldiyi yerə dönüb baş çəkə bilir.Çünki onun dünyası göyün o biri üzüylə yer arasındadır. O, getdiyi yerdə sözünün işığını paylayır və yenidən gəldiyi yerə qayıdır ki, ora da işıqsız qalmasın...

Esseni oxuduqca məndə belə bir haldan-hala düşmə məqamı yaranır. Elə bilirəm ki,oxuduqlarım məni bütünlüklə özümdən alıb harasa götürür. O götürüldüyüm yerin mənzərəsini də görürəm, mənə tanış gəlir, məni cəlb edir. Amma məni həm də qorxudur. Çünki o yerdə hər şey, hər kəs azaddır Füzulinin özü kimi. Ona görə də Kamal müəllimin bir oxucu kimi mənə aşıladığı Füzuli sözünün alt qatında mən o azadlığı yaşamağa, onunla qol-boyun olmağa başlayıram.

Məhz həmin bu məqamda da Füzuli kimi olmasa da, Füzulini anlamağa çalışan birisi kimi mən də uşaqlığımın, yeniyetmə illərimin azadlığını təkrar bu günümə qaytarıram. Çünki həmin zaman kəsiyində qayğısızlıq, sərbəstlik, hətta bir az hər şeyə, hər kəsə münasibət bildirmək, özünü buludların qoynunda hiss etmək kimi bir eyforik ömür yaşamışam. Əgər bu mənim həyatımda indi bir xatirədirsə, onda Məhəmməd adlı bir uşağın gəlibFüzuli kimi bir şair olana qədər nələrdən keçdiyinin özü mənə görə möcüzə bir ömür yaşamaqdır.

Zamanını, daha doğrusu, həmin o uşaqlıq və gənclik illərini,dostlarını, yaxın ətrafını elə həmin o qayğısızlığın qoynunda buraxıb gələn Məhəmməd - Füzuli yüksəkliyindən onlara üz tutanda, akademik Kamal Abdullanın təbirincə desək, bir zamanın şad-xürrəmliyi, azad yaşamı bizə bir həsəd yaşadır. Bütün bunlar da, yəni həsəd,həsrət, azadlıq, bir sözlə, həyatın gerçək üzü bütün dünyanın dərdlərinə könül verən, qol açan bir şairi ucaldır. Onun böyüklüyünü, əyilməzliyini tarixiləşdirir.Gerçək olan sözün özündə də ifadəsini tapır.

Və mən Məcnundan artıq aşiqliyi olanFüzulinin dünyalarca dərdi çəkmək gücünə qadir olduğuna bütün varlığımla artıq birmənalı inanıram. Və bir də akademik Kamal Abdullanın bu essesinin işığında görürəm ki,Füzulinin təəssüfünün özü də hardasa bir tərənnümdü, bir səmimi etirafdı.Yaşamın Füzuli kimi, Füzuli adlı etirafı!..

Bəli, bir tiflin cövlan etməsi , bir uşağın əylənməsi Füzuli baxışı altında, Füzuli ruhu fonunda öz adi məcrasından bir ali mərtəbəyə yüksəlir. Bu, yerlə göy arasında öz sözünü işığa çevirən Füzuli hikmətidir, Füzuli qüdrətidir. Ona sonsuz sayğılar!Akademik Kamal Abdullaya isə məni Füzulidərslərinə yönəltdiyi üçün təşəkkür edirəm.

Aqil Abbasın 70 yaşı... və yeni povesti

Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

Aqil Abbas "Ədalət" qəzetində yeni bir povestini dərc etdirib: "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına". Amma mən istəyirəm söhbətə yazıçının özündən başlayım. Çünki aprelin 1-də onun 70 yaşı tamam olur, bu fürsəti əldən buraxmaq istəmirəm, həm də özü deyir ki, "mənə bir yazıçı kimi sən yaxşı bələdsən, ilk hekayəmdən son povestimə qədər nə çıxıbsa, oxumusan".

Cavanlığından-tələbəlik illərindən tanıdığım, dostluq etdiyim Aqil Abbas doğrudan da aprelin 1-də - dünyanın yalan günündə Ağcabədidə anadan olub. Aprelin 1-i guya yalan, aldanıb-aldatmaq günü olsa da, bu 70 ildə Aqilin həyatı, yazıçı və jurnalist ömrü bütün yalanların üstündən xətt çəkib. Aqil düz xətt boyunca ağır addımlarla irəliyəyib, öz 70 yaşına doğru yüyürüb. Mənim yaddaşıma Aqil Abbasla bağlı çox hadisələr həkk olub, onları mən xatirəyə çevirmək istəmirəm. Çünki mənim fikrimcə, xatirəni o adam haqqında danışarlar ki, ya özü bu dünyada yoxdu, ya da qocalıb, əldən düşüb. Amma Aqil Abbasın, maşallah, cavanlığındakı kimi indi də elə gur, qaynar vaxtıdı. Yalan olmasın, indi hara boylanıramsa, Aqil Abbası görürəm. Televiziya verilişlərində, nədən danışır-danışsın, yaxşı danışır. Məbuatda, nədən yazırsa-yazsın, haqqı, ədaləti müdafiə edir, bəzən kimlərisə sancır da. Milli Məclisdə ən mühüm məsələlər müzakirə ediləndə onun da çıxışını eşidirik. Yazıçılar Birliyində və başqa-başqa ədəbi tədbirlər keçirilən təşkilatlarda o da öz sözünü deyir. Və ən başlıcası, Qarabağdan söhbət düşəndə mən Ağdamı, Şuşanı, Ağcabədini, Qədiri, Rəmişi, Qarabağ müharibəsində şəhid olan qəhrəmanlarımızı və bir də Aqil Abbası xatırlayıram. Çünki Aqil Abbas Qarabağla, onun keçmişi və indisi ilə ən çox bağlı olan və mənim fikrimcə, danışığından, o bölgəyə məxsus koloritindən, yumorundan, "Segah" və "Qarabağ şikəstəsi" üstündə köklənən muğam sevgisindən bəlli olan bir adamdır. Bir insan bütün Qarabağı öz varlığında yaşada bilərmi: belə adamların sayı çoxdu və Aqil Abbas da o adamların sırasında birincilərdəndir.

Aqil Abbas niyə yazıçı oldu? Mən belə uşaq-muşaq sualını Aqilə də vermərəm, özümə də. Dahi Füzulinin bir qəzəlində deyilir ki:

"Əzəl katibləri üşşaq
bəxtin qarə yazmışlar"

Yəni Allahın katibləri aşiqlərin bəxtin yazanda onlara bəxtsizlik taleyi bəxş ediblər. Aqil Abbasın taleyini də Allah yazıb. Baxıb görüb ki, bu cavan oğlanda istedad var, onun müşahidə qabiliyyəti güclüdür, sırf həyatın içindədir, tanıdığı, gördüyü insanları bədii obrazlara çevirə bilir. Ona görə də əzəl katiblərinə əmr verib ki, bu xilqətə bir qələm verin, bir da ağ kağız, yazsın-yaratsın.

Aqil Abbas əksər yazarlara məxsus tərzdə yaradıcılığına şeirlə başlayıb, onun şeirlərini mən də oxumuşam, davam etdirsəydi, sizi inandırım ki, indi tanınmış bir şair olardı. Amma Aqil Abbas şair yox, nasir və publisist oldu. Özü də yüksək səviyyədə.

Doxsanıncı illərə qədər Aqil Abbas "Evləri köndələn yar", "Xoşbəxt", "Batmanqılınc" povestlərini qələmə aldı. Və öz yaşıdları arasında seçilə bildi. Vurğunu olduğu Qədir Rüstəmovdan bir povest ərsəyə gətirdi, gənclik duyğularından ayrı bir povest qələmə aldı, XVIII əsr Qarabağın tarixi-etnoqrafk mənzərəsini əks etdirən povesti də maraqlı idi. Və bir sıra hekayələr də yazdı, imzasını hekayəçi kimi də təsdiqlədi. "Elm və həyat" jurnalında, "Sovet kəndi" qəzetində bir publisist kimi xeyli təcrübə qazandı. 90-cı illərin əvvəllərində "Ədalət" qəzetinə rəhbərlik etməyə başladı. "Ədalət" qəzeti həm məzmununa görə, həm də qəzetçilik prinsiplərinə görə müsəqillik dövrünün mahiyyətini ifadə edən ilk qəzetlərdən biri oldu. Bu qəzet sözün həqiqi mənasında Aqil Abbasın özünə oxşayır, sözü həm ciddi, həm də ironiya, yumor və satirik çalarlarla ifadə etmək mənasında "Ədalət" indi də sevilən, oxunan nəşrlərdən biridir. Aqilin "Köşə yazıları" böyük Mirzə Cəlilin, "Molla Nəsrəddin" jurnalı ənənələrinin davamı hesab oluna bilər, Aqil Abbasın bir yazıçı kimi daha da şöhrətlənməsi, öz geniş oxucu auditoriyasını yaratması 2000-ci illərdən başlayır. "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" povestini və "Dolu" romanı nəinki Aqil Abbas yaradıcılığında, ümumən bizim müasir nəsrdə ciddi uğurlar sırasındadır. Povesti Qarabağ həqiqətini mükəmməl bir süjet daxilində oxuculara aşılayır. "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" povesti Qarabağ müharibəsi haqqında birtərəfli, səthi, yanlış təsəvvürləri aradan qaldırır. O, "Qarabağı necə xilas etmək olar" sualına cavab verərkən, igid bir sərkərdənin, yaxud qəhrəman bir döyüşçünün həyat yolunu deyil, müharibənin bütün ağırlığını, dəhşətini yaşayan bir insanın taleyini əks etdirməklə buna nail olur. Yəni demək istəyir ki, Qarabağı o zaman xilas etmək olar ki, minlərlə, onminlərlə, yüzminlərlə azərbaycanlının fikri Müəllim kimi eyni hədəfə vursun.

Aqil Abbasın "Dolu" romanına və bu əsər əsasında çəkilən bədii filmə gəldikdə isə... Son iyirmi ildə Qarabağ mövzusuna həsr olunan ən sanballı əsərlərdən biridir. Mən hörmətli həmkarım Nizami Cəfərovun bu fikriylə razıyam ki: "Dolu" ədəbiyyatımızın yeni "Qarabağnamə"sidir. "Dolu" romanı qədər həqiqətən dolu və əhatəli əsər oxumamışam. Mənim zənnimcə, bu, ilk növbədə, onunla bağlıdır ki, Aqil Abbas ümumiyyətlə Qarabağ bölgəsinin ictimai-siyasi, sosial, coğrafi mühitini çox gözəl bilir, insanları yaxşı tanıyır".

Bəs polkovniki kim öldürdü? Aqil Abbasın "Allahı qatil edənlər" romanı da var. Bu roman haqqında "525-ci qəzet"in 2015-ci il 15 may sayında bir yazı ilə çıxış etmişəm. Ona görə də qısaca deyim ki, romanda Aqil Abbas cəsarətlə içimizdəki mənfi halları qabardır, qəhrəmanlıqla antiqəhrəmanlığı qarşı-qarşıya qoyur.

Mən Aqil Abbası dramaturq kimi heç təsəvvürümə gətirməmişəm. Amma sən demə, onun içində bir dramaturq da mürgüləyirmiş və Aqil, Mirzə Cəlilin "Ölülər" komediyasından ruhlanıb, özünün "Ölülər"ini yazdı. Mirzə Cəlilin "Ölülər" komediyasının süjetini, oradakı məlum vaqiəni yeni variantda işləyən Aqil Abbas müasir dövrün həqiqətlərini qələmə alıb. Şeyx Nəsrullahın "marşrutu" Xorasandan başlamışdı və bir müsəlman kəndini seçmişdi ki, avam camaatın başını piyləsin, onları cənnət və cəhənnəm haqqında cəfəng xülyalarına inandırsın, hər gecə bir azyaşlı qız uşağının gələcəyini qaraltsın. Aqilin "Ölülər"ində isə cənab Tasye Fransadan gəlib, çadır şəhərciyinə yol alıb ki, ATƏT adından sadəlövh qaçqınları inandırsın ki, Avropanın güclü dövlətləri Azərbaycanın Qarabağ dərdinə şərikdir. Mirzə Cəlilin "Ölülər"ində olduğu kimi, cənab Tasye də yalanlarının üstünün açılacağını görüb qaçır.

Və Aqilin pyesi də İskəndərin monoloqu ilə bitir: "Siz bunların ayağının altında qurbanlar kəsməklə, ciblərini doldurmaqla elə bilirsiniz ATƏT-in tulaları Qarabağı ermənilərdən alıb verəcəklər sizə?"

Nəhayət, bu yazıda vaxt-vədə yetişdi, istəyirəm Aqil Abbasın "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına..." adlı, hələlik sonuncu povestindən də söz açım. Aqil bu povesti Abdal-Gülablı Şakirin xatirəsinə həsr edib. Aqilin öz roman, povest və hekayələrində əksər hallarda onun qəhrəmanları özünün yaxşı tanıdığı insanlardır. Abdal-Gülablı Şakir də öz məzəsi, zarafatları və çaldığı qarmonu ilə birgə Aqilin povestinə gəlir. Aqil özündən - öz bədii təxəyyülündən heç bir uydurma obraz yaratmır, Abdal-Gülablı Şakiri necə varsa, eləcə təsvir edir. Amma təbii ki, Aqil Abbas qələmi ilə.

Povesti oxuyursan və ilk növbədə, onun üslubunu - deyim tərzini müəyyənləşdirmək istəyirsən. Şakirin hərəkətləri səndə gülüş doğurur, Qarabağda belə şux zarafatları, məzəsi ilə, həm də sözünün kəsəri ilə diqqəti cəlb edən adamlar çox olub. Şakir də onlardan biri və Aqil Abbasa məxsus olan yumor səriştəsi burada birə beş hərəkətdədir. Amma əsərdə gülüşlə yanaşı, faciə məqamları ilə də üz-üzə gəlirsən. Əsərdə təsvir olunan hadisələrin zamanı və məkanı səni doxsanıncı illərə çəkib aparır. Birinci Qarabağ müharibəsindəki ağır illər, qaçqınlıq, köçkünlük həyatı, kəndlərini tərk edib Bakıdakı yataqxanalara sığınan insanların keçirdiyi əzablar... Bütün bunlar indi arxada-ötən illərdə qalsa da, heç vaxt unudulmur. Povestdə biz Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Rəmiş, elə Aqil Abbasın özü ilə bağlı epizodlara da rast gəlirik. Təbii ki, olan əhvalatlardı.

Şakir obrazı ilə Aqil Abbas təkcə deyib-gülən, zarafatları ilə hamıya gülüş bəxş edən bir obraz - özü də naturadan gələn obraz yaratmayıb, həm də mükəmməl bir qarabağlı obrazı canlandırıb. Əsəri siz də oxuyun və görəcəksiniz ki, əsl qarabağlı necə olur. Şakir Bakıdakı, özünün olmayan evində - yataqxanada sıxılır, ürəyi həmişə Qarabağa doğru uçur və günlərin birində həyat yoldaşını da götürüb yola düşür Qarabağa. "Saa qurban olum, Qarabağ havası". Vaxtilə erməni Suren Şakirə öz minik maşınını vermişdi və Şakir həmişə o maşında erməni iyini hiss edir, sonda o maşını yandırır. Amma "Qarabağdan hələ erməni iyi gəlirdi. Gün gələcəkdi, məktəbdə qız üstə dalaşan oğlanlar heç üstündə dalaşdıqları qızları öpməmiş əsgər paltarı geyəcəkdilər, analarının müqəddəs bətnində mışıl-mışıl yatan balalar doğulacaqlı, özlərindən əvvəl doğulanlar kimi, analarının döşündən Vətən əməcəkdilər, sonra da böyüyüb kişi olacaqdılar və gedəcəkdilər Qarabağdan erməni iyini təmizləməyə". Əsər belə nikbin bir sonluqla bitir.

Aqil Abbas yetmiş yaşına çatır. Yazıçı və əsl ziyalı kimi hələ görəcəyi çox işlər, yazacağı çox əsərlər var. Bu yolda ona uğurlar!

Xan qızı ilə sonuncu görüşən xanım

Kişi qeyrətli, gözəl, məsum Saray xanım Cərgiz peyğəmbərin türbəsini tikdirən Mirhəsən ağanın qızı idi. Mirhəsən ağa türbəni aşıqlı (Beyləqanda kənd, camaat) Hacıqulu kişinin köməyi ilə tikdirib... Saray xanım da atası kimi xeyirxah, haqqın, ədalətin keşiyində sayıq dayanan, kasıb və sadə insanların yaxın dostu olan bir insan idi. O, həmişə ehtiyacı olanların əlindən tutur, kömək göstərirdi. Heç kimin xətrinə dəyməyən, insanpərvər, xoşqılıqlı bir qadın olan Saray xanımın necə təmiz, pak insan adını qürur və şərəflə daşıyan bir xanım olduğu təkcə Beyləqanda deyil, bütün Qarabağda səs salmışdı. Saray xanım xan qızı Natəvanla yaxından tanış, rəfiqə olmuş, aralarında qarşılıqlı hörmət, izzət, etibar və bir-birinə yaxından bağlılığın nəticəsi olan sadiqlik mövcud olmuşdur.

... 1895-ci ilin mart ayının ilk günləri idi. Örənqalada qışlamaq üçün məskunlaşan Xalac obası çox sərt keçən qışın qarından, çovğun-boranından heyvanları qorumuş, yaza itkisiz, salamat çıxmışdı. Artıq yazın ilıq nəfəsi ətrafı bürüsə də, bir neçə gün idi ki, havadan rütubət, nəmişlik əl çəkmirdi. Uzun illər qoyunçuluqla məşğul olan təcrübəli, dünyagörmüş çobanlar ilin göylü, otlu olacağını deyir, oba dağa köçənə qədər örüşlərdə təzə, tər otların artıq dizə çıxacağını söyləyirdilər. Havaların bu cür keçməsi buna bir işarə idi. İlin bərəkətli olması süfrədə ləzzətli, dadlı əmlik quzu soyutmasının, süd məhsulları - bulama, təzə pendirin, yağın, qaymağın bol olacağından xəbər verirdi. Həm də şirin, dadlı dombalanın çox olacağını göstərən havalar yavaş-yavaş qızmağa başlayırdı.

Göy üzünü tala-tala bulud almışdı. Boz ay özünü, boz üzünü açıq göstərirdi. Göy gah qızarır, gah da boz rəng alırdı. Qış dəyələrində ocaq üçün gərmə qalağının qurulmasına hələ də ehtiyac var idi. Obada toran qovuşur, axşam düşürdü. "Xan qızı arx"ı tərəfdən gələn çapar söylədi ki, Natəvan xanım oğlu Mehdiqulu xan və onları müşayiət edən dəstə Novruz bayramından on gün sonra Cərgis peyğəmbərin qəbrini ziyarət etməyə gələcəklər. Natəvan xanım xəstə olduğuna görə, ona məsləhət görüblər ki, müqəddəs ocağı ziyarət edib ondan şəfa diləsin.

Natəvanın Beyləqana gələcəyindən ən çox sevinən obanın qənirsiz gözəli, Seyid Mirhəsən ağanın qızı Saray xanım idi. O, yaxşı bilirdi ki, Natəvan müqəddəs ocağın ətrafında qurulacaq bərli-bəzəkli dəyələrdə yox, elin tanınıb-seçilən adamı Məmo bəyin muxrusunda məskən salacaq. Məmo bəy ilxısını, dəvəsini bir yerə toplayıb başına toplaşanlara üz tutdu:

- Şuşadan hörmətli qonaqlar gələcək, içində də Xan qızı və oğlu Mehdiqulu xan olacaq. Ortalığı, küzü və qaytabanı kürüyüb yaxşıca təmizləyin, hər tərəfdə təmizlik işləri aparıb, əməlli-başlı səliqə-sahman yaradın. Qadınlar dəyələrin qapılarını süpürüb genişləndirsin. Müqəddəs ocağın ətrafında beş dəyə qurulacaq, obada isə böyük, geniş alaçıq düzəldəcəyik.

... Məmo bəyin atlı dəstəsi Şuşadan gələn qonaqları qarşılamaq üçün deyilən vaxtda yola çıxdı. Şuşalıları "Xan qızı arx"ının qırağındakı hamar, torpaq yolda çox da gözləmədilər. Şuşadan gələnlər günortadan xeyli keçmiş Məmo bəyin atlılarına yaxınlaşdılar. Natəvan və Mehdiqulu xan faytonda yanaşı əyləşmişdilər, arxalarında isə qaravaşın başı görünürdü. Faytonun qabağında Sərçegöz ləqəbli Abbas "Ceyranbasar" adlı ingilis yəhərli, Qarabağ cinsindən olan atın belində şəstlə oturmuşdu. Faytonu müşayiət edənlər isə silahlı kişilər idi. Natəvanın başına örtdüyü saçaqlı tirmə şalın altından qızıl papağın qabaqlığı bərq vururdu.

Natəvan xəstə, uzun yol yorğunu olsa da, göy otlaqlara, yamyaşıl yamaclara, "Xan qızı arx"ına qədər baş alıb gedən Yorğan dərəsini seyr etdikcə yaxşılaşır, eyni açılırdı .

Məmo bəyin atlıları qonaqları müqəddəs ocağın ətrafında qurulmuş çadırlara gətirdilər. Şuşadan əziz qonaqların, Natəvanla Mehdiqulu xanın gəldiyini eşidib bilən yaxın obaların kişi və qadınları hamısı görüşə tələsirdilər. Onlar da ziyarət mərasimində iştirak edib bir ağızdan "Allah şəfa versin, ya peyğəmbər, səxavətini əskik etmə" deyəcəkdilər.

Qonaqlar və görüşə gələnlər də dəyələrdə yerləşdirilmişdi. Geniş çay süfrəsi açıldı. Natəvan, Mehdiqulu xan, Məmo bəy şirniyyatla dolu süfrələrdə iri, sarı mis samovarın mixəkli, hilli, darçınlı çayından içə-içə şirin söhbət edirdilər.

Süfrəyə hər adam üçün ayrıca iri boşqablarda xub bişmiş bozartma qoyuldu. Natəvan acıtmalı çörəklə ona çəkilən payın hamısını iştahla yedi. Adamlar süfrədən əl çəkəndə "Allah qurbanlarınızı qəbul eləsin" deyirdilər. Yaxın obaların camaatı Natəvanla, Mehdiqulu xanla xudahafizləşib öz obalarına sarı üz tutandan sonra Xan qızı oğluna pıçıltı ilə dedi:

- Sabah da, birisi gün də bizə qurulan bu dəyələrdə qalarsınız. Mən gecələmək üçün bacım Saray xanımgilə gedəcəyəm. Məndən ötrü narahat olmayın, obada geniş alaçıq qurublar.

Natəvan qulluqçusu, qaravaşı ilə faytona əyləşib Məmo bəyin atlı dəstəsinin nəzarəti altında Örənqalaya getdilər. Məmo bəy Mehdiqulu xanla müqəddəs ocağın yanında şuşalı qonaqlar üçün hazırlanmış dəyədə qaldılar. Natəvanın gəlişini səbirsizliklə gözləyən obanın qızgəlinləri dəyələrin ağzını, yanlarını süpürüb təmizləmişdilər. "Xan qızı arx"ından səhənglərlə, güyümlərlə sudan daşıyıb, toz olmasın deyə hər yerə su səpmişdilər. Özlərinə, üst-başlarına səliqə-sahman salan, əyinlərinə qanuz tuman, əsmə kofta, başlarına "qonşupartdadan" deyilən qırmızı şal örtən, incə bellərinə gümüş toqqa vuran, qırmızı almayanaqlı oba qız-gəlinləri yeni qurulan alaçığın yanına yığışıb intizarla Natəvanın yolunu gözləyirdilər.

Obanın hər tərəfini diqqətlə nəzərdən keçirən Natəvanın gözləri qız-gəlinlər arasında Saray xanımı arayırdı. Qaravaşa "bura çox şənliklidir, könül oxşayan məkandır" deyirdi. Natəvanın gözü boyu uzun, qızıl papaqlı, qızıl toqqalı, yumru qızıl sırğa taxmış, toppuş biləyinə qızıldan qolbaq vurmuş, boynuna saçaqları da qızıldan olan və sinəsinə qədər uzanaraq bərq vuran, zərli paltar geymiş oba gözəlinə sataşdı. Bu Saray xanım idi. O, faytonun qabağına keçərək, Natəvana kömək edib faytondan düşürdü və onlar mehriban bacılar kimi qucaqlaşıb öpüşdülər. Obanın qız-gəlinləri Natəvanla əl tutuşub görüşdülər. "Xoş gəlmisən, Allah ziyarətini qəbul eləsin, bu dəfəki gəlişin də bizim üçün toy-bayramdır" - dedilər.

Saray xanım Xan qızını muxruya dəvət etdi. Muxru geniş və rahat idi. Alaçığın çubuqlarının burnu evin ortasındakı dəyirmi çoşquya bağlanmışdı ki, muxru-alaçıq yaxşı görünsün. Daram çəkilmiş zəncirlər ortadakı uzun mıxa elə bağlanmışdı ki, muxru daha hündür və yaraşıqlı görünürdü. Alaçığın üstünə Həllac Vəlinin uşaqlarına möhkəm təpiklətdirib sıx hazırlanan göy, qırmızı naxışlı ağ keçə salınmışdı. İçəriyə isə keçə, palaz döşənmişdi. Divarlardan at naxışlı, dəvə qatarı təsvir olunan gəbələr asılmışdı. Yan tərəflərdən bütün muxrunu əhatə edən və qapıya qədər çatan çətən tutulmuşdu. Çətənin üstünə qalın çit parça çəkilmişdi.

Gün yenicə qürub etmişdi. Obada qoyun-quzu mələşməsi, quzuları küzə salmaq istəyən çobanların hay-həşiri, atların kişnərtisi, itlərin xeyli kənardan keçən, başqa obadan olan "yad" adamlara hürməsi aranı qarışdırırdı. Alaçığın yanında qurulmuş dəyədə şam yeməyi hazırlamaq istəyən qadın Saray xanıma yaxınlaşıb soruşdu:

- Xanım, şam yeməyinə nə hazırlayaq?

Saray xanım onu xeyli kənara, alaçığın arxa tərəfinə çəkib dedi:

- Ay qız, mən Şuşada dəfələrlə Natəvanın evində olmuşam. Dəm-dəsgahlı, eyvanlı-məcərli evdir. Top vursan dağılmaz. Evin yanında çox səliqə ilə salınmış hər cür meyvə ağacı, gül əkilmiş bağça var ki, orada gül gülü, bülbül bülbülü çağırır. Bağın da, evin də otaqlarının səliqə-sahmanına söz ola bilməz.

Bax, təzə süfrə, stəkan-nəlbəki, boşqab, çaynik, güllü padnos, qənddan gətirin. Şirniyyatı, şəkər, nabatı, noğlu, rəngli yumru şirnini, şirin kökəni bol edin. Şam yeməyinə çox diqqətlə yanaşın. Süfrələrdə quzu soyutması, bağırbeyin, kişmişli canınaçəkmə, plov, dovğa qoyun. Həm də təzə pendir, çiyə, böyründə tuluq yağı, kətə, fəsəli, qaymaq, üstündə də beçə balı. Qoy hansı təamı xoşlayır, iştahı çəkir ondan da yesin. Çörəyin də çeşidi müxtəlif olsun: yuxa, fətir, lavaş, acıtmalı, təndir çörəyi.

Saray xanımla Natəvan alaçığın yuxarı başında əyləşmişdilər. Qaravaş və obanın qız-gəlinlərindən bir neçəsi isə çoşküdən aşağıda. Çay süfrəsi də, şam yeməyi də Saray xanım deyən kimi oldu. Natəvan öz-özünə məəttəl qalmışdı: bu bəy alaçığı, bu geniş düzənl

Azərbaycançılıq ideyasının təbliği – "Heydər Əliyev İli"

№ 11 (2335) 17 mart 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Heydər Əliyev - 100

Heydər Əliyev və kimya sənayemiz

Heydər Əliyevin əməyini danmaq istəyənlərə bildirmək istəyirəm ki, məhz onun təşəbbüsü ilə o vaxtkı SSRİ-də parafindən sulfanol istehsalatı ilk dəfə Sumqayıtda yaranıb, onun istehsal gücü artırılıb. Diafraqma üsullu xlor və kaustik soda istehsalatı yaradılıb. İki elektroliz istehsalatı tikilib, biri yenidən qurulub.

1981-ci ildə Heydər Əliyevin yaxından qayğısı və təşəbbüsü ilə İtaliya avadanlığı və texnologiyası ilə Sumqayıtda alkilbenzol istehsalatının tikintisinə başlandı. Bir sıra xarici ölkələrin avadanlıqlarından quraşdırılan bu istehsalat nəinki respublikamızın, habelə o vaxtkı İttifaqın da həyatında mühüm hadisə idi. Səbəbi də o idi ki, illik gücü 75 min ton olan bu istehsalat o vaxtkı İttifaqın əhalisini yüksək keyfiyyətli yuyucu tozlarla təmin etməyə imkan verirdi. Amma çox keçmədi Heydər Əliyev Moskvada işləməyə dəvət olundu, bu istehsalatın da tikintisi unuduldu. Onu ancaq 1994-cü ildə istismara verə bildik.

Məlumdur ki, Heydər Əliyev cənabları kimyaçı deyil.Amma onun kimya elminin müxtəlif sahələrinin (neft kimyası, üzvi kimya, qeyri-üzvi və xlorlu üzvi kimya, elektrokimya, poliefirləşmə üsulları və sair) inkişafına bu dərəcədə qayğıkeşlik və təəssübkeşliklə yanaşması göstərir ki, bu sahəni də düzgün istiqamətləndirməyi uzaqgörənliklə bacarır. Kimya sənayesini yüksək səviyyəli kimya mütəxəssisi qədər bilirdi.

Zaqafqaziyada fosfor gübrəsi istehsal edən yeganə müəssisə "Superfosfat" zavodu da Heydər Əliyev cənablarının təşəbbüsü ilə 1970-80-ci illərdə genişləndirilmiş, burada yeni istehsal sahələri yaradılmışdır. Məsələn, 1973-cü ildə bu zavodda bor manqanlı yeni növ gübrə istehsalına başlanmış, 1975-ci ildə isə ikipilləli kontaktlaşma metodu ilə işləyən sulfat turşusu istehsalatı istismara verilmişdir. Görülən tədbirlər nəticəsində həmin illərdə sulfat turşusu istehsalı 10, mineral gübrə istehsalı isə 30 dəfədən çox artmışdı. Bəli, məhz Heydər Əliyevin gördüyü tədbirlər nəticəsində bir vaxtlar bu zavod ildə bir milyon tondan artıq mineral gübrə, 600 min ton sulfat turşusu istehsal edirdi. Məhz bunun hesabına vaxtilə respublikamızın kənd təsərrüfatında yüksək göstəricilər əldə olunurdu. Heydər Əliyevin 1978-ci ildə bu müəssisəyə gəlişi bir sıra problemlərin həllinə böyük kömək etmişdir.

Sumqayıtdakı "Etilen-Polietilen" zavodu ümumiyyətlə kimya sənayesinin inkişafı üçün əsas xammal bazasıdır. Çoxları bilmir ki, bu zavoddakı "EP-300" qurğusunun vaxtilə Azərbaycanda tikilməsi bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə, onun sayəsində mümkün olmuşdur. Bu gün respublikamızın kimya sənayesinin inkişafını bu qurğusuz təsəvvür etmək mümkün deyil. Heydər Əliyev cənabları bu günkü vəziyyətimizi təxminən 50 il bundan qabaq görürdü. SSRİ-nin o vaxtkı rəhbərləri Sumqayıtda EP-60 istehsalatları ola-ola EP-300 istehsalatının tikilməsinə razı deyildilər. Heydər Əliyev sübut edib onları razı saldı ki, bu qurğu Sumqayıt Kimya Kompleksinin inkişafının lokomotivi rolunu oynayacaq və SSRİ-ni müasir kimya məhsulları ilə təmin edəcək.

Onu da qeyd etmək lazımdır ki, o qurğunun tam gücü ilə işləyə bilməsi üçün lazım olan 1 mln ton birbaşa qovulmuş benzinin alınması üçün Bakıda ikinci ElOU-avt qurğusu tikildi və Mazdok Bakı neft kəməri çəkildi. Bu xətt ilə ölkəmizə ildə 10 mln ton Qərbi Sibir nefti daxil olur, Bakıda ELOU-avt-də emal olunur, 1 mln ton birbaşa qovulmuş benzin borularla Sumqayıta verilirdi.

Məlumdur ki, XX əsrin sonlarında Sumqayıtda olan İstilik Elektrik stansiyaları mənəvi və fiziki cəhətcə köhnəldikləri üçün onlardan alınan istilik və elektrik enerjilərinin qiyməti yüksək olurdu. Enerji təminatında kimya müəssisələrində fasilələr yaranırdı. 1 kvt elektrik enerjisinə 400q mazut sərf edilirdi. Yanacağa qənaət etmək, yaxud sərfiyyat normalarına riayət etmək mümkün olmurdu. Ona görə də müəssisələrə verilən istilik və elektrik enerjilərinin qiyməti yüksək olurdu.

Enerji sistemlərində yaranan fasilələr kimya müəssisələrinə çox ziyan verirdi. Belə ki, müəssisə dayananda sistemlər avtomatik olaraq boşalır, məhsul keyfiyyətsiz olur. Ətraf mühit çirklənirdi. Kimya müəssisələrinin əsasən də EP-300 qurğusunun enerjilərlə müntəzəm fasilələrsiz, reqlamentlərə uyğun göstəricilərlə təmin olunması zərurəti yaranmışdır. Enerji təchizatında olan fasilələr EP-300 üçün ona görə yolverilməz idi ki, o qurğuda təzyiq 0 atm.40 atm. temperatur -110 +10000C rejimində işləyirdi. Hər hansı bir fasilə həm çox təhlükəli idi, həm də çoxlu ziyan verirdi. Bunları möhtərəm Prezidentimiz Heydər Əliyevə deyəndən sonra o bizim yeni Buxar-generator qurğusu tikmək təklifimizi bəyəndi və Yaponiya ilə işləməyə başladıq. Yaponiyanın Niçimen şirkəti ilə müqavilə bağlandı və cənab Prezidentimizin Yaponiyaya səfəri zamanı Yaponiyanın Eksim bankı ilə kredit alınması məsələsi həll olundu. Beləliklə, Sumqayıtda "Etilen

Polietilen" zavodunda buxara görə gücü 480 t/saat, temperaturu 510 0C. Elektrik enerjisinə görə 27 mVt olan buxar generator qurğusunun tikintisinə başlandı. Qurğunun təməlqoyma mərasimində möhtərəm Prezidentimiz özü iştirak etdi, özülə birinci betonu tökdü. Qurğu 2 ilə tikilib istifadəyə verildi. Qurğunu möhtərəm Heydər Əliyev işə saldı. Bununla da Etilen Polietilen, Sintez kauçuk zavodlarının enerji problemləri aradan qaldırıldı. Qeyd etmək lazımdır ki, o qurğuda 1 kvt enerjiyə 127 q şərti yanacaq sərf olunurdu. Baxmayaraq ki, sonralar ölkəmizdə bir çox istilik elektrik stansiyaları tikilib, o göstəricilərə malik qurğu yoxdur. Bu güc möhtərəm Prezidentimizin dahiliyinin, uzaqgörənliyinin təzahürü idi. Əgər o qurğu o vaxt tikilib istifadəyə verilməsə idi, indi nə Etilen - Propilen zavodu, nə də Sokar polimerin, polietilen, polipropilen istehsalatları yox idi. Dahilik, uzaqgörənlik budur.

Bu da təsadüfi deyildir ki, bu qurğunun yenidən qurulması layihəsinin maliyyələşdirilməsi üçün Yaponiyanın "Eksimbank"-ının ayırdığı kredit də şəxsən Möhtərəm Prezidentimizin təşəbbüsünün nəticəsidir. Biz kimyaçılar bu qayğı üçün prezidentimizə minnətdarlığımızı bildirməklə yanaşı, həm də bu işin nə dərəcədə məsuliyyətli olduğunu dərk edirik. Xarici investorların ayırdığı kreditə ilk dəfədir ki, Azərbaycan hökuməti zəmanət verir. Bu etimadı doğrultmaq isə kimyaçıların şərəf işidir. Möhtərəm Prezidentimizin qayğısı ilə kimya sənayesi ikinci həyatının ilk günlərini yaşamağa başladı.

EP-300 qurğusunun normal işləyə bilməsi üçün bütün şəraitlər yaradılandan sonra, Etilenin sərfinin məsələsi həll olunmalı idi, yəni təzə istehsalatlar tikilməli idi. Ona görə də "Polietilen" zavodunda yeni Borulu (Boru üsullu) polietilen istehsalı tikilməsi zərurəti yarandı. Burada da bir problem ortaya çıxdı ki, onu dünyada Heydər Əliyevdən başqa heç kim həll edə bilməzdi. Çünki o qurğuya çoxlu vəsait lazım idi və o qurğunun Anqarsk neft-Orq sintez istehsalat birliyinin tikilməsi üçün Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun qərarı var idi. Onun Sumqayıtda tikilməsi üçün büronun qərarı dəyişilməli idi. Buna da heç kəs razılıq vermirdi. Dahi Heydər Əliyev Siyasi Büronun üzvlərinə sübut edə bildi ki, bu qurğu birinci növbədə Anqarskda yox Sumqayıtda tikilməlidir və Rəyasət Heyəti öz qərarını dəyişdirdi.

Heydər Əliyev cənablarının böyük uzaqgörənliyinin nəticəsidir ki, respublikamızın müxtəlif regionlarındakı mövcud kimya müəssisələrinin inkişafına və yaxud yenilərinin yaradılmasına böyük qayğı ilə yanaşılmışdır.

1972-ci ildə istifadəyə verilmiş "Salyan Plastik Kütlə Emalı" zavodu o vaxtkı İttifaqda orta təzyiqli polietilendən boru hazırlamaq texnologiyasına yiyələnən ilk müəssisə idi. İldə 12-13 min ton polietilen örtük, 5min tona yaxın polietilen borular istehsal etmək imkanını biz Heydər Əliyevin qayğısı sayəsində əldə edə bilmişdik. Çünki xarici avadanlıqlar alınmadan bu işləri yerinə yetirmək mümkün olmazdı. Bunu da izah etməyə ehtiyac yoxdur ki, həmin zavodun məhsullarından istifadə etməklə respublikamızda kənd təsərrüfatı sahəsində də məhsuldarlığı artırmağa imkan yaranmışdı. Eyni sözləri kimya kompleksinin Mingəçevir şəhərində yerləşən müəssisələri haqqında da demək olar. Onlar da məhz Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə yenidən qurulmuş, yeni potensial sahələri yaradılmışdır. 1980-ci ildəki texniki iqtisadi göstəricilərinə görə buradakı rezin-texniki məmulatlar zavodunun istehsal etdiyi məhsulları satmaqla Mingəçevir şəhərinin əhalisini bir illik taxılla təmin etmək olardı. Və yaxud "Azərizolit" zavodunda xüsusi reseptlə hazırlanan plastik borularının dünya üzrə analoqu indinin özündə də çox azdır. Bunlar hamısı tarixi faktlardır. Və hər bir azərbaycanlı onları nəinki bilməli, həm də qürur hissi ilə xatırlamalıdır.

Kimya kompleksinin ilk müəssisələrindən sayılan Bakı Yod (1944) və neftçala Yod-brom (1932-ci ildə) zavodları çoxdan istifadəyə verilsələr də, onların hər ikisi sonrakı illərdə genişləndirilmişdir. Bakı Yod zavodu o vaxtkı İttifaqda buruq sularından yod istehsal edən ilk müəssisə idi. Burada texniki yod, kalium yodid, təmiz yod və kristal yod istehsal olunur.

1975-ci ildə görülən tədbirlər nəticəsində Bakı Yod zavodunda məhsul istehsalının həcmi bir neçə dəfə artırılmış, 1976-cı ildə isə burada təcrübə-sənaye qurğusunun tikintisinə başlanmışdır. O ki, qaldı Neftçala Yod-brom zavoduna, əvvəllər təcrübə qurğusu, sonra kiçik zavod kimi fəaliyyət göstərən bu müəssisədə 1981-ci ildə yod-brom istehsalı 1959-cu ildəkinə nisbətən iki dəfə artırılmış və əvvəlki zavoddan istehsal gücü dörd dəfə çox olan indiki zavod tikilib istifadəyə verilmişdir. Xatırladaq ki, Neftçala Yod-brom zavodu bu sahədə Avropada ən iri müəssisələrdən biri sayılır.

Azərbaycanın tarixi məhz belə işlərlə zəngin sayıla bilər. Bizim gələcək nəsillərə, həmçinin özümüzə hesabatımız siyasi partiyaların sayı və onların bəyanatları ilə ölçüləməyəcək, ölçülə də bilməz.

Əgər bu gün ölkəmizə xarici investorların marağı artırsa, iqtisadiyyatımızın inkişafı üçün sərmayə qoyanlar varsa, Xəzərin neft yataqlarının istismarı ilə əlaqədar dünyanın bir sıra ölkələrinin nüfuzlu neft şirkətləri ilə birgə əməkdaşlıq edirlərsə, bu, möhtərəm prezidentimizin apardığı müdrik daxili və xarici siyasətin nəticəsidir. Respublikamızda yaranmış sabitliyin, əmin-amanlığın nəticəsidir. Şəxsən Prezidentimizin nüfuzundan yaranan inamın nəticəsidir.

Heydər Əliyev cənablarının qayğısı sayəsində Bakıdakı Budyonnı, Qarayev, Frunze adına neftayırma zavodlarında köhnəlmiş qurğular bağlanaraq əvəzində müasir tipli neftayırma, neft emalı qurğuları, bir-birinin ardınca "ELOU-Avt" qurğuları və s. tikilib istifadəyə verildi. Kimya sənayesinin Bakıda yerləşən müəssisələri də Heydər Əliyev cənablarının hakimiyyəti illərində özlərinin əsas inkişaf mərhələsini yaşamışlar. Məsələn, Bakı Şin zavodunda 1969-1971-ci illərdə kecmiş SSRİ-də ilk dəfə olaraq şinlərin vulkanizasiyası üçün layihələşdirilmiş axın xətti quraşdırılmışdır. Yük və minik avtomobilləri, kənd təsərrüfatı maşınları üçün şin hazırlayan bu zavodda görülən tədbirlər respublikamızın iqtisadiyyatına güclü təsir göstərmişdir. Kimya-əczaçılıq zavodu Bakı tibb preparatları istehsal edən sexlər kimi fəaliyyətə başlasa da, 1972-ci ildən sonra onun imkanları daha da artmışdır.

Yeni quraşdırılan xarici avadanlıqlar hesabına müəssisənin istehsal gücü on dəfə, məhsulların çeşidi isə dəfələrlə artmışdır. Bunu demək kifayətdir ki, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi vaxtlarda görülən tədbirlər nəticəsində elə indinin özündə də Orta Asiya və Qafqazda bu sahədə belə böyük zavod yoxdur.

Bu gün çox böyük fərəh və məmnunluq hissi ilə deyə bilərəm ki, mərhum prezidentimiz Heydər Əliyevin işləri ölkəmizdə İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sumqayıt Polimer istehsalat birliyinin Polipropilen, aşağı təzyiqli Polietilen, Sumqayıt Karbamid zavodu, Sumqayıtdakı və ölkəmizin müxtəlif bölgələrində tikilmiş müxtəlif texnoparklar bunun əyani göstəricisidir.

Fikrət Sadıqov,
Professor

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

Uşaq bağçamızın binasını buldozera veracaklar...

Vasif Əlihüseyn

Beş yaşım var idi, onda 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə rus ordusu yüzlərlə insanı Bakıda qanına qəltan etmişdi. Nə baş verdiyini anlamasam da, televizorda göstərilənlərdən bilirdim ki, nəsə yaxşı şey baş verməyib.

Kəndimizdə uşaq bağçamız var idi. Özümdən iki yaş kiçik olan qardaşımla bağçaya gedirdik. Atam bir tikə çörək qazanmaq üçün Rusiyaya getdiyinə görə bizi bağçaya anam aparırdı. Yay aylarında bizim kəndimizdə kişisiz evlərin sayı daha çox olurdu. Çünki yayda kəndin kişiləri işləmək üçün ya paytaxt Bakıya, ya da Rusiyaya üz tuturdular. Ona görə də yay aylarında evlərin böyük uşaqları özlərini evin kişisi saydığından daha məsuliyyətli olurdular. Yeddi yaşında evin kişisi olan uşaqlardan biri də mən idim. Elə "Kəndimiz" şeirimdə yazdığım kimi:

Bu ildə qar yağdı,
Bu ildə,
İsinməyə ümüd gəzdi
kəndimiz
Aldatdılar...
Qaz da çəkmədilər
kəndimizə.
Babamdan yadigar,
"Tut" ağaclarının,
budaqlarını qırdıq,
yenə də
bacalar tüstülədi göylərə,
soyuqdan.
Ərləri xaricə
çörək dalıyca getmiş,
gəlinlər,
Bir toyuq başı kəsdirməyə,
kişi tapmadılar.
sünnət olunmamış uşaqlara,
"Bismillah" deməyi,
bir də "Qiblə"ni göstərdilər.
Beləcə hər qış,
kəndimiz neçə ağac
yandırıb
çəkdi ciyərlərinə.
Ümüdləri
bir az daha çox

qırıldı gəlinlərin
toyuq başı kəsən uşaqların
sayı artıqca.

1992 - ci ilin sentyabr ayında kənd orta məktəbinin birinci sinfinə daxil oldum. İbtidai sinif müəllimim rəhmətlik Hüseynəli müəllim həm atamın, həm rəhmətlik anamın və indi də mənim müəllimim idi. Belə müəllimlərim bir neçə nəfər idi məktəbdə: həm valideynlərimin, həm də mənim müəllimim oldular. Məktəbə getdiyimə görə qardaşım uşaq bağçasına tək getməli oldu.

Məktəbin həyətində oynayanda gördük ki, kəndimizə adam və ev əşyaları ilə dolu maşın karvanları gəlir. Nə baş verdiyini anlamadığımıza görə müəllimlərimizdən soruşduq ki, bunlar kimdi? Müəllimlərimiz dedi ki, onlar müharibənin qurbanı olan, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızdır.

Kəndimizə işğal olunmuş rayonlarımızın bir çoxundan pənah gətirən, ayağını don vuran uşaqları və qadınları bizim uşaq bağçasında yerləşdirdilər. O hadisəyə belə bir şeir yazmışam:

Ağlama, oğul!
Bu il də bağçaya
gedə bilməyəcəksən.
Şeir öyrətməyəcək sənə
qonşudakı müəllimə.
Bu il də boynunu bükəcəksən
qapı ağzındakı oturacaqda.
Yenə donduracaq səni
dondurma satan oğlanın
"dondurma var" sözləri.
Burnunu qoluna siləcəksən.
Qaçacaqsan velosiped sürən
uşaqların arxasınca.
Yenə boynunu bükəcəksən
bağça qapısında.
maşın- maşın gələn ailələri,
ayağını "don" vurmuş
tay-tuşlarını görəcəksən.

Qaçacaqsan qucağıma:
- Ata, onlar hardan gəlir?!

- Onlar ölümdən gəlirlər, oğlum!

Ondan sonra kənd uşaqlarımızın bağça arzusu da məhv oldu. Müharibə həm bizim kənd uşaqlarının, həm də öz yurd - yuvalarından didərgin düşmüş uşaqların arzusunu ürəyində qoydu. Bundan sonra kəndimizin bir çox uşaqları bağçaya gedib öz tay - tuşları ilə dostluq edirdilər. Çünki onlar yatdıqları çarpayını öz qardaş və bacılarına vermişdilər. İndi kəndimizdəki uşaq bağçasından bir çox sakinlər şəhərciklərə köçüb. Amma uşaq bağçasında kəndimizdən olan bir neçə evsiz ailələr yaşayır. Müharibə beləcə neçə - neçə uşağı şikəst elədi. Həmişə kəndimizə gedəndə uşaqlığımı xatırlayıram.

Bu gün də kəndimizdəyəm, yenə o xarabalığa çevrilən uşaq bağçamızın binasının qarşısından keçirəm. Elə bil buranı da düşmən darmadağın edib. Amma bir arzum var ki, binanı təmir etsinlər və küçədə oynayan uşaqlar bağçaya gedib şeir, dövlətimizin himnini, bayrağımızın rəngini öyrənsin.

Amma başqa sözlər eşidirəm. Dostlar deyir ki, uşaq bağçasının həyətinə göz dikənlər çoxdu. Dövlət buranı satsa, həmin gün alarlar, amma burda yaşayan ailələrə görə çarəsiz qalıblar. Axı uşaq bağçasının ərazisini satsalar, məcburdular ki, ordakı ailələri evlə təmin etsinlər. Kim bilir nə vaxtsa buranı kimsə alacaq və indi qapısız, pəncərəsiz divarlarına tamaşa etdiyim bu iki mərtəbəli uşaq bağçamızın binasını buldozerə verib yerlə-yeksan edəcəklər. Amma bircə o günü görmək istəmirəm.

"Aydınlarımız toy müğənnisi kimi yaşamaq istəyirlər"

Ədəbiyyat incəsənətin digər qolları ilə sıx təmasda olmalıdır.Filmlə, musiqilə, rəssamlıqla və s. Azərbaycanda bu vəhdət Sovet dövründə var idi. Müstəqillik dövründə bu bağın qırılmasını nə ilə əlaqələndirirsən? Bu ədəbiyyatın axsaqlığıdır, yoxsa?

"Ədalət" qəzeti bu mövzu ilə bağlı yazıçılar arasında sorğu keçirib.

"Sovet dövrünün bu ənənəsi çox yaxşı idi"

Yazıçı Şərif Ağayarın sözlərinə görə, Sovet dövrünün bu ənənəsi çox yaxşı idi. Lakin arxasında hamını bir yerə toplayıb daha asan idarə etmək istəyi dayanırdı. Ümumilikdə, avtoritar cəmiyyətlərdə ən yaxşı, ən xeyirxah əməllər də öz platformasında deyil. Saman altından mütləq su yeridilir. Buna görə də, müxtəlif sənət sahiblərinin bir yerə toplaşıb çox vacib yaradıcılıq mübadiləsi aparması da sair ciddi fəaliyyətlər kimi müt-

ləq azadlıq və sərbəstlik çətiri altında baş verməlidir. Lakin bu mütləq baş verməlidir. Çünki mədəniyyət bütün rəng və çalar fərqliliyinə rəğmən vahid bir anlayışdır. Hələ mən xırdalıqlara enib kino, teatr, opera və s. kimi sözün hərfi mənasında müştərək sənət sahələrindən danışmıram. Şəxsən mən bir yazıçı kimi kinodan, rəssamlıqdan və musiqidən az qala ədəbiyyatın özü qədər, hələ bəlkə də bir az artıq faydalanıram. Hərdən həm də bu sahənin insanları arasında bulunuramsa, lap gözəl!

Dünyanın hər yerində, misal üçün, böyük bir rejissorun mütləq bir rəssam, yazıçı və bəstəkar dostu olur. Əlbəttə, bura elm adamlarını da əlavə etmək olar. Çünki elm də bir sənətdir. Yaxşı sənətkarlar nəinki bir ölkədə, hətta bütün dünyada axtarıb birbirlərini tapırlar. Hətta bəzən bizim 60-cılar sayaq müxtəlif sahələrdə irəli çıxan adamlar birləşib nəsil monopoliyası da yaradırlar. Əlbəttə, yalnız azad olmayan cəmiyyətlərdə. Yəni bizim kimi".

"Bizdə bu prosesin yaşı cavandı, asta-asta formalaşacaq"

Yazıçı İlham Əziz bildirib ki, Sovet rejimi ədəbiyyat, incəsənət, kinonu bir muncuğa düzüb öz siyasətinə, mənafeyinə xidmət etdirirdi. Sovet rejimi məhv olan kimi o muncuq dağılıdı, hərəsi bir yerə səpələndi. Dünyada bu vəhdət təbiidir. İstedad, sənət fonunda yüz illərlə formalaşıb.

O, optimist yanaşaraq bizdə bu prosesin yaşı cavan olduğunu, asta-asta formalaşacağını da qeyd edib.

"Aydınlarımız toy müğənnisi kimi yaşamaq istəyirlər"

Şair, yazıçı Aqşin Yenisey çıxış yolunu intellektual elita yaratmaqda görür:

Onun sözlərinə görə, Sovet dövründəki "mədəni həmrəylik" ideoloji öhdəlik idi. Yəni qızı oğlana zorla vermişdilər. İmperiya dağılan kimi sovet mədəniyyəti də dağıldı. Çünki təbii yaradıcı ideyaların nəticəsi deyildi bu həmrəylik. Həm də milli düşüncələrə, emosiyalara söykənmirdi. Adına "sovet vətəndaşı" deyilən bir uydurma varlıq üçün mentalitet yaratmaq kimi avara bir məqsədə qulluq edirdi. Kitab oxuyan, film çəkən, musiqi bəstələyən, biz sözlə, intellektual əməklə məşğul olan xalqların hamısı zorakı maarifləndirmə yolu keçiblər, amma bu zorakılıq milli ideyalara xidmət edib. Mədəniyyət tarixin bütün dövrlərində başdan qarına deyil, qarından başa doğru inkişaf edib. Rifahı olmayan heç bir xalqı intellektual həzz maraqlandırmır. Düzdür, Bakının küçələri doludur kreditlə, cürbəcür qeyri-leqal yollarla alınmış bahalı maşınlarla. Amma bu, rifahın yox, bəhsəbəhsin, saxta elitarlığın nəticəsi, göstəricisidir. Çünki əhalinin doxsan faizi o bahalı maşınlara minib hər gün gündəlik çörəkpulunu qazanmağa gedir. Səksəndoxsan min manatlıq avtomobillərlə taksi xidməti göstərən adamlar bizim mövzuya aid deyil. Bu gün ac olan təbəqə Azərbaycanın yaradıcı insanlarından ibarət zümrədir. Mədəni həmrəyliyin olmamasının səbəbi mədəni insanların ac olmasıdır. Bu adamlar müasir dövrümüzün qədim ovçularıdır. Hər gün evdən ov dalınca çıxır, çox vaxt da evə əliboş qayıdırlar. Budur Azərbaycanda mədəni böhranın səbəbi. Fransız filosofu Derrida "Marksın ruhları" kitabında yazır ki, dünyada heç vaxt liberalizm dövründə olduğu qədər çox sayda varlı və azad kölə olmayıb. Azərbaycanın yaradıcı insanları bu cümlədəki "azad kölə"lərdir. Sovet sistemi dağılıb, onları "Platonun mağara"sından açıb buraxıblar, amma getməyə yerləri yoxdur. Ac qalmamaq üçün günəmuzd həyat yaşayırlar. Müstəqillik illəri sübut etdi ki, Azərbaycan xalqının başının üstündə qapaz olmayanda toyxanadan, meyxanadan başqa heç nə yarada bilmir. Bu, bütün xalqlara aiddir. Mədəniyyət xalqın, kütlənin ixtiyarına qalanda Freydin xəbərdarlıq etdiyi ibtidai vəhşiliyə doğru geri qayıtmağa məhkumdu. Bu gün Azərbaycanda bu proses gedir. Xalq yaradıcısı olduğu öz mədəniyyətini ibtiadi icmaya doğru aparır. Bu da yaradıcı insanları bədbinləşdirən, onları "cəhənnəm ki" düşüncəsinə sürükləyən mənzərədir.

"Mədəniyyət öləndə onun yerini din tutur"

Aqşin Yenisey din-mədəniyyət əlaqələrinə də toxunub:

"Azərbaycanda urcah olduğumuz "Mədəniyyət böhran"ının daha bir səbəbi isə mədəniyyəti təmsil edən adamların bütünləşmək əvəzinə, bütləşməyə meyilli olmasıdır. XX əsrin dünya sənət nəzəriyyələri iddia edir ki, ziyalı, aydın, intellektual öz cəmiyyətində təkcə söz faktı kimi deyil, həm də səs faktı kimi də çıxış etməlidir. Ağac bar verdikcə başını aşağı dikə bilər, təbiət onu belə yaradıb. Amma insan öz məqsədlərini özü yaradan varlıqdı. O, bar verdikcə başını dik tutmalıdır. Aydınlarımız, intellektuallarımız özünü boynubü-

kük əncir ağacı kimi aparırlar. Səbəb? Aydınlarımız toy müğənnisi kimi yaşamaq istəyirlər. Susduqca, əzilib-büzüldükcə hörmət qazanırlar. Azərbaycandan başqa dünyanın heç harasında susmaq qızılla ölçülmür. Şəxsi xoşbəxtliklərin dəbə minməsi milli bədbəxtliyə gətirib çıxarıb. Sovet dövründə zədələnən ictimai əxlaq bu gün əcinnəyə çevrilib. Mədəniyyət öləndə onun yerini din tutur. Din isə hakimiyyəti əldən verməmək üçün öz xurafatını, cəhalətini yaratmalıdır. Bu gün cəmiyyətimiz xirtdəyəcən cəhalətin içindədir, universitetindən tutmuş domsovetinəcən.

Çıxış yolu nədir? İntellektual elita yaratmaq. İctiami sərmayəni bu elitanın yaradılmasına xərcləmək. Bu elita yaranmasa, Azərbaycan bir millət, bir dövlət olaraq gec-tez yağışdan çıxıb yağmura düşəcək".

Eminquey

ÜST-dən ŞAD XƏBƏR

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus əmindir ki, 2023-cü ildə COVID-19 pandemiyasına son qoyulacaq və bu xəstəliyə görə beynəlxalq fövqəladə və-

ziyyət rejimi aradan qaldırılacaq. O, səhiyyəyə verdiyi töhfəyə görə medalla təltif edilərkən müvafiq bəyanatla çıxış edib. Bəyanatın mətni çərşənbə axşamı gecə ÜST-nin mətbuat xidməti tərəfindən yayılıb. "Əminəm ki, bu il nə vaxtsa biz COVID-19-un ictimai səhiyyə sahəsində beynəlxalq narahatlıq doğuran fövqəladə hal və pandemiya kimi başa çatdığını söyləyə biləcəyik. İndi biz, sözsüz ki, pandemiya zamanı olduğundan daha yaxşı vəziyyətdəyik", - deyə Qebreyesus bildirib.

Mayor Azər Həmid: "Ermənilərin öz artilleriyası ilə mövqelərini vurmaq, zövqverici məqam idi"

Əziz oxucularımız, bu gün sizi bir qəhrəmanımızla tanış edəcəyik. Düzünü deyim, çox təəssüf etdim ki, indiyə qədər onunla heç kim maraqlanmayıb. İnternet üzərindən axtarış etdim onun haqqında 1 cümləlik belə bir yazıya rast gəlmədim!

Tanıdıqca siz də onunla qürur duyacağınıza, fəxr edəcəyinizə əminəm!Aprel döyüşlərinin və vətən müharibəsinin iştirakçısı mayor, qazi Azər Həmidlə söhbətimizə başlayırıq.

-Cənab mayor, söhbətə başlamamışdan əvvəl özünüz haqqında qısa bir məlumat verin...

- 1983-cü ildə Ucar rayonunun Müsüslü kəndində anadan olmuşam. Orta təhsilimi də rayonda almışam. Nizamlı-intizamlı, əlaçı şagird idim.

- Ağlınız kəsəndən, dünyanı anlayandan gördünüz ki, Azərbaycanın Qarabağ adlı böyük bir problemi var. Müharibələr, ölüm, qan, təcavüz, köçkünçülük...Dünyanın belə bir zamanında necə oldu ki, hərb sahəsini, hərbçi olmağı seçdiniz?

-Qazax rayonundan Ağdam rayonuna qədər bütün cəbhə boyu xidmət etmişəm. 16 il...

-Heç elə olub ki, bu sahəni seçdiyinizə görə, peşmançılıq keçirəsiniz?

- Bilirsiniz, vətənin əsgəri olan, zabit olmağı seçənlər bilir, "zabit şərəfi" deyə bir termin var, (mən o "zabit şərəfi"nə hiss deyirəm)Hansısa bir sənətdən imtina eləmək təbii bir prosesdir, amma bu sahəni atmaq zabit şərəfinə uyğun deyil! İçindəki o şərəf hissi buna imkan vermir. Əlavə onu da deyim ki, hərbdən getmək, elə bir erməninin qabağından qaçmaq kimi birşeydi. Adım kimi əminəm ki, Azərbaycan ordusunun heç bir zabiti bu sahədən uzaqlaşmaz və uzaqlaşmayıb. Yaralanana qədər, şəhid olan saniyəyə qədər bütün şərəfi ilə erməninin qarşısında vüqarla durub. Sizə maraqlı bir şey deyim: xidmətə başladığım gündən , ermənilərin hər zaman təxribatlar törətdiyinin , atəşkəsi pozduğunun, mövqelərimizə, əsgərlərimizə atəş açıb sonra qaçıb getdiyini görürdüm. Bir dəfə ortaya çıxıb axıra qədər döyüşdüklərini, mübarizə apardıqlarını görmədim. Sicovul kimi qəflətən görünürdülər, atəş açıb qaçırdılar.

- Elə o arada Aprel müharibəsi başladı...

- Hərb tariximizə "Dördgünlük müharibə" kimi düşən bu döyüşlərdə Azərbaycan artilleriyasının gücünü düşmən tərəf kifayət qədər anladı. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Suqovuşan (Madaqiz) kəndi istiqamətində yollar düşməndən azad olundu. Ordumuzun üstünlüyü danılmazdı. Bizim briqadamızın da bu döyüşdə xususi xidməti olması artilleriyaçılara qürur verirdi. Çox təəsüf ki, 5-ci gün atəşkəs elan olundu. Hesab edirəm işimizi sona çatdıra bilmədik.

- Amma çox gözləmədiniz...

- 4 il azdır?

- Müharibənin başlandığını necə bildiniz?

- Tovuz döyüşlərindən sonra müharibəyə ciddi hazırlıq gedirdi. Ordu təlimlərə başlamışdı. Xüsusən artilleriya qurğularının mövqelərinin bərkidilməsi, kamflyajı diqqətlə aparılırdı. Elə ilk zərbə artilleriya ilə başladı.

Mən müharibəyə Talış-Suqovuşan tərəfdən artilleriya rəisinin baş köməkçisi olaraq başladım. İnanırsınız, sanki yerlə göy birləşirdi. Deməli, sentyabrın 27-dən 28-nə keçən gecə saat 2-3 radələrində düşmənin 5 avtomobil texnikası Ağ Uçuq deyilən yerdən Talışkənd istiqamətində əks hücum təşkil etmək üçün şəxsi heyət aparırdı. Artilleriya divizionunun və minaatan batareyaların topladılmış atəşləri ilə gəlmələrinə peşiman elədik. Gecə qayıda bilmədilər. 28-də- səhər saat 10 radələrində sağ qalanlar qaçıb geri çəkilməyə cəhd elədilər. Artilleriya bölmələrimizin sərrast atəşləri ilə onların 1 UAZ markalı avtomobilini, içində alay komandiri və onun qərargah rəisi olmaqla, şəxsi heyətlə dolu 1 kamaz avtomobilini, həmçinin 100-dən çox piyada qaçan hərbçilərini məhv etdik.

- Ən yaddaqalan döyüşünüz...

- Oktyabrın 5-də düşmənin tərk etmədiyi mövqelərinə girməyi planlaşdırdıq. Orada " D-30 haubitsa"ların (Maksimum atəş məsafəsi 15.4 km-dir) məhv etməli idik. Mənimlə bərabər kapitan Əhmədov Rəşid, gizir Rzayev Daşqın, gizir Baxşəliyev Cahid, MAHHXHQ Abdullayev Rəvan, əsgər Eldarov Eldar olmaqla getdik. Düşmənin 5-6 əsgəri vardı topların yanında, onlar da bizi görən kimi heç bir güllə atmadan qaçdılar. " D-30 haubitsa"ların yönünü çevirdik erməni mövqelərinə tərəf. Öz toplarından öz mövqelərinə 10 mərmi atəş açdıq, düşmən çaşqınlıq içindəydi. Elə bilirdilər atəş bizim ordunun mövqelərindən açılır. Onlar başa düşəndə ki, onlara atəş öz mövqelərindən açılır, artıq onlar üçün gec idi.

Hadisə ermənilərə elə ağır təsir bağışlamışdı ki, oktyabr ayının 15-də Ağdərədən Suqovuşana əks hücum planlamışdılar. Mən duyuq düşdüm. Bizim qüvvələr Suqovuşanda yaşayış binalarının arasında oturub dincəlirdilər.

Həmin vaxtı hamı arxayın oturmuşdu. Birdən "BUSSOL"dan (məsafəni yaxınlaşdıran cihazdı) baxanda onların hücuma keçdiyini gördüm. Bizim artilleriya bölmələrini rabitəylə çağırıb düşmənin zirehli texnikalarının kalonunun 1-ci və axırıncı 6-cı tankını dəqiq atəşlə vurduq. Bundan sonra digər vasitələrlə qaçmağa cəhd eləyən qüvvələri məhv etdik. Hər dəfə zərbələrimiz hədəfə dəyəndə heyətimizin sevinc bağırtıları göyə qalxırdı. Neçə illərdi, bu günü gözləyirdik, xocalılıların üzünə baxmağa cəsarətimiz çatmırdı. İndi içi heyətlə dolu Kamazı vuranda, düşmən əsgərini məhv edəndə sevincdən səsim oraları götürürdü. Onsuzda işimiz elə idi ki, səs bizə lazım olurdu. (Gülür) Amma Azərbaycan Ordusunun üstünlüyü bizi həvəsləndirirdi. Qışdırırdım: Bu Kamaz Xocalının hayıfı, bu vurduğumuz əsgər ermənilərin snayperlə vurub öldürdüyü 8 yaşlı uşağın qisası, bu 2 yaşlı Zəhranın qisası, bu Şuşa səmasında qız-gəlinlə dolu vertalyotu partlatmağınızın qisası...

- Harda yaralandınız?

- Suqovuşanda, 16 oktyabr da...

- Hospitalda neçə gün yatdınız?

- Nə hospital? *(Gülür)*. Ayağımdan yaralanmışdım, amma mərmi ayağımı da aparsaydı hospitala gedəsi deyildim. Qalibiyyətimizdən aldığım zövqü heç nəyə dəyişə bilməzdim. Yaramı sarıtdırıb, yenidən savaşa girdim. Zövq alırdım zövq... *(gülür)*

- Siz danışdıqca o günləri yaşayırsınız, sevinciniz simanıza vurur, inanırsınız, sizinlə bərabər mən də özümü orda hiss edirəm, sevinciniz mənə də sirayət edir. O, təkrarolunmaz anları yaşayıram, zövq alıram. "Zövq verən" məqamlardan birini də danışın....

- Hələ yaralanmamışdan əvvəl 10 oktyabrda- gecə saat 2-3 radələri idi. Gecə görmə cihazı ilə ətrafı nəzərdən keçirirdim. Bizim mövqelərə lap yaxın yerdə - 530 nömrəli yüksəklik istiqamətində hərəkətlənmə hiss etdim. Səhv etməmişdim. Təxminən 100-dən çox piyada düşmən qüvvələri və muzdlu döyüşçülər hücuma keçmək üçün irəliləyirdi. Bunu görməyimlə ani qərarla hücum əməliyyatı planladım: Düşmən 530 nömrəli yüksəkliyə cəmi 1-2 dəqiqəyə çatır,bu 1 dəqiqə müddətində kordinantları dəqiqləşdirdim, atəş xəttini planladım:ATƏŞ əmrini verdim. (gülür)

- Nə oldu orda?

-Təsəvvür edin: düşmən hesab edir ki, onlar aşkar edilməyib və rahat gəlib döyüş planını həyata keçirib, xoşbəxt olacaqlar! Elə bu dəm artilleriyamızın yağdırdığı "yağış"a düşürlər. Salamat qalma ehtimal sıfır... Həmin atəş Tərtər- Suqovşan cəbhəsində düşmənin belini qırdı. Sonra uğur üstündən uğur!Döyüşlərdəki fəaliyyətimə və maneələri peşəkarcasına dəf etdiyimə görə adım 3 dəfə "Azərbaycan Bayrağı" ordeninə görə nazirliyə getdi, amma bu günə qədər bir cavab var, nə bir göstəriş… Artıq 3 ildir gözüm yoldadır…

- Burda maraqlı fotolar da var..

-Baxın, o günlərimin hamısı mənə çox əzizdir. Fotolar Suqovuşan tərəfdə çəkilib. Su anbarının sağ sahilidir . Burda briqadanın rəisi olaraq silahdaşlarımı qorumaq boynumun borcu idi.Bu fotoddakı igidləri görürsünüz? Hər biri üçün canımı qurban verərəm...

- Əlimdən gəldiyi qədər xalqımın qisasını aldım. Torpaqlarımızın böyük bir hissəsi artıq bizim nəzarətimizdədir. Böyük bir qələbə yaşadıq! "Suqovuşanın azad olunmasına görə" və " İgidliyə görə "medalları ilə təltif edilmişəm. Səhhətim, yaralarım imkan vermir ki, davam edim. 2022-ci ilin yanvar ayından öz istəyimlə Silahlı Qüvvələrdən ehtiyata buraxılmışam. Amma hələ də dostlarımı , silahdaşlarımı itirdiyimi qəbul edə bilmirəm. Yeganə təsəllim odur ki, dostlarım da, mən də bu müqəddəs yolda şəhid olmağı arzulamışıq!Şəhidlər isə heç zaman ölmür! Mənim üçün onlar həm qardaşlarım, həm əqidə yoldaşlarım, həm zabit həmkarlarım, həm də şəhidlərimdi. Ölən günə qədər heç birinin o nurlu simasını unutmayacağam.

- Cənab mayor, sizə uğurlar diləyirəm!

P.S. ***Allah sizin kimi igidlərimiz qorusun! Xoşbəxt olmağı haqq etmisiniz! Bir daha xoşbəxt olun!***

Söhbətləşdi:
Əntiqə Rəşid

Əntiqə RƏŞİD

"Heyf, korşalırıq biz, səhv düşəndə yerimiz"

Bu qədər siyasi, iqtisadi, sonra səhiyyə, təhsil, ordu, mədəniyyət, ədəbiyyat dərdi, problemi içərisində bir də tanınmış rəqqasə və aktrisa Oksana Rəsulovanın "Heydər Əliyev İli"nin silsilə tədbirləri çərçivəsində "Naxçıvan" Universitetinə dəvət olunması və orada mühazirə söyləməsini müzakirəyə çıxartmağı özümə qəbahət sandım!

Fikirləşdim ki, hazırda əhalinin böyük bir hissəsinin işi yox, gücü yox! Bekarçılıqdan qoy bir az da Oksanayla bağlı fikir yürütsünlər...Zatən evimizin içində , Zaur, Xoşğədəm, Ay Zaur, Amil Xəlil , Lalə Azərtaş, Elgiz Əliyev kifayət qədər gündəmimizi zəbt ediblər. Oksananın bunlardan nəyi əskikdir və yaxud nəyi artıqdır? Hamısı eyni missiyanın daşıyıcılarıdır. Beləcə, Oksananı müzakirəsini çoxu aparırdı deyə susdum.

İndi baxıram ki, tanıdığım hörmətli jurnalist həmkarlarım da olayı dəstəkləyiblər. Anlamadım niyə?Bir çoxu da kişi jurnalistlər(?)

Oksananın ali təhsili var və ya yoxdu bu haqda məlumatlı deyiləm... Amma 3 dəfə ailəsi dağılmış, haqqında cəmiyyətdə xoşagəlməz fikirlər dolaşan, buna baxmayaraq lüks həyat keçirən cavan və gözəl bir aktrisa xanım tələbələrə danışdığı mühazirənin effektinin nə olacağını anlaya bilmirəm.

Oksananı, qanını qaşığa qoyaraq müdafiə edən həmkarlarım, hansı biriniz 17 yaşlı qızınızın Oksanadan nəyi isə örnək götürməsini istəyirsinizmi? O auditoriyada öz qızınızın heyranlıqla Oksanaya baxmasını təsəvvür edirsinizmi?

Oksana xanım çox gözəl və şirin xanımdır, bəzilərinin ona simpatiyası ola bilər, təbii haldır! O zaman aparın gözəl bir restorana, qonaqlıq verin, bahalı hədiyyə alın, lap evinizə də apara bilərsiniz, seçim sizindir! Universitetdə mühazirə deməsini dəstəkləmək isə yanlışlıqdır!

"İllaki, Oksana incəsənətdən danışmalıdır" - deyirsinizsə, buna da bir layiqli çıxış yolu tapmaq mümkündür. Məsələn, Azərbaycan incəsənətinin elə sənətkarları var ki, onları unutmaq incəsənətə xəyanət etməkdir. "Blogerlik və incəsənət" mövzusunda mühazirə söyləmək üçün Oksanadan da başqa incəsənət dahiləri var! Sənətkar qıtlığıdırmı?Xeyir!

Yüzlərlə tamaşaya və kinoya can vermiş, yeni obraz yaratmış, Afaq Bəşirqızı, Bəsti Cəfərova, Firəngiz Mütəllibova, Həmidə Ömərova, Şəfiqə Məmmədova, Zemfira Nərimanova, Səidə Quliyeva hardadı ki, incəsənət Oksananın ümidinə qalsın? (Bu lap Müdafiə Nazirliyinin. 44 günlük müharibədə qələbəmizs naminə fədakarcasına fəaliyyət göstərmiş şəxslərin əvəzinə müğənni Nətavan Həbibiyə və Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevin oğluna "Fəxri Fərman" verməsinə bənzədi...)

Yeri gəlmişkən, bir həmkarım mənə yazır ki, sənin adını sadaldığın sənətkarları sosial mediada nə qədər adam təqib edir?

Həmkarım, onlar teatrımızın və kinomuzun korifeyləridir. Universitet də sosial şəbəkə deyil... Universitet təhsil-təlim-tərbiyə ocağıdır, hansısa bir sənətkarı tədbirə çağıranda uzaqbaşı tanınmayanlar üçün orada kiçik bir video -tanışlıq etmək də mümkündür....

Zatən adını çəkdiyim sənətkarları uşaqdan böyüyə hamı tanıyır. (Bunun üçün "tiktoker" olmağa ehtiyac yoxdu) Gənclər üçün belə mühazirənin önəmi daha böyükdür, həmin sənətkar xanımların birgə işlədiyi korifey sənətkarların həyatı haqqında da bilmədiklərini öyrənmək maraqlıdır...

Bilmirəm.. Oksananı dəstəkləyən dostlarım, sizə Oksananın mühazirəsi maraqlı olardı, yaxud Şəfiqə Məmmədovanın yaradıcılıq həyatı, sənətkar dostları, çəkilişlər zamanı yaşanan maraqlı məqamlar?Yaxud da sənətkarla görüşdən alınacaq tərbiyəvi əhəmiyyət, bilgi, zövq?Bilmirəm...Amma hazırda gənclərə nə lazım olduğunu biz valideynlər və pedaqoqlar müəyyən etməlidir!!

Son olaraq: Bizim vaxtımızda (Ağdamda), biz orta məktəbdə oxuyanda Xudu Məmmədovla görüşməyə can atardıq, Şahmar Əkbərzadə, Famil Mehdi, Əlfi Qasımov, Bayram Bayramov idi örnək şəxslər!

İndi də var ziyalılarımız, həyat , elm, ədəbiyyat, incəsənət örnəklərimiz! Hanı universitetdə incəsəndən mühazirə deməsi vacib olan Ramiz Rövşən, Anar, Elçin, Firəngiz Əlizadə, Cavanşir Quliyev, Fərhad Xəlilov, Flora Kərimova? Niyə Azərbaycanı dünyaya sevdirən Zeynəb Xanlarova, Fidan və Xuraman Qasımova bacıları heç bir universitetdə mühazirə demək imkanına layiq görülməyib? Gənclərə , tələbələrə mayak olacaq minlərlə ziyalılarımız, qəhrəmanlarımız durmuşkən...

Heyf... mənəvi sərvətlərimiz beləcə məhv olur...həm də bizim dəstəyimizlə.....

Allah sənə rəhmət eləsin, şair Qabil:

Küt bıçaq parıldayıb
Xırçıltı salıb.
Qılınc qında pas atıb
Qında korşalıb...
Heyf... korşalırıq biz,
Səhv düşəndə yerimiz.
Tarın pərdələrini
Düzənə qurban!
Yerdəyiş et birini,
Xaric vurarsan.
Xaric səslənirik biz,
Səhv düşəndə yerimiz.

Aydın Bağırov

"Qalatasaray" "Qarabağ"la oyuna necə razılıq verdi?

Bu sualın cavabı qalsın yazını gedişatına.

İndi isə ondan başlayım ki, martın 26-da Azərbaycan və Türkiyənin müasir futbol brendləri Bakıda üz-üzə gələcək.

"Qarabağ" və "Qalatasaray"...

İllərdir arzulanan bir oyun.

Lap xeyriyyə məqsədli yoldaşlıq, daha doğrusu, qardaşlıq görüşü olsa belə fakt dəyişmir. Milyonlarla Azərbaycan azarkeşi gör neçə vaxtdır "Qalatasaray"ın yolunu gözləyir. Düzdür, "aslanlar" 2020-ci ilin sentyabrında da "Neftçi" ilə Avroliqa oyunu üçün Bakıya gəlmişdi. Amma onda pandemiyaya görə tamaşaçıların stadiona girişinə icazə yox idi. Bu qadağa artıq çoxdandı aradan qalxıb. Deməli, bu dəfə tribunaları onminlərlə insanın dolduracağına da şübhə yoxdur.

"Qarabağ" - "Qalatasaray" oyunu...

Özündə həm də böyük bir qəmin ağırlığını, kədərini daşıyacaq oyun. Bəli, bu matçın Bakıda təşkil olunmasının yeganə bir səbəbi var: Türkiyədə fevralın 6-da baş vermiş dəhşətli zəlzələdən zərər çəkən qardaşlarımıza yardım etmək. Daha doğrusu, əldə ediləcək bütün gəliri onların ehtiyacına sərf etmək. Yəni xeyriyyə görüşündə nə "Qarabağ"ın, nə də "Qalatasaray"ın maddi qazancı olacaq.

Ona görə də bilet istəməyin, bilet alın...

Bəli, hələ də insanlarımız var ki, artıq indidən klubdan, futbolçulardan "mənə bilet təşkil elə" kimi xahişdə bulunurlar. Özü də imkanı, bahalı maşını, son model telefonları olan adamlar... Məndə olan məlumata görə, "Qarabağ" klubu minlərlə biletə cəmi 3-5 manat qiymət qoyub. Bu biletə həm oyuna canlı baxmaq olar, həm də Türkiyəyə vəfa borcunu yerinə yetirmək.

Və indi sizi çox yormadan gəlim o məsələyə ki, "Qarabağ" "Qalatasaray"ı Bakıya necə gətirib? Əslində, bu iki komandanın Azərbaycanda yoldaşlıq görüşündə qarşılaşması ideyası yeni deyil. Klublar arasında hələ bir neçə il əvvəldən Avropa Klublar Birliyindəki münasibətlər zamanı sıx əməkdaşlıq başlayıb. Elə o vaxtdan zamanzaman yoldaşlıq oyunu ilə bağlı fikir mübadiləsi olub. Amma hər iki tərəfin gərgin təqvimi səbəbindən bu matç alınmayıb. Türkiyədəki zəlzələdən sonra, təxminən 10 gün əvvəl isə "Qarabağ" bu dəfə xeyriyyə oyunu ilə bağlı "Qalatasaray"a təklif irəli sürüb. Həmin vaxt İstanbul təmsilçisinin proqramında Almaniya klubları və Macarıstanda "Ferensvaroş"la yoldaşlıq görüşü üçün təklif olsa da, məhz Azərbaycan tərəfinin dəvəti qəbul olunub.

Əlbəttə, bu məqamda iki klub arasında formalaşmış dostluq əlaqələrini, "Qalatasaray"ın timsalında Türkiyənin tarixi və nəhəng klubunun "Qarabağ" rəsmiləri, onun rəhbərliyinə isti münasibətini də qeyd etməliyəm. Ona görə ki, necə deyərlər, bəzən (xaricdən) kənardan hər şey daha yaxşı və professional görünür. Klub işi də, komanda oyunu da, məşqçi əziyyəti də.

Əzəmətli "Qalatasaray"ın gördüyü kimi.

Bu yazımı isə özümün yox, hörmətli publisistimiz İradə Tuncayın bu günlərdə Feysbukda yazdığı fikirlərlə tamamlayıram.

" İspaniyadakı binaların möhtəşəmliyinə baxıram. Həqiqi möhtəşəmliyə ,burda addımbaşı yazılan möhtəşəm yox. TV dən izləyirəm yəni. Futbol komandalarının adların çəkirlər mətndə. Fikirləşdim... Binaların qüllələri göylərə dirənən ölkədə futbol da göylərdə uçacaq da. Yazıq Qurban... Komalarda yaşayan toplumun arasında Avropaya futbol komandası çıxara bilib... Və danlayırıq..."

«Son illərdə ədəbiyyatımızda bir canlanma var»

Şair, tərcüməçi, esseist Qismət Rüstəmovun ad günüdür. Adalet.az Qismətlə minimüsahibəni təqdim edir:

- Qismət bəy, adınızı kim qoyub? Bunun sizin üçün həyatda elə rəmzi mənası varmı?

- O vaxt babalarım mən dünyaya gəlməmişdən öncə məsləhətləşib bu adın üstündə dayanıblar. Bəlkə də bu adın səslənməsi onların xoşlarına gəlib. Mənə ən azından bizim ailədə danışılan əhvalat budur. Açığı bu adın rəmzi mənası barədə düşünməmişəm, amma haqqımda yazılan yazılarda "ədəbiyyatın Qisməti" kimi sözləri dostlar yazırlar. Çox sağ olsunlar. Mən özüm adların mistikası üzərində çox da düşünən adam deyiləm. Amma yəqin ki, adlar haqqında düşünməsək də, müəyyən təsiri var.

- Ədəbiyyatımızın və kitabın vəziyyəti sizi qane edirmi? Həmişə bununla bağlı bədbin danışırlar...

- Son illərdə ədəbiyyatımızda bir canlanma var. Bizim tələbəlik illərində, yəni 2000-ci illərin əvvəllərində şəhərdə bir neçə kitab ünvanı vardı. Məsələn, Qız qalasının yanındakı Elman dayının köhnə bukinisti var idi. Yəni çox kitab evi yox idi. Amma son dövrlərdə təxminən 2000-ci illərin əvvəllərindən müəyyən kitab evləri fəaliyyətə başladı. Məsələn, "Əli və Nino", "Libraf", "Azərkitab" kimi mağazalar yarandı. Yavaş-yavaş az da olsa müəyyən bir hərəkətlənmə var. Amma mənə elə gəlir ki, problem bu prosesin ancaq paytaxtda baş verməsidir. Yəni kitab paytaxtdan bölgələrə doğru yayılmalıdır ki, biz həqiqi oxucunu və tirajı bilək. Bizim indi bildiyim tirajların heç biri həqiqi tiraj deyil. Həqiqi tiraj o vaxt olur ki, kitab ölkə boyu yayılır, tirajı çoxalır və dəqiq rəqəmi bilirsən. Ona görə də kitab paytaxtdan bölgələrə doğru yayılmalıdır. Ümid edirik ki, bu da düzələr.

- Ölkədə haqqı-nahaqdan ayıran ziyalılarımızın hər biri bu gün televiziyalarımızdakı verilişlərdən narazıdır. Siz bir ziyalı kimi bunu müşahidə etmisinizmi?

- Televiziyalarımızla bağlı tənqidlərdə mənə elə gəlir ki, haqlı tərəf var. Televiziyalarımızda şou-biznesin faizi, lüzumu bizim kimi bir ölkə üçün lüzumundan artıqdır. Türkiyəylə müqayisədə bu aşırı dərəcədədir. Çünki onun alternativi yoxdur. Məsələn, qardaş Türkiyəylə müqayisə etsək, orda əyləncə proqramları var. Amma ona paralel olaraq axşam saat 22 və 23-dən sonra başlayan və gecə yarına kimi davam edən tarix, fəlsəfə elmlə bağlı uzun davam edən verilişlər də var. Bu gün o verilişlərə "YouTube" kanalına baxdıqda görürsən ki, insanlar buna həm canlı verilişdə, həm də sonradan baxırlar. Bizdə isə həmişə bəhanə gətirirlər ki, kimdi bu verilişlərə baxan? Axı biz bunu nə vaxt açıq yoxladıq ki, bilək buna baxan var, yoxsa yox.

- Təzə kitabınızı oxuculara nə vaxt təqdim etmək fikrindəsiniz?

- Bir neçə tərcümə təhvil vermişəm. Onlar bu il çapdan çıxmalıdır. Bununla yanaşı, son illərdə yazdığım esselərdən ibarət kitab hazırlayıram. Yəqin ki, yeni ilə qədər o da çapdan çıxar.

Vasif Əlihüseyn

Pərvin Abıyeva: "Kimlə istəsəm gəzərəm"



Aktrisa Pərvin Abıyevanı növbəti dəfə TikTok-da əsəbiləşdiriblər.

Adalet.az xəbər verir ki, şərhlərə qəzəblənən Abıyeva canlı yayımda bu fikirləri səsləndirib:

"Mən öz puluma, öz hesabıma Pərvin olmuşam. Kiminlə istəsəm, gəzərəm, danışaram. Bu həyat mənimdir. İstəyirsiz qəbul edin, istəyirsiz etməyin".

Hiss şalvarını kofta etdi

Gənc müğənni Hissin növbəti addımı diqqət çəkib.

Adalet.az xəbər verir ki, ifaçı şalvarı kəsərək özünə kofta düzəldib. Bu anları instaqram hesabında yerləşdirən Hiss "Bundan sonra belədi" şərhini yazıb.

Əntiqə

Şəhla Həmidova: "Yaxşı qazanan, gündə toya gedən müğənnilərdən olsaydım..."

"Yaxşı qazanan, gündə toya gedən müğənnilərdən olsaydım, çox şey edərdim". Bunu Adalet.az-a danışan "Xalq ulduzu" müsabiqəsindən tanınan müğənni Şəhla Həmidova deyib.

O, yaradıcılığında yenilik olmadığını bildirib."Çünki nələrisə etmək üçün maddiyyat lazımdır. Bir işi ərsəyə gətirmək üçün gedib studiyalarda ifa etməlisən, musiqiçilər bu işə cəlb olunmalıdır, bütün bunlar üçün də pul lazımdır. Bunları etmək durumunda olmadığım üçün yenilik yoxdur. Bir-iki mahnı ifa etmişəm, onların xərcini mən çəkməmişəm, dəvət ediblər. Ara-sıra konsertlərə dəvət alıram. Noyabrda Sara Qədimovanın 100 illik yubileyində çıxış etdim. Bəzən dəvətlər olur, bəzən də nəsə olur, xoşlarına gəlmirəm, adımı siyahıdan çıxarırlar. İstəyərdim ki, sənətlə bağlı verilişlərə dəvət olunam, musiqilər ifa edəm, amma əfsuslar olsun, belə verilişlərimiz barmaq sayı qədər də deyil. Xəzər TV-də Leyla xanımın "Söhbət musiqidən gedir" verilişində az da olsa verilişin formatına uyğun olaraq ürəyimdən keçən musiqiləri ifa etməyə şans tapmışdım. Həftəboyu toylarda yatan müğənni olmadığıma görə, qazandığım elə ancaq dolanışığa, başqa şeylərə gedir. Yaxşı qazanan, gündə toya gedən müğənnilərdən olsaydım, çox şey edərdim. Təəssüf ki, hər şey maddiyata bağlıdır. Ağlamıram, sızlamıram, heç kimdən də təmənnam yoxdur".

Eminquey

Cavanşir Məmmədov: "Maşın insanın sirdaşıdır"

Əməkdar artist Cavanşir Məmmədov Bakıda yaranan tıxaclardna narahatdır.

Adalet.az xəbər verir ki, bu barədə sənətçi "Gəl, danış" proqramında danışıb. C. Məmmədova mövzu barədə fikrini bildirsə də, "Space" TV-nin efirində onun səsi alınıb. Bu, bir neçə saniyə davam edib və ifaçı sözlərinə davam edib: "Bakıda maşın çoxdur. Sürə bilməyən sürücülər var. Yaxşı sürsələr, tıxac olmaz. 48 ildir maşın sürürəm. Hər insan bunu bacarmır. Bu günə kimi də sürücüm olmayıb. Maşın insanın sirdaşıdır. Bəyəm pis sürücüyəm? Bu günə kimi yolda problemim olmayıb. Cəmi bir dəfə narazılıq yaranmışdı. Başqa bir sürücü sağa-sola dönmə işığını yandırmamışdı. Yanında saxlayıb dedim ki, işıq pulu verirsən? Yandır da bu maşının işıqlarını..."

Əntiqə

1984-cü ildə Ucar Rayon Hərbi Komissarlığı tərəfindən İsayev Mutadxan Həsən oğluna verilmiş Əfqanıstan muharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas və İradə Tuncay **Xanım İsmayılqızına** bacısı
RƏFİQƏ XANIMIN
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Ədalət" qəzetinin kollektivi **Xanım İsmayılqızına** bacısı
RƏFİQƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Xanım İsmayılqızına** bacısı
RƏFİQƏ XANIMIN
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 122
Çapa imzalanmışdır:
16.03.2023